RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 18 (10038) 30 yanvar 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# O gedən qatarın dalınca baxma

## Yeni ildə yeni qələbələr gözləyir bizi

İşğal dövründə erməni təbliğatı Qarabağın haylara məxsusluğunu, "qədim erməni torpağı" olduğunu yorulmadan, utanmadan söylədi, təbliğ etdi.

Amma Qarabağda və Şərqi Zəngəzurda olduqları müddətdə özlərini "torpağın sahibi" kimi yox, qaçaq-quldur kimi apardılar:

Əvvəlcə qoyub gəldiyimiz ev-eşiyi, əmlakımızı qarət etdilər.

Sonra hazır evləri söküb-dağıdaraq daş, dəmir, taxta, şüşə materiallarını İran bazarlarında satıb pul qazandılar.

Yaşayış məntəqələrini xarabalıqlara, "ruhlar şəhəri"nə çevirdilər.

Hər şeyi dağıdaraq, dinc əhaliyə belə rəhm etməyərək urbisid, genosid, ekosidlər törətdilər.

Qarabağ bomboş, sahibsiz və sakinsiz qaldı.

"Qədim torpağ"ın "qədim sakinlər"i isə özlərininki adlandırdıqları yerlərdə yaşamadılar, yenə də qaraçılar kimi dünyaya səpələnərək günləri xoş keçən yerləri özlərinə "vətən" seçdilər.

Çünki xislətləri belədir.

İndi isə nə vaysınmağa, nə ağlamağa, yaxud nəyəsə boş ümidlər bəsləməyə dəyər.

Bəli, qatar getdisə, dayanmaz!

Qatar stansiyadan aralandısa, əlin çatmaz!

Nə qədər çağırsan da, arxasınca qaçsan da, faydası olmaz!

Bu gün Azərbaycan qüdrətli, nəhəng bir qatara bənzəyir!

Bu qatar öz yükünü uğur və nailiyyətlərlə, qələbə və zəfərlərlə tutub!

Vaxtilə onun yükünə sahib çıxmağa, relslərini dağıtmağa, yolundan sapdırmağa çalışanlar çox oldu!

Hətta müəyyən dövrdə bəzi uğurlar da qazana bildilər...

Amma bu qatarın əsl sükançıları öz yerlərini tutduqdan, sürəti artırdıqdan sonra əlləri boşda qaldı.

Çünki qatar yola çıxmazdan əvvəl ona yeni yollar çəkilərək polad relslər döşənmişdi, qəlbi vətənə məhəbbətlə dolu sərnişinlər tərbiyələndirilmişdi, mənzilbaşına rahat və təhlükəsiz çatması üçün körpülər qurulmuş, tunellər qazılmış, müasir stansiyalar inşa olunmuşdu.

Bu qatarla düşmənçilik edənlər, ona zərər yetirmək istəyənlər də vardı.

Cavablarını "dəmir yumruq"la aldılar!

Orduları diz çökdürüldü!

Özləri rəzil vəziyyətdə kapitulyasiya aktını imzaladılar.

Dediklərinin arxasından qaçmağa, sözlərindən dönməyə cəhd etsələr də, heç bir faydası olmadı.

Azərbaycan Prezidenti İlham Əliyev bütün istəklərini həyata keçirdi!

Azərbaycan Prezidenti İlham Əliyev bütün şərtlərini düşmənə qəbul etdirdi!

Azərbaycan Prezidenti İlham Əliyev nə istəyirdisə, necə və nə vaxt istəyirdisə, hamısını reallaşdırdı!

Məğlubiyyət illərindən Zəfər tarixinə keçid etdi!

Öz xalqını yurdsuzluqdan, Vətən həsrətindən qurtardı!

İndi yeni möcüzələr yaradır, Qarabağı, Şərqi Zəngəzuru cənnətə çevirir!

Düşmənlər isə yalnız arxamızca baxırlar.

Daha əlləri heç hara, heç nəyə çatmır.

Sürətlə irəliləyən qatarın arxasınca həsədlə baxa-baxa qalıblar.

4

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aşağıdakı əməkdaşlarına ali xüsusi rütbələr verilsin:

**"gömrük xidməti general-polkovniki" ali xüsusi rütbəsi**

Şahin Soltan oğlu Bağırov - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri

**"gömrük xidməti general-mayoru"ali xüsusi rütbəsi**

Fuad Elxan oğlu Məmmədov - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini

Fuad Mikayıl oğlu Aslanov - Rəqəmsal İdarəetmə Baş İdarəsinin rəisi

Elmir Bahadur oğlu Ramazanov - Bakı Baş Gömrük İdarəsinin rəisi.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2026-cı il*

## Azərbaycan regionda sabitliyin və əməkdaşlığın əsas təminatçısıdır

Prezident İlham Əliyev ölkəmizin gələcəyi olan gənclərimizin potensialından səmərəli istifadə olunmasını müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardan biri kimi müəyyənləşdirib. Sağlam, vətənpərvər, savadlı gəncliyimizin formalaşması, gənc ailələrin sosial təminatının yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. Milli-mənəvi dəyərlərimizin qorunması, Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm məkanı kimi tanınması, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviqi istiqamətlərində mühüm addımlar atılır. Dövlətimizin başçısının rəhbərliyi ilə bu sahədə görülən işlər nəticəsində Azərbaycan müxtəlif mədəniyyətlərin formalaşdığı, dinlərin qarşılıqlı hörmət və əməkdaşlıq şəraitində yaşadığı nümunəvi ölkə kimi beynəlxalq aləmdə yüksək nüfuz qazanıb.

Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə yüksək uğurlara imza atan Azərbaycan bu gün regionun sabit və dayanıqlı inkişafının əsas təminatçısıdır. Azərbaycan Prezidentinin təşəbbüskarı olduğu sülh gündəliyi beynəlxalq birliyin tam dəstəyini qazanıb və bu gün regionumuzda sabitlik, əmin-amanlıq hökm sürür, yeni əməkdaşlıqlar, tərəfdaşlıqlar üçün geniş imkanlar açılır.

3

## Azərbaycanın investisiya coğrafiyası genişlənir

### Prezident İlham ƏLİYEV:

"Bir çox digər ölkələrin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır"




Keçən ilin iyun ayında Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışında Prezident İlham Əliyevin dediyi kimi: "Bir çox digər ölkələrin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Biz anlayırıq ki, bundan sonra da enerji, neft və qaz bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayacaqdır".

Uzağa getməyək, elə bu günlərdə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) və Ərəb Enerji Fondu ("TAEF") CVC DIF ilə tərəfdaşlıq çərçivəsində, DIF VII fondunun "PAL Cooling Holding" ("PAL") şirkətində 50 faizlik pay əldə etməsi məqsədilə yaradılmış müştərək investisiya strukturuna sərmayə yatırmasını xatırlayaq. Keçən ilin iyununda qlobal özəl bazarlar üzrə aparıcı investisiya meneceri CVC-nin infrastruktur strategiyası olan CVC DIF və "Tabreed" dünyanın aparıcı mərkəzləşdirilmiş soyutma şirkətlərindən birinin - "PAL Cooling Holding"in alınması ilə bağlı razılığa gəlib.

9

## Beynəlxalq sülh platformasında Azərbaycanın rolu artır



Azərbaycanın Sülh Şurasında təsisçi üzv kimi iştirakı diplomatik uğur olmaqla yanaşı, beynəlxalq ictimaiyyətin ölkəmizin sülhə verdiyi töhfələrə olan etimadının təzahürüdür. Bu, Azərbaycanın həm regional, həm də qlobal səviyyədə sülhün təşviqinə verdiyi ardıcıl töhfələrin dünya miqyasında tanınmasının, beynəlxalq sülh platformasında artan rolunun göstəricisidir. Regional münaqişənin ədalətli həlli, suverenliyin və ərazi bütövlüyünün təmin olunması, dialoq və əməkdaşlığın təşviqi kimi vacib məsələlər Azərbaycanın qlobal sülh gündəliyinə verdiyi konkret töhfələrdir.

İşğal faktını heç zaman qəbul etməyən Azərbaycan süni şəkildə dondurulmuş Qarabağ münaqişəsini siyasi qətiyyəti və hərbi gücü ilə 2020-ci ilin payızında kökündən həll edib. İkinci Qarabağ müharibəsində BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı 4 qətnaməsini özü icra edərək ərazilərini işğaldan azad edən ölkəmiz bununla həm də beynəlxalq hüququn tələblərini yerinə yetirib.

5

## Qarabağ Universitetində 2025/2026-cı tədris ilinin payız semestri: *strateji fəaliyyətlər və nəticələr*




2025/2026-cı tədris ilinin payız semestrində Qarabağ Universitetində idarəetmədə sistemli, şəffaf və strateji yanaşmanın tətbiqi əsas prioritetlərdən biri olmuşdur. Akademik və inzibati struktur bölmələri arasında koordinasiyanın davamlı şəkildə gücləndirilməsi, tələbəyönümlü və nəticə əsaslı idarəetmə mexanizmlərinə üstünlük verilməsi universitetin dayanıqlı və rəqabətqabiliyyətli ali təhsil müəssisəsi kimi mövqeyinin möhkəmləndirilməsinə yönəlmişdir.

7

## Sülhə və barışa xidmət etməyən addım

### Aİ-nin Ermənistana maliyyə yardımı revanşistləri ruhlandırır

Aİ-dəki bəzi dairələr, xüsusilə Fransa kimi ölkələr fərqindədirlər ki, Azərbaycanın hərbi qüdrəti Ermənistandan qat-qat üstündür. Onların məntiqinə görə, sülh yalnız tərəflər "bərabər gücdə" olduqda qalıcı olur. Yəni Aİ-nin yardımı Ermənistanın müdafiə qabiliyyətini bir qədər artıraraq, onu danışıqlarda daha "dayanıqlı" etmək məqsədi daşıyır. Amma Aİ Ermənistan ordusuna logistika və tibbi avadanlıq verirsə, deməli, gələcəkdə bu avadanlıqlara xidmət edəcək mütəxəssislər, təlimçilər və məsləhətçilər də regiona gələcəklər. Bu isə göstərir ki, Aİ bölgədəki hərbi-siyasi rıçaqlarını gücləndirmək niyyəti güdür. Digər məqam odur ki, sülh sazişi imzalanarsa, Ermənistan cəmiyyətində "nə qazandıq, nə



itirdik?" sualı yaranacaq. Aİ bu cür yardımlarla Paşinyana daxili auditoriya qarşısında bir arqument verir. Baş nazir deyəcək ki, "baxın, biz Rusiya ilə məsafə saxladıq və qarşılığında Avropadan hərbi və maliyyə dəstəyi aldıq".

6

# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Gömrük orqanlarında səmərəli fəaliyyətinə görə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Quliyev Bəhruz Faiq oğlu
Şirinov Natiq Telman oğlu

**"Tərəqqi" medalı ilə**

Alverdiyev Tariyel Mehman oğlu
Məmmədov Elşən Malik oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Alışov Elvin Mahir oğlu
Bayramov Rəşad Fərrux oğlu
Dünyamalılı Emin Əhəd oğlu
Həsənov Rüstəm Abı oğlu
İsmayılov Amid Raqif oğlu
İsmayılov Seyfulla Lətif oğlu
Qasımov Orxan Araz oğlu
Quliyev Arif Mahmud oğlu
Qurbanov Vasif Elçin oğlu
Nəsibov Elxan Şiraslan oğlu
Nuriyev Nurlan Səxavət oğlu
Tağıyev Namiq İntiqam oğlu
Vəliyev Turqut Tehran oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 yanvar 2026-cı il*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 iyul tarixli 264 nömrəli Qərarı ilə təsdiq edilmiş "Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ilə bağlı hallar"da dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 26** **Bakı şəhəri, 27 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "İcra haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 3 iyun tarixli 209-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 iyun tarixli 424 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 iyul tarixli 264 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1344 (Cild I); 2024, № 4, maddə 440; 2025, № 2, maddə 204) ilə təsdiq edilmiş "Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ilə bağlı hallar"ın 10-cu hissəsinin birinci cümləsində "3 (üç) iş günü müddətində" sözləri "qərar verildiyi andan dərhal sonra" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 75-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 272 nömrəli və "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 avqust tarixli 463 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 27** **Bakı şəhəri, 27 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 75-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 272 nömrəli və "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə qrant verə bilən qurumların siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 4 avqust tarixli 463 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 216 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 6, maddə 789 (Cild I); 2024, № 7, maddə 904) ilə təsdiq edilmiş "Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2-ci bəndin birinci cümləsinə "və fiziki şəxsləri," sözlərindən sonra "bələdiyyələr," sözü əlavə edilsin;

1.2. 1.3-cü bəndə "digər qeyri-kommersiya qurumlarına" sözlərindən sonra ", bələdiyyələrə (bələdiyyə orqanlarına)" sözləri əlavə edilsin;

1.3. 1.4-cü bəndin birinci cümləsinə "fiziki şəxsi," sözlərindən sonra "bələdiyyələr," sözü əlavə edilsin;

1.4. 1.6-cı bəndin ikinci cümləsinə "fiziki şəxslərinə" sözlərindən sonra ", habelə bələdiyyələrə" sözləri əlavə edilsin;

1.5. 4.1-ci bəndin birinci cümləsinə "fiziki şəxsə" sözlərindən sonra ", habelə bələdiyyəyə" sözləri əlavə edilsin;

1.6. həmin Qaydaya 2 nömrəli əlavənin - "Qrant müqaviləsinin (qərarının) qeydə alınmasına dair ərizənin forması (hüquqi şəxs üçün)"nın və 4 nömrəli əlavənin - "Qrant müqaviləsində (qərarında) edilmiş dəyişikliyin qeydə alınmasına dair ərizənin forması (hüquqi şəxs üçün)"nın adında "(hüquqi şəxs üçün)" sözləri "(hüquqi şəxs, habelə bələdiyyə (bələdiyyə orqanı) üçün)" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 oktyabr tarixli 416 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1881 (Cild I); 2024, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Elmi fəaliyyətin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası"nın 1.3-cü bəndinə "şəxslərinə" sözündən sonra ", habelə bələdiyyələrə" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 353 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1087 (Cild I); 2024, № 3, maddə 302, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Turizm sahəsində layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası"nın 1.3-cü bəndinə "şəxslərinə" sözündən sonra ", habelə bələdiyyələrə" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası olub.

Məhkəmənin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclasda konstitusiyanın 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" qanunun 7.1-ci maddəsinə əsasən, Cinayət-Prosessual Məcəlləsinin 148.6 və 447.2-ci maddələrinin şərh edilməsinə dair Bakı Apellyasiya Məhkəməsinin müraciətinə baxılaraq, plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Müraciətə mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun fevralın 19-na təyin edilmiş iclasında baxılacaq.

# Milli Məclisin Sədri Sahibə Qafarova Oman Sultanlığı Şura Məclisinin Sədri ilə görüşüb





**Milli Məclisin Sədri Sahibə Qafarova Oman Sultanlığına rəsmi səfəri çərçivəsində yanvarın 29-da bu ölkənin Şura Məclisinin Sədri Şeyx Xalid bin Hilal Al Mavali ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Şura Məclisinin Sədri Milli Məclisin Sədrini salamlayaraq, dəvəti qəbul edib Oman Sultanlığına səfər etdiyinə görə spiker Sahibə Qafarovaya təşəkkürünü bildirib. Oman və Azərbaycan arasında siyasi və digər əlaqələrin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edən Şura Məclisinin Sədri qarşılıqlı münasibətlərin inkişafında parlamentlərin xüsusi rolunu qeyd edib. Diqqətə çatdırılıb ki, Milli Məclis Sədrinin bu səfəri qarşılıqlı əlaqələrin daha da genişləndirilməsinə töhfəsini verəcək. Şura Məclisinin Sədri bildirib ki, xalqlarımızın yaxınlığı da ölkələrarası münasibətlərimizi daha da inkişaf etdirməyə əsas verir.

Oman Sultanlığına rəsmi səfərə dəvətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən Milli Məclisin Sədri Sahibə Qafarova 2023-cü ilin yanvarında Əlcəzairdə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının 17-ci konfransı çərçivəsində həmsöhbəti ilə ilk dəfə görüşünü və o vaxtdan etibarən həmişə beynəlxalq təşkilatlar çərçivəsində görüşüb müzakirələr apardıqlarını məmnunluqla xatırlayıb.

Həmsöhbətinin 2024-cü ilin fevralında və 2025-ci ilin fevralında APA-nın 14-cü və 15-ci plenar sessiyalarında iştirak etmək üçün Azərbaycana iki səfərinin ardınca bu gün Omanda rəsmi səfərdə olmasından məmnunluqla danışan Milli Məclisin Sədri bu səfərin əhəmiyyətini qeyd edib. Diqqətə çatdırılıb ki, bütün sahələr üzrə münasibətləri inkişaf etdirmək üçün böyük potensial mövcuddur. Vurğulanıb ki, Azərbaycanın Omanda səfirlik açması ikitərəfli münasibətlərimizi yeni səviyyəyə qaldırıb. Söhbət zamanı Azərbaycan və Omanın beynəlxalq təşkilatlar çərçivəsində hər zaman bir-birini dəstəkləməsindən məmnunluq ifadə olunub.

Söhbətdə bildirilib ki, iqtisadiyyat, ticarət, investisiya, nəqliyyat, turizm və digər sahələrdə əməkdaşlığın inkişafı üçün yaxşı potensial var.

Görüşdə təhsil və mədəniyyət sahələrində münasibətlərin əhəmiyyəti xüsusi vurğulanıb. Milli Məclisin Sədri bildirib ki, bu mənada, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın bu ilin yanvar ayının əvvəlində Omana səfəri və bu səfər çərçivəsində aparılan müzakirələr mədəniyyət sahəsində əməkdaşlığımızı intensivləşdirəcək.

Vurğulanıb ki, parlamentlərin qarşılıqlı əlaqəsi ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm töhfə verir. Bu sahədə parlamentlərarası dostluq qruplarının fəaliyyəti çox vacibdir. Qeyd edilib ki, Asiya Parlament Assambleyası və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi bu sahədə mühüm platformalardır.

Söhbət zamanı Oman Sultanlığı Şura Məclisinin Sədri Şeyx Xalid bin Hilal Al Mavali Azərbaycanın müdrik rəhbərinin başçılığı ilə iqtisadi inkişafının şahidi olduqlarını diqqətə çatdırıb.

Görüşdə digər mövzularda da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Oman Sultanlığı Dövlət Şurasının Sədri ilə görüşüb





Milli Məclisin Sədri Sahibə Qafarova Oman Sultanlığına rəsmi səfəri çərçivəsində Oman Sultanlığı Dövlət Şurasının Sədri Şeyx Əbdülməlik Al Xəlili ilə görüşüb. Görüşdə ölkələrimiz arasında dostluq, qarşılıqlı hörmət və anlayışa əsaslanan ikitərəfli münasibətlərin mövcudluğu vurğulanıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qeyd edilib ki, xalqlarımız arasında mövcud tarixi, dini və mədəni oxşarlıqlar ölkələrimiz arasında münasibətlərin inkişafı üçün geniş imkanlar yaradır. Söhbət zamanı iki ölkənin qanunverici orqanları arasındakı əlaqələrə dair fikir mübadiləsi aparılıb və parlamentlər arasındakı qarşılıqlı fəaliyyətin münasibətlərin daha da inkişafına töhfə verdiyi vurğulanıb.

Tərəflər son illərdə parlamentlər səviyyəsində əlaqələrin dərinləşməsindən məmnunluq ifadə ediblər. Xüsusilə parlament sədrləri səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlər və müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində təmasların gücləndirilməsi əlaqələrimizin genişlənməsində mühüm amil kimi qiymətləndirilib.

Oman Sultanlığı Dövlət Şurasının Sədri Şeyx Əbdülməlik Al Xəlili Milli Məclis Sədrinin Oman Sultanlığına ilk rəsmi səfərinin ikitərəfli əlaqələrin daha da inkişafına təkan verəcəyinə inamını bildirib.

Vurğulanıb ki, parlamentlərimiz həm ikitərəfli, həm də beynəlxalq parlament platformalarında uğurlu əməkdaşlığa malikdir. O cümlədən Parlamentlərarası İttifaq, Asiya Parlament Assambleyası və İslam Əməkdaşlıq Təşkilatı kimi qurumlarda qarşılıqlı dəstək nümayiş olunur. Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi çərçivəsində əməkdaşlığın əhəmiyyətini vurğulayaraq Oman parlamentinin təşkilatda fəal iştirakından məmnunluğunu ifadə edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Azərbaycanla Oman arasında əməkdaşlığın böyük potensialı var



Milli Məclisin Sədri Sahibə Qafarova Oman Sultanlığına rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Bədr əl-Busaidi ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə xarici işlər naziri Bədr əl-Busaidi parlamentlər arasında münasibətlərin ölkələrimiz və xalqlarımız arasında əlaqələrə müsbət təsirini qeyd edərək, bu mənada Milli Məclis Sədrinin səfərinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

O, ölkələrimiz arasında siyasi, iqtisadi, turizm və biznes sahələrində əməkdaşlıq istiqamətində böyük potensialın mövcud olduğunu bildirib. Bu sahələr üzrə əlaqələrin daha da genişlənməsinə parlamentlərin mühüm töhfə verə biləcəyini söyləyib.

Nazir, Azərbaycanın strateji coğrafi mövqeyinin logistika və nəqliyyat sahələrində geniş imkanlar yaratdığını, Omanın isə əsas beynəlxalq nəqliyyat yollarının kəsişməsində yerləşməsinin birgə əməkdaşlığın daha da genişlənməsinə töhfə verəcəyini vurğulayıb.

Spiker Sahibə Qafarova görüşdə Azərbaycan ilə Oman arasında mövcud münasibətlərin möhkəm əsaslara söykəndiyini və bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş perspektivlərin olduğunu diqqətə çatdırıb.

O, beynəlxalq təşkilatlar çərçivəsində iki ölkə arasında əməkdaşlığın uğurla davam etdiyini, Oman Sultanlığının Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin təmin olunması ilə bağlı qəbul edilən sənədlərdə ölkəmizə daim dəstək göstərildiyini vurğulayıb.

Görüşdə Azərbaycanın Oman Sultanlığında səfirliyinin açılmasının ikitərəfli münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasına imkanlar yaratdığı qeyd edilib. İki ölkənin Xarici İşlər və İqtisadiyyat nazirlikləri arasında təmasların əhəmiyyəti də diqqətə çatdırılıb.

Sahibə Qafarova qanunverici orqanlar arasında əməkdaşlığın yüksək qiymətləndirildiyini, parlament diplomatiyası vasitəsilə qarşılıqlı dəstəyin davamlılığının təmin edilməsi istiqamətində ardıcıl səylərin göstərildiyini bildirib. Qeyd olunub ki, 2023-cü ilin yanvarında iki ölkənin spikerləri arasında baş tutan ilk görüşdən sonra parlamentlərarası əməkdaşlıq əhəmiyyətli dərəcədə genişlənib, müxtəlif səfər və tədbirlər çərçivəsində qarşılıqlı görüşlər keçirilib.

Tərəflər həyata keçirilən qarşılıqlı təmasların ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə töhfə verdiyini qeyd ediblər.

Spiker Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan və Oman sülhpərvər dövlətlərdir və sabitliyin qorunmasına və qarşılıqlı əməkdaşlığın inkişafına xüsusi önəm verirlər. Bu baxımdan iki ölkə arasında əlaqələrin inkişafı həm məntiqli, həm də zəruri xarakter daşıyır.

Görüşdə humanitar əməkdaşlıq məsələləri də müzakirə edilib. Bu çərçivədə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın bu ölkəyə səfərinin mədəni əlaqələrin, humanitar əməkdaşlığın müzakirəsi baxımından əhəmiyyətli olduğu vurğulanıb.

Söhbət zamanı regiondakı mövcud vəziyyət barədə də fikir mübadiləsi aparılıb. Spiker Sahibə Qafarova Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən sonra ölkəmizin təşəbbüsü ilə regionda sülh prosesinin başlandığını, xüsusilə Vaşinqton sammitindən sonra Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində mühüm irəliləyişlərin əldə olunduğunu diqqətə çatdırıb. Həmçinin regionda yeni nəqliyyat bağlantılarının yaradılması istiqamətində görülən işlərin sabitliyə və əməkdaşlığa töhfə verəcəyi qeyd olunub.

*"Azərbaycan"*

# Parlament nümayəndə heyəti Azərbaycanın Oman Sultanlığındakı səfirliyində olub





Milli Məclisin Sədri Sahibə Qafarova Oman Sultanlığına rəsmi səfəri çərçivəsində bu ölkənin paytaxtı Məsqət şəhərində Azərbaycan Respublikasının səfirliyində olub.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri və parlament nümayəndə heyəti səfirlikdə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyublar. Daha sonra Sahibə Qafarova və nümayəndə heyətinin üzvləri səfirlik əməkdaşları ilə görüşərək, onlar üçün yaradılmış iş şəraiti ilə tanış olublar.

Spiker Sahibə Qafarova səfirlikdə xatirə kitabına ürək sözlərini yazıb.

*"Azərbaycan"*

# Rəqəmsal texnologiyaların inkişafı cinayət mühakimə icraatının qarşısında yeni çağırışlar formalaşdırır

Yanvarın 29-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin videokonfrans formatında iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda beş qanun layihəsi müzakirəyə çıxarılıb.




Əvvəlcə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə (birinci oxunuş) baxılıb.

Komitənin sədri Əli Hüseynli sənədin əhəmiyyəti barədə fikirlərini açıqlayaraq, layihədə təklif olunan dəyişikliklərin cinayət mühakimə icraatının elektron qaydada aparılması məsələləri ilə bağlı olduğunu və şəffaflığın, məhkəmə-hüquq sistemində həyata keçirilən islahatların səmərəliliyinin artırılmasına xidmət etdiyini söyləyib.

Sonra Ali Məhkəmənin Cinayət Kollegiyasının sədri Hafiz Nəsibov qanun layihəsi barədə danışaraq məhkəməyə qədər icraatın elektronlaşmasının bütövlükdə cinayət prosesinin daha səmərəli şəkildə aparılmasına töhfə verəcəyini qeyd edib. Bildirib ki, təklif olunan dəyişikliklər cinayət prosesinə cəlb olunan şəxslərə bu prosesdə daha rahat iştirak etmək imkanları verəcək, cinayət təqibini aparan orqanların işini, habelə sənəd mübadiləsini asanlaşdıracaq. Diqqətə çatdırılıb ki, bununla yanaşı layihədə edilən əlavələr elektron sübutların toplanması prosesini, o cümlədən elektron verilənlərin əldə edilməsi, mühafizəsi və prosessual rəsmiləşdirilməsi qaydalarının müəyyən edilməsi, İKT sistemlərinə baxış, axtarış və götürmə tədbirlərinin hüquqi əsaslarının və hədlərinin dəqiqləşdirilməsi ilə bağlı məsələləri tam hüquqi çərçivəyə salır.

Onlayn iclasda Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova çıxış edərək, müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafının cinayət mühakimə icraatının qarşısında yeni çağırışlar qoyduğunu deyib. O, klassik cinayət-prosessual mexanizmlərin informasiya-kommunikasiya vasitələrindən istifadə edilməklə törədilən və gizlədilən cinayətlərin aşkarlanmasında effektiv olmadığını söyləyib. Bu baxımdan BMT-nin Kibercinayətkarlığa qarşı Konvensiyasının hazırlandığını və 2025-ci ilin 25 oktyabr tarixində Hanoy şəhərində ölkəmiz adından müvafiq bəyanatlar və qeyd-şərtlərlə imzalandığını bildirib. Qeyd edilib ki, layihədə cinayət və cinayət-posessual qanunvericiliyində texnoloji tərəqqiyə uyğun olaraq köhnəlmiş ifadələr müasir terminlərlə əvəz edilir. Belə ki, Konvensiyanın tələblərinə müvafiq olaraq, qanunvericilikdəki "kompüter sistemi" ifadəsi "İKT sistemi", "kompüter məlumatları" isə "elektron verilənlər" terminləri ilə əvəz edilir. Eyni zamanda qanunvericiliyə "trafik verilənləri", "abunəçi məlumatları", "məzmun verilənləri" və "xidmət provayderi" kimi yeni hüquqi anlayışlar daxil edilir.

Sonra Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü, cinayət hüququ üzrə İşçi qrupun rəhbəri İlhamə Həsənova çıxış edərək, layihənin cinayət-mühakimə icraatının müasir texnoloji tələblərə uyğunlaşdırılması baxımından səmərəli olduğunu bildirib. O, sənəddə elektron sübutların ayrıca olaraq təsbiti, terminoloji bazanın yenilənməsi, mühafizə mexanizmlərinin formalaşdırılması, rəqəmsal axtarışın hüquqi çərçivəyə salınması, elektron icraat, elektron kabinet mexanizmlərinin və digər məsələlərin təsbit olunduğunu müsbət dəyərləndirib, habelə bəzi qeyd və təkliflərini səsləndirib.

Müzakirələr zamanı komitə üzvləri Erkin Qədirli və Əminə Ağazadə öz fikirlərini açıqlayıblar. Bununla deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirilib.

Sonra komitə sədri "İnformasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən müəyyən cinayətlərlə mübarizədə və ağır cinayətlərə aid olan sübutların elektron formada mübadiləsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi - Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyası"nın təsdiq edilməsi haqqında qanun layihəsini təqdim edib.

Qeyd olunub ki, Konvensiyanın əsas məqsədi informasiya və kommunikasiya texnologiyaları sistemlərindən istifadə etməklə törədilən cinayətlərlə mübarizədə dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi, habelə ağır cinayətlərə aid olan sübutların elektron formada toplanması, mübadiləsi və mühafizəsi üçün vahid hüquqi çərçivənin formalaşdırılmasıdır.

Daha sonra Əli Hüseynli Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsinə dair məlumat verib. Diqqətə çatdırılıb ki, layihə cərimənin icrasında prioritet ardıcıllığın yenidən nəzərdən keçirilməsini, o cümlədən cərimənin ilk növbədə məhkumun əməkhaqqına və ya başqa qazancına yönəldilməsini, icra prosesinin operativliyinin artırmasını və cərimə məbləğinə ekvivalent olmayan əmlaka həbs qoyulmasını və satış zərurətinin minimuma endirilməsini təmin etmək məqsədilə hazırlanıb.

Onlayn iclasda Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə də baxılıb.

Komitə sədri bildirib ki, layihədə dövlət mülkiyyətində olan hava limanlarının və aerodromların genişləndirilməsi və ya yeni hava limanlarının və aerodromların inşası zərurətinin torpağın alınmasına əsas verən dövlət ehtiyacları siyahısına daxil edilməsi nəzərdə tutulur.

Tədbirdə həmçinin Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Ailə Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Sosial xidmət haqqında", "Reklam haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Uşaqların zərərli informasiyadan qorunması haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) nəzərdən keçirilib. Sənəddə "Uşaq hüquqları haqqında" yeni qanun layihəsindən irəli gələn bir sıra dəyişikliklərin əks olunduğu bildirilib.

Müzakirəyə çıxarılan qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Azərbaycan regionda sabitliyin və əməkdaşlığın əsas təminatçısıdır

Prezident İlham Əliyev Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi istiqamətindəki səylərinə görə 2026-cı il üzrə "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülüb. Dövlətimizin başçısının müəyyənləşdirdiyi strateji xətt ölkəmizin dayanıqlı inkişafı ilə yanaşı, regionda sülhün və sabitliyin bərqərar olmasını təmin edib. İnkişafının yeni mərhələsində inamla addımlayan Azərbaycan, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində ötən illər ərzində bütün istiqamətlərdə fundamental dəyişikliklərə, tarixi uğurlara imza atıb.



Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov qəzetimizə açıqlamasında bildirib ki, ölkəmizin güclü iqtisadi potensialı formalaşıb, müasir cəmiyyət quruculuğu istiqamətində mühüm nailiyyətlər əldə olunub, əhalinin rifahı əsaslı şəkildə yüksəlib, təhlükəsizlik və müasir ordu quruculuğu sahəsində mühüm nəticələr əldə edilib. Ölkəmizin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə yüksəlib, Azərbaycan regional və qlobal miqyasda strateji əhəmiyyətə malik etibarlı tərəfdaş kimi güclü mövqe qazanıb. "Möhtərəm Prezidentimizin müəyyənləşdirdiyi praqmatik və nəticəyönümlü siyasət nəticəsində ərazi bütövlüyünü və dövlət suverenliyini tam təmin edən Azərbaycan işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərini uğurla həyata keçirir. Böyük qayıdış prosesinin ardıcıl və təhlükəsiz şəkildə davam etdirilməsi nəticəsində bu gün 70 mindən çox insanın Qarabağ və Şərqi Zəngəzurda yaşayışı təmin olunub. İşğal dövründə dağıdılmış şəhər və kəndlərimiz ən müasir standartlara uyğun şəkildə bərpa olunur", - deyə deputat əlavə edib.

Komitə sədri qeyd edib ki, Azərbaycanda qabaqcıl elmə və yüksək texnologiyalara əsaslanan iqtisadiyyatın formalaşdırılması ölkə rəhbərinin müəyyənləşdirdiyi siyasətin prioritet istiqamətlərindəndir. Azərbaycanda yaradılan əlverişli investisiya mühiti dünyanın ən nüfuzlu şirkətlərinin ölkəmizə olan marağını daha da artırır. Azərbaycan Prezidentinin Davos İqtisadi Forumunda iştirakı çərçivəsində keçirilən görüşlər, aparılan müzakirələr bunun əyani təzahürüdür.

Deputat deyib ki, Prezident İlham Əliyev ölkəmizin gələcəyi olan gənclərimizin potensialından səmərəli istifadə olunmasını müstəqil Azərbaycanın intensiv inkişafını təmin edən fundamental faktorlardan biri kimi müəyyənləşdirib: "Sağlam, vətənpərvər, savadlı gəncliyimizin formalaşması, gənc ailələrin sosial təminatının yüksəldilməsi daim diqqət mərkəzində saxlanılır. Milli-mənəvi dəyərlərimizin qorunması, Azərbaycanın dünyada tolerantlıq və multikulturalizm məkanı kimi tanınması, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun təşviqi istiqamətlərində mühüm addımlar atılır. Dövlətimizin başçısının rəhbərliyi ilə bu sahədə görülən işlər nəticəsində Azərbaycan müxtəlif mədəniyyətlərin formalaşdığı, dinlərin qarşılıqlı hörmət və əməkdaşlıq şəraitində yaşadığı nümunəvi ölkə kimi beynəlxalq aləmdə yüksək nüfuz qazanıb".

Ş.İsmayılov vurğulayıb ki, Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə yüksək uğurlara imza atan Azərbaycan bu gün regionun sabit və dayanıqlı inkişafının əsas təminatçısıdır. Azərbaycan Prezidentinin təşəbbüskarı olduğu sülh gündəliyi beynəlxalq birliyin tam dəstəyini qazanıb və bu gün regionumuzda sabitlik, əmin-amanlıq hökm sürür, yeni əməkdaşlıqlar, tərəfdaşlıqlar üçün geniş imkanlar açılır.

Komitə sədri qeyd edib ki, Azərbaycan Prezidentinin nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi də dövlət başçısının ölkəmizdə inkişafın təmin olunmasına, ədalət prinsiplərinə, beynəlxalq hüquqa, qarşılıqlı hörmətə əsaslanan müdrik siyasətinə, sülhün və sabitliyin təmin olunması, mədəniyyətlər və sivilizasiyalar arasında körpülərin qurulması istiqamətində gördüyü işlərə dünya birliyinin verdiyi yüksək qiymətin bariz təzahürüdür.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

İllər də qatar kimidir.
Öz yükünü daşıyıb aparır...
İllər də qatar kimidir.
Getdisə, nə dayanır, nə də geri dönür...

**Daha bir ilimiz qatara dönərək bizdən uzaqlaşır, qərinələrə və əsrlərə qovuşur.**

**Elə ki, bizdən aralanaraq gedir, nə əlimiz ona çatır, nə də onu dəyişə bilirik.**

*Çünki dönüb olur tarixin bir parçası.*

**2020-ci ildən bəri bizdən ayrılan, tarixə çevrilən hər il möhtəşəm bir qələbə ilə yadda qalır.**

- Ən böyük arzumuza qovuşmuşuq!
- Ən əlçatmaz istəyimizə yetmişik!

*İndi isə yenidən illərlə həsrətini çəkdiyimiz el-obamıza qayıdaraq uzun bir dövrün ağrı-acılarını unudur, doğma yurdda dövlətimizin bizə səxavətlə bəxş etdiyi yeni evlərdə və mənzillərdə xoşbəxt və sevincli günlərimizi yaşayırıq.*

❖❖❖

**Yola saldığımız 2025-ci ildə 44 günlük Zəfər müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u sayəsində qazanılan şanlı qələbənin beşinci ildönümünü də qeyd etdik.**

- Dostlarımızla, qardaşlarımızla, bizi istəyənlərlə birlikdə!
- Dövlətimizin qüdrətini, ordumuzun gücünü, xalqımızın milli birliyini nümayiş etdirməklə!

*Bu, bizim zəfərdir, bizim qələbədir, bizim sevincimizdir!*

*Hamı ilə səxavətlə bölüşməyə hazırıq!*

*Elə bölüşürük də!*

Gəlin birlikdə geriyə boylanaq...

❖❖❖

Ötən əsrin sonlarında qırmızı imperiyanın parçalanma prosesinin başlanması SSRİ-yə daxil olan respublikaların müstəqillik arzusunun gerçəkləşməsinə də imkan yaratdı.

Xalqımız da əsrin əvvəllərində sovet rejiminin hərbi təcavüzü nəticəsində müstəqillikdən məhrum olan Azərbaycan Xalq Cümhuriyyətinin yenidən dirçəldilməsi istəyini ortaya qoydu.

Lakin çox ciddi çətinliklər də mövcud idi!

Əvvəla, karbohidrogen ehtiyatları ilə zəngin olan Azərbaycanı mərkəz heç vəchlə əldən buraxmaq niyyətində deyildi.

Odur ki, ehtiyatda saxladığı "Qarabağ münaqişəsi" adlı məkrli planını yenidən dövriyyəyə qaytardı.

**Digər tərəfdən, Azərbaycan xalqı əsl rəhbərindən, dünyaşöhrətli siyasətçi Heydər Əliyevdən ayrı düşdüyündən öz niyyətini gerçəkləşdirmək imkanına malik deyildi.**

*Həmin dövrdə Azərbaycana maymaq, qorxaq, təcrübəsiz və səriştəsiz, ən əsası, şəxsi maraqlarını daim hər şeydən üstün tutanlar başçılıq etdiklərindən arzunun gerçəkləşdirilməsi mümkün görünmürdü.*

Elə də oldu!

**Naşıların, qorxaqların və təcrübəsizlərin səhvləri ucbatından Azərbaycan nəinki dövlət müstəqilliyi qazandı, əksinə, Qarabağ və üstəlik ona bitişik yeddi rayon da Ermənistan tərəfindən işğal olunaraq itirildi.**

*Havadarlarının köməyi ilə belə bir uğura nail olan ermənilər bunu lovğalıqla özlərinin "məğlubedilməz xalq", ordularının isə "məğlubedilməz ordu" olması ilə izah edirdilər.*

Dünya erməniliyinin satın aldığı beynəlxalq təşkilatlar, bir sıra dövlətlərin siyasətçiləri və parlament üzvləri isə separatçıları açıq-aşkar müdafiə edir, beynəlxalq hüququn və BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsinin ayaqlar altında qalmasına göz yumurdular.

**Qurtuluş missiyası baş tutandan, xalq öz sevimli rəhbəri Ulu Öndər Heydər Əliyevə qovuşandan sonra torpaqların işğaldan azad olunması üçün uzun bir yol qət etmək lazım gəldi!**

❖❖❖

**Azərbaycanı xaos, anarxiya və özbaşınalıq bataqlığından qurtaran, ölkədə möhkəm və dönməz sabitlik yaradan, müstəqilliyimizi əbədiliyə çevirən Ulu Öndər Heydər Əliyev əbədiyyətə qovuşandan sonra bu missiyanı onun ən layiqli siyasi varisi cənab İlham Əliyev yerinə yetirməli oldu!**

*Prezident İlham Əliyevin gərgin və səmərəli fəaliyyəti sayəsində tarixinin ən qüdrətli Azərbaycanı yaradıldı, ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə yüksəldildi, yeni gənclər nəsli tərbiyələndirilərək onların iştirakı ilə möhtəşəm ordu quruldu, ordu ən yeni texnologiyalara əsaslanan müasir silahlarla silahlandırıldı.*

Uzun müddət davam edən bu dövrdə isə ermənilər özlərini işğal etdikləri torpaqların sahibi kimi aparır, sülh danışıqlarını əsassız surətdə uzadaraq Azərbaycanda dünyaya gələcək yeni nəslin Qarabağ uğrunda döyüşməyəcəyini, torpaqların işğalını unudacaqlarını və "yeni reallıqlar"la barışacaqlarını güman edirdilər.

Hətta o qədər qudurmuşdular ki, ərazimizdə "Artsax respublikası" adlı qondarma qurum yaradaraq müntəzəm saxta seçkilər keçirir, oyuncaq "prezidentlər", "parlament üzvləri", "xarici işlər nazirləri" seçərək onların xarici ölkələrə səfərlərini təşkil edirdilər.

ATƏT-in Minsk qrupu isə "turist səfərləri" ilə baş qatır, ermənipərəst mövqe nümayiş etdirirdi.




# O gedən qatarın dalınca baxma

**"Beş il bundan əvvəl Vətən müharibəsi zamanı əldə etdiyimiz tarixi Zəfərimiz bizimlə əbədi olacaq. Azərbaycan xalqı bu Qələbə ilə əbədi olaraq fəxr edəcəkdir. Biz otuzillik erməni işğalına son qoyduq, ərazi bütövlüyümüzü, suverenliyimizi, milli ləyaqətimizi bərpa etdik. Bu il Zəfərimizin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda son illər ərzində ordu quruculuğunda görülmüş işlərin bir hissəsi xalqımıza və bütün dünyaya nümayiş etdirildi".**

**İlham ƏLİYEV**

Nəhayət, düşmənin azğınlığına, beynəlxalq təşkilatların ikiüzlü siyasətinə son qoymaq vaxtı gəlib çatdı!

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğ"u işə düşdü!**

**Dünya birliyinin 30 ildə edə bilmədiyini cənab İlham Əliyev 44 gündə həyata keçirdi!**

Həm də böyük şücaət və qəhrəmanlıqla, möcüzəvi bir şəkildə!

❖❖❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyev Ermənistanı təkcə döyüş meydanında deyil, diplomatiya sahəsində və informasiya müharibəsində də acınacaqlı məğlubiyyətə uğratdı!**

*Bütün xahiş-minnətə, yalvarışlara baxmayaraq, düşmən öz qoşunlarının Azərbaycan ərazisindən çıxarılması qrafikini təqdim etməyənə qədər hərbi əməliyyatları dayandırmadı.*

**Böyük itkilər verən, 12 min əsgəri fərarilik edən Ermənistan İlham Əliyevin bütün şərtlərini qəbul edərək kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı.**

Hələ məsələ bununla da bitmədi.

- 2023-cü il aprelin 23-də ölkəmizin ərazi bütövlüyü bərpa olundu.
- 2023-cü il sentyabrın 19-20-də antiterror əməliyyatı nəticəsində dövlət suverenliyi və konstitusiya əsasları təmin edildi.
- 2024-cü il iyunun 12-də isə Rusiyanın sülhməramlı kontingenti ərazimizi birdəfəlik tərk etdi.

Baş verənlərdən başını itirən Ermənistan rəhbərliyi çıxış yolunu üçtərəfli Bəyanatda üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməməkdə, yenidən köhnə dostlarına və "ənənəvi havadarları"na güvənərək nəyinsə dəyişə biləcəyinə boş ümidlər bəsləməkdə görürdü.

**8 avqust 2025-ci ildə Vaşinqtonda ABŞ Prezidenti D.Trampın iştirakı ilə keçirilən görüşdə imzalanan sənədlər Azərbaycanın zəfərinin geridönməz olduğunu bir daha ortaya qoydu!**

Ermənistanın Baş naziri N.Paşinyanın imzaladığı sənədlər ikili oyun oynamağın və geriyə dönüşün mümkünsüzlüyünü bir daha əyani şəkildə təsdiq etdi.

ATƏT-in Minsk qrupunun dekabrın 1-də öz fəaliyyətini dayandırmaq barədə qəbul etdiyi qərar isə ermənilərin bəzi məkrli niyyətlərinin üstündən yenidən qara bir xətt çəkmiş oldu.

- Azərbaycan qalibdir və qələbəsini sonadək həyata keçirməyə qadirdir!
- Nə maliyyə yardımı, nə də kimlərinsə Ermənistana aşkar və gizli dəstəyi nəyisə dəyişə bilər!
- Azərbaycanın iradəsi əsasında Cənubi Qafqazda sülh də yaradılacaq, Zəngəzur dəhlizi (TRIPP) də işə salınacaq, bölgədə söz sahibi olan ölkəmiz hamıya fayda gətirən Orta dəhliz layihəsini işə salmaqla istəklərinə sonadək çatacaqdır!

❖❖❖

Artıq "miatsum", "DQR", "Artsax respublikası" kimi sayıqlamalar, iddialar, onlara nail olmaq üçün törədilən qanlı əməllər və min bir oyunbazlıqlar arxada qalıb.

*Azərbaycan atalar sözündə deyildiyi kimi, "o babanız öldü"!*

*İndi tarixin təzə səhifəsi açılıb!*

**"Bütün dünya bizim Zəfərimizi qəbul edir və bizim haqlı olduğumuzu əyani şəkildə görür. Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün mandat almış Minsk qrupu isə tarixin arxivinə göndərildi. Beləliklə, Qarabağ münaqişəsi artıq beynəlxalq gündəlikdən tamamilə silinmişdir. Zəfər çalmış ölkə kimi biz məğlub edilmiş Ermənistana sülh əlimizi uzatdıq. Bu da bizim uzaqgörən siyasətimizin təzahürüdür".**

**İlham ƏLİYEV**

*Bu gün ağlı başında olanlar tam dərinliyi ilə anlayırlar ki, sülh bizdən daha çox ermənilərə gərəkdir.*

*N.Paşinyan demişkən: "Mifik Ermənistan"ın dalınca düşsəniz, "real Ermənistan"dan məhrum olacaqsınız!*

**Yeganə çıxış yolunuz Müzəffər Ali Baş Komandan İlham Əliyevin irəli sürdüyü bütün şərtləri dəqiqliklə yerinə yetirməkdir.**

Artıq anlamaq məqamıdır: keçmiş babanız da öldü, o qatar da getdi!

❖❖❖

2025-ci ili həm də Ermənistanın puça çıxan ümidləri ili də hesab etmək olar.

- "Dəmir yumruq" bütün "uğur", "qələbə", "əbədilik" hesab olunan "reallıqlar"ı puça çıxardı.
- "Bəlkə də qaytardılar" niyyəti mənasız gözləntilərdən başqa bir şey deyil.
- Heç bir kənar müdaxilə xülyası ilə də kiminsə nəyisə dəyişəcəyinə inanmaq axmaqlıqdır.

Getdi o günlər.
Getdi o qatar.

❖❖❖

*İşğal dövründə erməni təbliğatı Qarabağın haylara məxsusluğunu, "qədim erməni torpağı" olduğunu yorulmadan, utanmadan söylədi, təbliğ etdi.*

*Amma Qarabağda və Şərqi Zəngəzurda olduqları müddətdə özlərini "torpağın sahibi" kimi yox, qaçaq-quldur kimi apardılar:*

- Əvvəlcə qoyub gəldiyimiz ev-eşiyi, əmlakımızı qarət etdilər.
- Sonra hazır evləri söküb-dağıdaraq daş, dəmir, taxta, şüşə materiallarını İran bazarlarında satıb pul qazandılar.
- Yaşayış məntəqələrini xarabalıqlara, "ruhlar şəhəri"nə çevirdilər.
- Hər şeyi dağıdaraq, dinc əhaliyə belə rəhm etməyərək urbisid, genosid, ekosidlər törətdilər.
- Qarabağ bomboş, sahibsiz və sakinsiz qaldı.
- "Qədim torpağ"ın "qədim sakinlər"i isə özlərininki adlandırdıqları yerlərdə yaşamadılar, yenə də qaraçılar kimi dünyaya səpələnərək günləri xoş keçən yerləri özlərinə "vətən" seçdilər.

**Çünki xislətləri belədir.**

**İndi isə nə vaysınmağa, nə ağlamağa, yaxud nəyəsə boş ümidlər bəsləməyə dəyər.**

❖❖❖

*Bəli, qatar getdisə, dayanmaz!*

*Qatar stansiyadan aralandısa, əlin çatmaz!*

*Nə qədər çağırsan da, arxasınca qaçsan da, faydası olmaz!*

**Bu gün Azərbaycan qüdrətli, nəhəng bir qatara bənzəyir!**

**Bu qatar öz yükünü uğur və nailiyyətlərlə, qələbə və zəfərlərlə tutub!**

Vaxtilə onun yükünə sahib çıxmağa, relslərini dağıtmağa, yolundan sapdırmağa çalışanlar çox oldu!

Hətta müəyyən dövrdə bəzi uğurlar da qazana bildilər...

Amma bu qatarın əsl sükançıları öz yerlərini tutduqdan, sürəti artırdıqdan sonra əlləri boşda qaldı.

Çünki qatar yola çıxmazdan əvvəl ona yeni yollar çəkilərək polad relslər döşənmişdi, qəlbi vətənə məhəbbətlə dolu sərnişinlər tərbiyələndirilmişdi, mənzilbaşına rahat və təhlükəsiz çatması üçün körpülər qurulmuş, tunellər qazılmış, müasir stansiyalar inşa olunmuşdu.

*Bu qatarla düşmənçilik edənlər, ona zərər yetirmək istəyənlər də vardı.*

*Cavablarını "dəmir yumruq"la aldılar!*

Orduları diz çökdürüldü!

Özləri rəzil vəziyyətdə kapitulyasiya aktını imzaladılar.

Dediklərinin arxasından qaçmağa, sözlərindən dönməyə cəhd etsələr də, heç bir faydası olmadı.

**Azərbaycan Prezidenti İlham Əliyev bütün istəklərini həyata keçirdi!**

**"Biz "Böyük qayıdış" proqramını uğurla icra edirik və işğaldan azad edilmiş ərazilərdə bu gün böyük quruculuq işləri aparılır və artıq 70 minə yaxın insan orada yaşayır, çalışır, təhsil alır. Keçmiş köçkünlər 32 kənd, qəsəbə və şəhərdə yerləşiblər və onlar üçün ən gözəl şərait yaradılmışdır".**

**İlham ƏLİYEV**

**Bu səhifəni Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 gün ərzində "dəmir yumruğ"u ilə açdı!**

Bizdən aman diləyərkən, "dost-tanışları"nı hərbi əməliyyatların dayandırılması üçün minnətçi salarkən ermənilər anlamışdılar ki, müharibə daha 44 gün də davam etsə, aqibətləri necə olacaq.

*Azərbaycan qalib olaraq, güclü olaraq sülh istəyir!*

*Onun özgə torpaqlarında gözü yoxdur!*

*Öz torpaqlarının isə bir qarışını belə kimsəyə güzəştə gedən deyil!*

Necə ki getmədi və ərazilərini işğaldan tam azad etdi!

**Azərbaycan Prezidenti İlham Əliyev bütün şərtlərini düşmənə qəbul etdirdi!**

**Azərbaycan Prezidenti İlham Əliyev nə istəyirdisə, necə və nə vaxt istəyirdisə, hamısını reallaşdırdı!**

*Məğlubiyyət illərindən Zəfər tarixinə keçid etdi!*

*Öz xalqını yurdsuzluqdan, Vətən həsrətindən qurtardı!*

**İndi yeni möcüzələr yaradır, Qarabağı, Şərqi Zəngəzuru cənnətə çevirir!**

**Düşmənlər isə yalnız arxamızca baxırlar.**

**Daha əlləri heç hara, heç nəyə çatmır.**

Sürətlə irəliləyən qatarın arxasınca həsədlə baxa-baxa qalıblar.

**Bəxtiyar SADIQOV**

# Azərbaycanın xarici siyasətinin uğurları

**ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasının timsalında bu gün Azərbaycanın qlobal sülh platformalarında iştirakı ölkəmizin beynəlxalq nüfuzunun artdığını və etibarlı tərəfdaş kimi qəbul edildiyini göstərir. Sülhü yalnız sözdə deyil, konkret addımları, diplomatik təşəbbüsləri və tərəfdaşlıq layihələri ilə əyani şəkildə dəstəkləyən Bakı daim dialoq və əməkdaşlığı öz siyasətində prioritet hesab edir, iradəsi və məsuliyyəti ilə barışın mümkün olduğunu ortaya qoyur.**



## Beynəlxalq sülh platformasında Azərbaycanın rolu artır

Onilliklər boyu silahların susmadığı Cənubi Qafqazda hazırda var olan de-fakto sülh bunu təsdiqləyir. Bu baxımdan Azərbaycanın sülh modelini təkcə regional deyil, dünya üçün sabit və təhlükəsiz gələcəyə doğru yol xəritəsi də adlandırsaq, yanılmarıq.

### Dünyəvi barışa töhfə

Ölkəmizin Sülh Şurasında iştirakı təsadüfi deyil. Yanvarın 22-də Ümumdünya İqtisadi Forumu çərçivəsində Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədinin imzalanma mərasimi keçirilib. Prezident İlham Əliyev, tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədini imzalayıblar. Bununla da Azərbaycan Sülh Şurasının təsisçi üzvlərindən biri olub. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasının "X" sosial mediasında səhifəsi yaradılıb. Səhifədə Sülh Şurası təsisçi üzv kimi Azərbaycanı salamlayıb.

Azərbaycanın Sülh Şurasında təsisçi üzv kimi iştirakı diplomatik uğur olmaqla yanaşı, beynəlxalq ictimaiyyətin ölkəmizin sülhə verdiyi töhfələrə olan etimadının təzahürüdür. Bu, Azərbaycanın həm regional, həm də qlobal səviyyədə sülhün təşviqinə verdiyi ardıcıl töhfələrin dünya miqyasında tanınmasının, beynəlxalq sülh platformasında artan rolunun göstəricisidir. Regional münaqişənin ədalətli həlli, suverenliyin və ərazi bütövlüyünün təmin olunması, dialoq və əməkdaşlığın təşviqi kimi vacib məsələlər Azərbaycanın qlobal sülh gündəliyinə verdiyi konkret töhfələrdir.

İşğal faktını heç zaman qəbul etməyən Azərbaycan süni şəkildə dondurulmuş Qarabağ münaqişəsini siyasi qətiyyəti və hərbi gücü ilə 2020-ci ilin payızında kökündən həll edib. İkinci Qarabağ müharibəsində BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı 4 qətnaməsini özü icra edərək əraziləri işğaldan azad edən ölkəmiz bununla həm də beynəlxalq hüququn tələblərini yerinə yetirib.

Sülh yaradan lider kimi adı tarixə yazılan Prezident İlham Əliyevin postmünaqişə dövründə yürütdüyü siyasi xətt də barış, qarşılıqlı anlaşma və əməkdaşlıq istiqamətində oldu.

Ötən müddətdə Azərbaycan sülh gündəliyinin irəlilədilməsi üçün atdığı real addımlarla əsas hədəfinin dayanıqlı sülh olduğunu göstərdi. Hazırda Cənubi Qafqazda birgəyaşayış və əməkdaşlıq üçün formalaşdırılmış münbit zəmin də elə Bakının davamlı sülh səylərinin uğurlu nəticəsidir.

Yanvarın 20-də Davos Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda keçirilən panel iclası zamanı Prezident İlham Əliyev bölgədə bərqərar olan barışla bağlı dedi ki, biz ədaləti, beynəlxalq hüququ, suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdik, sonra isə sülhə nail olduq: "Otuz il davam etmiş müharibə və qan tökülməsindən sonra həqiqi sülhün bərqərar olması hər halda misilsiz bir hadisədir".

### Qafqazda sülhün yaradılması səylərinə verilən qiymət

Bölgədə formalaşdırılmış sülh mühiti, regional kommunikasiyaların açılması, qarşılıqlı etimad mühitinin yaradılması istiqamətində mühüm işlərin görülməsi Azərbaycanın sülh gündəliyi sayəsində mümkün olub. Bakının qətiyyətli siyasəti nəticəsində münaqişə edən tərəflər bu gün bütün problemlərini dialoq yolu ilə həll etməyin tərəfdarıdırlar. Ötən il 8 avqust tarixində Vaşinqton sammitində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə sülh sazişinin mətninin paraflanması bölgədə davamlı sülhün təməlini qoyub.

Sülh prosesi çərçivəsində atdığı konstruktiv addımlarla kommunikasiya əlaqələrinə əlavə töhfələr verən Azərbaycanın keçən il Ermənistana tranzit məhdudiyyətlərini aradan qaldırması, eyni zamanda ölkəmizdən neft məhsullarının tədarükünə başlanılması, həmçinin iki ölkənin vətəndaş cəmiyyətlərinin İrəvan və Bakıya qarşılıqlı səfərləri kimi çoxsaylı nümunələr də sülh istiqamətində atılan praktiki addımlardır.

Vurğulanası vacib məqamdır ki, Azərbaycan yalnız regional deyil, beynəlxalq miqyasda da daim sülh və əməkdaşlıq təşəbbüsləri ilə çıxış edir. Beynəlxalq sülhməramlı missiyalarda iştirakı, qlobal humanitar və inkişaf yardımları, enerji və nəqliyyat diplomatiyası Azərbaycanın müasir çağırışlara adekvat cavab verməsinin, ümumilikdə qlobal sülhə verdiyi töhfələrin təzahürüdür.

Ölkəmizin lideri İlham Əliyevin müharibəyə yaxnlaşan ölkələr arasında vasitəçilik etməklə tarixi barışdırıcılıq missiyası həyata keçirməsi, yeni bütün fəaliyyəti ilə dünyada sülhə xidmət etməsi beynəlxalq aləm tərəfindən də dəyərləndirilir. Məhz bu və digər xoşməramlı xidmətlərinə görədir ki, dövlətimizin başçısına yüksək ehtiram göstərilir. Bu günlərdə Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) nüfuzlu Şeyx Zayed Fondu tərəfindən "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülüb.

Bu il fevralın 4-də BƏƏ-nin Əbu-Dabi şəhərində keçiriləcək təntənəli mərasimdə təqdim olunacaq mükafat Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan - "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib.

Yanvarın 20-də Davosda "Euronews" televiziyasına müsahibəsi zamanı Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq nüfuzunun artmasının, ölkəmizin sülh gündəliyinin dünya ictimaiyyəti tərəfindən dəstəklənməsinin bariz nümunəsi olan bu mükafatı alması ilə bağlı söylədi ki, belə nüfuzlu mükafatı almaq onun üçün böyük şərəfdir: "Mən bu qərarı otuz ildən artıq müddətdə qan tökülməsindən, münaqişə və müharibələrdən sonra Qafqazda sülhün qurulmasında səylərimizə verilən qiymət kimi qəbul edirəm".

Bütün bunlar Azərbaycanın regionda barışın bərqərar olması üçün həyata keçirdiyi qətiyyətli siyasətə, qlobal sülh səylərinə verilən yüksək qiymətin, beynəlxalq ehtiramın təzahürüdür.

Azərbaycan sübut edir ki, sülh yalnız bəyanatlarla deyil, prinsipial mövqe, siyasi iradə və məharətli diplomatiya ilə qurulur. Sülh Şurasındakı fəaliyyəti isə ölkəmizin bu istiqamətdə beynəlxalq miqyasda daha fəal rol oynayacağının, qlobal sabitlik və təhlükəsizliyə töhfələrini daha da gücləndirəcəyinin bariz göstəricisidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Azərbaycan qlobal təşəbbüslərdə daha fəaldır

Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi təkcə dövlət başçısına verilən fərdi mükafat deyil, həm də Azərbaycanın son illərdə yürütdüyü humanist, multikultural və dialoqa əsaslanan dövlət siyasətinə verilən beynəlxalq qiymətdir. Bu mükafatın məhz humanizm, xalqlar və dinlərarası anlaşma, sülh və birgəyaşayış dəyərlərini təşviq edən liderlərə təqdim edildiyini nəzərə alsaq, qərarın məntiqi və siyasi-fəlsəfi əsasları aydın görünür.



Milli Məclisin deputatı Müşfiq Məmmədli "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, birinci məqam ondan ibarətdir ki, multikulturalizm Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda multikulturalizm və dini tolerantlıq konstitusion dəyərdən real dövlət praktikasına çevrilib. "Müxtəlif dinlərə və etnik qruplara mənsub insanların ölkəmizdə sülh və qarşılıqlı hörmət şəraitində yaşaması, dini abidələrin qorunması və bərpası, dövlət tərəfindən dini icmalara bərabər münasibət - bunlar kağız üzərində deyil, faktlarla təsdiqlənən siyasətdir. Bu kontekstdə dövlətimizin başçısına verilən mükafat Azərbaycanın sivilizasiyalararası dialoq platforması kimi rolunun beynəlxalq səviyyədə qəbul edildiyini göstərir", - deyə o əlavə edib.

Deputat ikinci məqamın qlobal çağırışlar fonunda Azərbaycanın öz mövqeyinin olduğunu diqqətə çatdıraraq deyib ki, müasir dünyada dini, milli və mədəni zəmində qarşıdurmaların artdığı bir vaxtda İlham Əliyevin rəhbərlik etdiyi dövlətimiz qarşıdurma yox, əməkdaşlıq modeli təklif edir. Bakı prosesi, humanitar forumlar, dinlərarası dialoq tədbirləri təsadüfi təşəbbüslər deyil, ardıcıl və məqsədyönlü siyasətin nəticəsidir. "Zayed İnsan Qardaşlığı Mükafatı" bu baxımdan Azərbaycanın birləşdirici mövqeyinə beynəlxalq etimadın göstəricisidir.

M.Məmmədli qeyd edib ki, mükafatın həm də siyasi-simvolik mənası var: "Bu mükafat eyni zamanda göstərir ki, Azərbaycan Prezidentinin fəaliyyəti regional çərçivəni aşaraq qlobal humanist gündəmlə uzlaşır. Dövlətimizin başçısının sülh, əməkdaşlıq və qarşılıqlı hörmətə əsaslanan yanaşması yalnız daxili sabitliyə deyil, beynəlxalq münasibətlərdə də konstruktiv dialoqa xidmət edir. Bu, Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsi baxımından mühümdür. Növbəti həftə keçiriləcək təqdimat mərasimi, sadəcə, protokol xarakterli tədbir deyil. Bu mərasim Azərbaycanın humanitar və mənəvi dəyərlərə əsaslanan dövlət modelinin təqdimatı, Prezident İlham Əliyevin qlobal lider kimi qəbul olunmasının daha bir təsdiqi, Azərbaycanın sülh, tolerantlıq və birgəyaşayış ideyalarının daşıyıcısı kimi mövqeyinin güclənməsi deməkdir".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın verilməsi şəxsi nüfuzla yanaşı, dövlətin siyasi-fəlsəfi kursuna, xalqın tolerantlıq mədəniyyətinə və Azərbaycanın beynəlxalq məsuliyyət anlayışına verilən yüksək qiymətdir. Bu mükafat həmçinin Azərbaycanın gələcəkdə də humanizm və dialoq üzərində qurulan qlobal təşəbbüslərdə ön sıralarda yer alacağının göstəricisidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## *Qlen HOVARD:* "ABŞ Azərbaycanın strateji əhəmiyyətini yaxşı başa düşür"



"Düşünürəm ki, ABŞ artıq Azərbaycanın strateji əhəmiyyətini yaxşı başa düşür".

Bu sözləri AZƏRTAC-a açıqlamasında ABŞ-nin Saratoqa Fondunun prezidenti Qlen Hovard deyib.

O bildirib ki, TRIPP layihəsi ABŞ üçün strateji cəhətdən vacibdir. "Prezident Donald Trampın xüsusi nümayəndəsi Stiven Uitkoff Azərbaycanda oldu. Sonra Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan liderləri birgə bəyannamə imzaladılar, Azərbaycanla Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş layihəsi paraflandı. Dövlət Departamenti hazırda Tramp marşrutu üzərində işləyir. Beləliklə, Azərbaycan ABŞ ilə güclü və dinc münasibətləri inkişaf etdirməyə davam edir. ABŞ isə Qərb üçün dəyəri baxımından Azərbaycanın strateji əhəmiyyətini düzgün qiymətləndirir", - deyə ekspert vurğulayıb.

## "Cənubi Qafqaz yeni geosiyasi mərhələyə daxil olur"

Rumıniyanın nüfuzlu "Veridica" nəşrində tanınmış siyasi analitik Aleksandr Maliarenkonun Cənubi Qafqazda gedən geosiyasi proseslərə həsr olunmuş məqaləsi dərc edilib.

Məqalədə qeyd olunur ki, son illər regionda baş verən dəyişikliklər Cənubi Qafqazın beynəlxalq münasibətlər sistemində daha müstəqil və çoxşaxəli mövqe tutduğunu göstərir. Bölgə ölkələri təhlükəsizlik, enerji və nəqliyyat sahələrində yeni əməkdaşlıq formatlarına üstünlük verərək milli maraqlara əsaslanan siyasət yürüdürlər.

Analitikin fikrincə, Azərbaycan, Gürcüstan və Ermənistan xarici siyasətdə alternativ tərəfdaşlıqların genişləndirilməsinə, iqtisadi və logistik əlaqələrin şaxələndirilməsinə xüsusi önəm verir. Bu yanaşma Cənubi Qafqazın qlobal enerji və nəqliyyat xəritəsində rolunu əhəmiyyətli dərəcədə artırır.

Məqalədə vurğulanır ki, Azərbaycan enerji təhlükəsizliyi və nəqliyyat dəhlizləri sahəsində əsas regional aktorlardan biri kimi çıxış edir. "Cənub qaz dəhlizi", Orta dəhliz və Xəzər hövzəsi üzərindən keçən marşrutlar Avropa ilə Asiyanı birləşdirən strateji xəttə çevrilib.

Aleksandr Maliarenko yazır ki, Türkiyə ilə strateji tərəfdaşlığın möhkəmlənməsi, Avropa İttifaqı və ABŞ ilə dialoqun dərinləşməsi, eyni zamanda Asiya istiqamətində genişlənən iqtisadi əlaqələr regionda balanslaşdırılmış xarici siyasət modelinin formalaşmasına töhfə verir.

Məqalədə belə nəticəyə gəlinir ki, mövcud proseslər Cənubi Qafqazı təkcə regional deyil, həm də qlobal miqyasda enerji təhlükəsizliyi və nəqliyyat-logistika sistemlərinin mühüm halqasına çevirir və bölgənin beynəlxalq əhəmiyyətini daha da artırır.

### Azərbaycanın çoxşaxəli xarici siyasəti: Enerji, balans və yeni geosiyasi mövqe

"Azərbaycan müstəqilliyini qazandığı gündən etibarən xarici siyasətini yalnız sağqalma refleksi ilə deyil, uzunmüddətli strateji düşüncə əsasında formalaşdıran postsovet dövlətlərindən biri kimi önə çıxır. Xüsusilə son illərdə rəsmi Bakının Rusiya, ABŞ, Avropa İttifaqı və Çin kimi qlobal və regional güclərlə eyni vaxtda balanslı və çevik siyasət aparması Azərbaycanı Cənubi Qafqazın passiv ölkəsi olmaqdan çıxararaq regional və qlobal güc balanslarında nəzərə alınmalı bir aktora çevrilib".

Bu sözləri AZƏRTAC-a açıqlamasında Hacı Bayram Vəli Universitetinin müəllimi, ekspert Şuay Nilhan Açıkalın söyləyib. O bildirib ki, Azərbaycanın beynəlxalq sistemdə çəkisini artıran əsas amillərdən biri enerji diplomatiyasıdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və "Cənub qaz dəhlizi" kimi layihələr Azərbaycanı təkcə hidrokarbon ixracatçısı deyil, eyni zamanda Avropanın enerji təhlükəsizliyinin struktur tərkib hissəsinə çevirib. Bu kontekstdə enerji Azərbaycan xarici siyasətində uzunmüddətli əməkdaşlıq təmin edən strateji alət kimi istifadə olunur. Bu baxımdan da Avropanın Rusiya enerji mənbələrindən asılılığını azaltmaq səyləri Azərbaycanın geosiyasi əhəmiyyətini daha da artırıb.

### Qarabağ Zəfərindən sonrakı dövr: Yeni güc mövqeyi

"Müstəqillik dövrünün böyük hissəsini əhatə edən keçmiş Dağlıq Qarabağ məsələsi 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi ilə Azərbaycanın xeyrinə nəticələndi. Bu hadisə təkcə hərbi qələbə deyil, Azərbaycanın uzun illərdir davam edən səbirli və çoxqatlı xarici siyasət strategiyasının nəticəsidir.

Qarabağ Zəfərindən sonra Azərbaycan bölgədə yeni reallıq yaratdı. Bu gün Bakı Cənubi Qafqazda təhlükəsizlik, nəqliyyat və enerji layihələrinin mərkəzində dayanır və regional sabitliyin əsas açar ölkələrindən biri kimi qəbul edilir", - deyə Ş.N.Açıkalın vurğulayıb.

### Bərpaolunan enerji, tranzit və sənaye: Vahid inkişaf modeli

Ekspert bildirib ki, son illərdə rəsmi Bakının ortaya qoyduğu əsas strateji yanaşma aydındır: enerji, tranzit və sənaye siyasətləri bir-birindən ayrı sahələr deyil, vahid inkişaf modelinin bir-birini tamamlayan komponentləridir. 2030-cu ilə qədər bərpaolunan enerji gücünün sürətlə artırılması hədəfi ekoloji seçim olmaqla yanaşı, təbii qaza əsaslanan iqtisadi modelin transformasiyasına yönəlmiş rasional addımdır. Bu transformasiya Azərbaycanın gələcəkdə həm "yaşıl enerji" mərkəzinə, həm də Avrasiya məkanında mühüm tranzit qovşağına çevrilməsini hədəfləyir.

## Azərbaycanla əməkdaşlıq Davos İqtisadi Forumunun ən yaddaqalan hadisələrindən biri oldu

"Mövcud qlobal problemləri müzakirə etmək və çıxış yolları axtarmaq üçün dünya dövlətlərinin beynəlxalq platformalarda toplaşması artıq bir ənənəyə çevrilib. Hər il dövri olaraq İsveçrənin Davos şəhərində keçirilən Davos İqtisadi Forumu bu baxımdan xüsusi qeyd olunmalıdır. Adına nə qədər iqtisadi forum deyilsə də, hər il onlarca dövlət və hökumət başçısının, yüzlərlə siyasi liderin və aktivləri milyardlarla və hətta trilyonlarla ölçülən nəhəng şirkət rəhbərlərinin, digər nüfuzlu şəxslərin toplaşdığı bu ənənəvi platformada mövcud siyasi mövzular da müzakirələrdən kənarda qalmır. Bu baxımdan Davos İqtisadi Forumunun beynəlxalq münasibətlərdə özünəməxsus yeri var".



Bunu AZƏRTAC-a açıqlamasında Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Xəyal Bəşirov deyib.

O bildirib ki, Prezident İlham Əliyevin bu nüfuzlu, mötəbər beynəlxalq platformaya münasibəti çox ciddi, özünəməxsus olub və indi də belədir: "2007-ci ildən başlayaraq ənənəvi olaraq Davos İqtisadi Forumunda iştiraka önəm verən dövlətimizin başçısı mümkün qədər bu platformada şəxsən iştirak etməyə çalışır. Ancaq daha çox yaxınlaşmaya və bu forum çərçivəsində Azərbaycana marağın əhəmiyyətli dərəcədə artmasına səbəb ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ilə yekunlaşan Vətən müharibəsindəki tarixi Zəfərimiz oldu. Təkcə ölkəmizdə deyil, ümumilikdə Cənubi Qafqazda iqtisadiyyata təhlükəsizlik qarantiyasını təmin edən yeni reallıqlarla müşayiət olunan qələbəmiz Davos İqtisadi Forumunu və onun iştirakçılarını cəlb etməyə bilməzdi. Çünki uzun illərin münaqişəsini öz gücünə həll etmək güclü dövlətə, orduya, iqtisadiyyata sahib olmadan mümkün deyil. Bu prinsipləri əldə rəhbər tutan Azərbaycan artıq dünyaya təhlükəsiz, sabit və sülhün bərqərar olduğu bir Cənubi Qafqaz təqdim edir".

Ekspertin sözlərinə görə, Prezident İlham Əliyevin Davos İqtisadi Forumunda bir neçə gün ərzində iyirmiyə qədər dövlət və hökumət başçısı, nəhəng şirkət rəhbərləri, digər siyasi və başqa sahələrə aid nüfuzlu şəxslərlə keçirdiyi görüşlər özü-özlüyündə bir çox məqamın izahı hesab oluna bilər. "ABŞ Prezidenti Donald Trampın Davosda təkbətək görüşdüyü iki liderdən birinin məhz Azərbaycan Prezidenti İlham Əliyevin olması da bu baxımdan xüsusi qeyd edilməlidir. Ərazisinin və əhalisinin kiçikliyi ilə müqayisədə dəfələrlə böyük imkanlara sahib olduğunu artıq isbat edən Azərbaycan ilə anlaşmaq, onun təşəbbüslərinə qoşulmaq və onunla əməkdaşlıq etmək Davos İqtisadi Forumunun ən yaddaqalan hadisələrindən biri oldu", - deyə politoloq vurğulayıb.

# Leyla Əliyeva və Qretel Agilar İsveçrədə əməkdaşlıq imkanlarını müzakirə ediblər







Leyla Əliyeva yanvarın 29-da İsveçrənin Qland şəhərində Beynəlxalq Təbiəti Mühafizə Birliyinin (IUCN) baş direktoru Qretel Agilar ilə görüş keçirib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və regionda ətraf mühitin mühafizəsi sahəsində mövcud çağırışlar fonunda beynəlxalq əməkdaşlığın rolu, qlobal və regional səviyyədə əlaqələndirilmiş yanaşmaların əhəmiyyəti, habelə bu istiqamətdə dialoqun möhkəmləndirilməsinin perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Bildirilib ki, 2014-cü ildən etibarən IUCN-in tamhüquqlu üzvü olan IDEA İctimai Birliyi təbiətin mühafizəsi və biomüxtəlifliyin qorunması istiqamətində beynəlxalq təşəbbüslərdə fəal iştirak edir və bu sahədə əməkdaşlığın genişləndirilməsinə töhfə verir. IUCN-in ötən il Əbu-Dabidə keçirilən Ümumdünya Mühafizə Konqresində təqdim olunmuş birgə pavilyon və bir sıra digər layihələrə toxunan görüş iştirakçıları qazanılan müsbət təcrübəni qeyd edərək, qarşılıqlı əməkdaşlığın uğurla davam edəcəyinə inandıqlarını ifadə ediblər.

Həmçinin görüş çərçivəsində Azərbaycanda IUCN ilə yüksəksəviyyəli regional dialoqun təşkili, beynəlxalq tədbirlər çərçivəsində birgə iştirak, o cümlədən Dünya Şəhərsalma Forumu (WUF13), Ümumdünya Ətraf Mühit Günü və COP31 çərçivəsində əməkdaşlıq imkanları müzakirə olunub.

Görüşün yekununda IUCN-in Azərbaycanda ölkə ofisinin açılması istiqamətində fəaliyyətlərin, eləcə də əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsini nəzərdə tutan Niyyət Bəyannaməsi imzalanıb.

Tərəflər aparılan müzakirələri IDEA İctimai Birliyi ilə IUCN arasında uzunmüddətli və çoxtərəfli əməkdaşlığın inkişafı baxımından mühüm addım kimi dəyərləndiriblər.

Qeyd edək ki, 1948-ci ildən etibarən fəaliyyət göstərən IUCN ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunması, eləcə də dayanıqlı inkişaf sahəsində dünyanın aparıcı beynəlxalq təşkilatlarından biridir. IUCN 1964-cü ildə nəsli kəsilmək təhlükəsi altında olan canlı və bitki növlərinin vəziyyətini əks etdirən Qırmızı Kitabı yaradaraq qlobal səviyyədə ekoloji qiymətləndirmə və qərarvermə proseslərinə mühüm töhfə verib.

# Heç bir təhdid Azərbaycanı yolundan döndərə bilməz

Azərbaycan hər zaman müstəqil siyasət yürüdüb, heç kimə diktə dili ilə danışmağa imkan verməyib. Xüsusilə 44 günlük Vətən müharibəsindəki qələbədən, həmçinin 23 saatlıq uğurlu antiterror əməliyyatından sonra ölkəmizin regional və beynəlxalq müstəvidə mövqeyi daha da möhkəmlənib. Azərbaycan beynəlxalq miqyasda böyük layları tərpədərək qlobal gündəliyə təsir edən tarixi bir zəfər çalıb. Bu, ölkənin yeni dövrdə daha yüksək hədəflər müəyyən etdiyini təsdiqləyir və Cənubi Qafqazda xaos yaratmaq istəyən destruktiv dairələri narahat edir.



Milli Məclisin deputatı Nigar Məmmədova qəzetimizə açıqlamasında xatırladıb ki, Vətən müharibəsi zamanı da dövlət başçımız təhdidlərin olduğunu ictimaiyyətə açıqlayaraq bildirmişdi: "44 gün davam edən müharibə göstərdi kim kimdir, kim kimin dostudur. Azərbaycan xalqı bunu yaxşı görür və bilir. Mən isə bunu çoxdan bilirdim. Ona görə də bütün şər-böhtana, bütün təzyiqlərə, bütün təhdidlərə hazır idim. Bir amalım var idi - güclü dövlət yaratmaq, torpaqlarımızı işğaldan azad etmək, ədaləti bərpa etmək!"

Deputat qeyd edib ki, Azərbaycan bu gün də postmünaqişə reallıqları fonunda bütün təhdidlərə qarşı qətiyyətli mübarizə aparır: "Dövlət tərəfindən təhlükəsizliyin təmin olunması istiqamətində sistemli və ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycan öz müdafiə qabiliyyətini və təhlükəsizlik institutlarının peşəkarlığını davamlı şəkildə gücləndirir. Bu isə ölkənin suverenliyinin, ərazi bütövlüyünün və daxili sabitliyinin etibarlı şəkildə qorunmasına xidmət edir. Azərbaycan təhlükəsizlik orqanları təhdidlərə sistemli və preventiv cavab verir. Hərbi hazırlıq səviyyəsinin yüksəldilməsi, peşəkar kadr potensialının artırılması ölkənin müdafiə gücünü artıran əsas amillərdəndir. Bu yanaşma Azərbaycanın yalnız fiziki təhlükələrə deyil, həm də asimmetrik təhdidlərə qarşı hazır olduğunu göstərir. Burada əsas üstünlük güclü orduya malik olmaq, sərhədlərimizdə möhkəmlənmək, beynəlxalq platformalarda söz sahibinə çevrilməkdir".

N.Məmmədova vurğulayıb ki, hazırda ölkəmizə qarşı təhdidlər əsasən dezinformasiya və kiberhücumlar formasında davam edir. Davos İqtisadi Forumu çərçivəsində açıqlanan hesabatda da dezinformasiya əsas risklər sırasındadır. Dezinformasiya isə əsasən beyinləri hədəfləyən, cəmiyyətləri parçalamağa hesablanan "silah"dır. Aidiyyəti qurumlar çevik və effektiv tədbirlərə üstünlük verərək potensial risklərin vaxtında müəyyənləşdirilməsini təmin edirlər. "Təsadüfi deyil ki, Prezident İlham Əliyev bu günlərdə "Euronews" kanalına müsahibəsində bəyan edib ki, Azərbaycan da daxil olmaqla, hər bir ölkə özünün sərhədləri boyu sabitlik haqqında düşünməlidir: "Azərbaycana gəldikdə, bizdə ölkə daxilində potensial risklər mövcud deyil. Bütün potensial risklər kənardan qaynaqlana bilər. Bu səbəbdən biz hər zaman qonşuluğumuzda sabitliyin mövcud olması haqqında düşünürük".

Deputat hesab edir ki, bütün təhdidlərə qarşı mübarizə davam etməli, cəmiyyətin hər bir üzvü bu məsələdə öz məsuliyyətini anlamalıdır.

***Əsmər QARDAŞXANOVA, "Azəbaycan"***

# Almaniyadan Azərbaycana 18 zubr yola salınıb

AZƏRTAC xəbər verir ki, Leyla Əliyevanın təşəbbüsü ilə IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Fondunun (WWF) Azərbaycan nümayəndəliyi tərəfindən həyata keçirilən zubrların reintroduksiya layihəsi çərçivəsində Berlindəki "Tierpark" heyvanat parkından 12 zubr Azərbaycana yola salınıb. Bundan əlavə, Almaniyanın Bad Berleburq şəhərindən də 6 zubr ölkəmizə göndərilib.







Zubrların ölkəmizə göndərilməsi prosesini Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev, Berlinin "Tierpark" heyvanat parkının direktoru Andreas Knieriem və digər aidiyyəti qurumların nümayəndələri müşahidə ediblər.

Zubrlar Azərbaycanın zəngin təbiətində əsrlər boyunca məskunlaşıb. Bu cüssəli vəhşi öküzlər qədim zamanlardan insanlar tərəfindən güc rəmzi kimi qəbul olunub. Qobustan qayalarının üstündə vəhşi zubrların cizgilərinin əks olunması da bunun göstəricisidir. Populyasiya effektiv idarə olunmadığından bu növün Azərbaycanda sayı tükənib. Qafqaz dağlarında sonuncu zubr 1927-ci ildə öldürülüb. Son illər ərzində regionun və dünyanın aparıcı alimləri tərəfindən həyata keçirilən araşdırmaların nəticəsi olaraq, təbiətimizdə zubrlar üçün əlverişli şəraitin olduğu aşkarlanıb.

2012-ci ilin sonlarından etibarən zubrların ölkəmizin vəhşi təbiətinə reintroduksiya edilməsi istiqamətində IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan nümayəndəliyi tərəfindən intensiv iş aparılır. IDEA İctimai Birliyi ilə Şahdağ Milli Parkı arasında imzalanmış Əməkdaşlıq Sazişinə əsasən, nəsli kəsilmiş zubrların bərpası və onların ölkə təbiətinə reintroduksiya olunması, digər növ vəhşi heyvanların elmi məqsədlərlə artırılması üçün Şahdağ Milli Parkının İsmayıllı bölməsində 305 hektar sahə ayrılıb, ərazidə zubrların çoxaldılıb təbiətə buraxılması üçün kompleks inşa edilib.

2019-cu ilin may ayından etibarən isə müxtəlif ölkələrdən, o cümlədən Almaniyadan Azərbaycana zubrlar gətirilir. Həmin heyvanlar uğurla adaptasiya dövrünü keçir və aralarında təbii artım müşahidə edilir, iqlimləşmə müddətindən sonra isə onlar xüsusi adaptasiya zonasından vəhşi təbiətə buraxılır.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev media nümayəndələrinə müsahibəsində deyib: "Bu gün Berlin zooparkındayıq və mühüm bir hadisəyə şahidlik edirik. 2019-cu ildən IDEA təşkilatının dəstəyilə Almaniya ilə çox gözəl bir layihə həyata keçirilir. Belə ki, həm Almaniyada, həm də Avropanın müxtəlif ölkələrində olan zooparklardakı zubrlar Azərbaycana gətirilir və azadlığa buraxılır, təbiətə qaytarılır. Bu, Azərbaycanın təbii müxtəlifliyə, ətraf mühitin qorunmasına verdiyi böyük dəyərin göstəricisidir. Bu, eyni zamanda Azərbaycanın Almaniya ilə tərəfdaşlığının gözəl bir nümunəsidir".

Zubrlar Azərbaycana göndərilməsi üçün Berlin zooparkından nəqliyyat vasitələrinə yüklənərək Frankfurt şəhərinə çatdırılıb və oradan da ölkəmizə yola salınıb. Bu zubrlar Azərbaycana çatdırıldıqda bir müddət volyer şəraitində saxlanılacaq, adaptasiya dövrünü keçdikdən sonra təbiətə buraxılacaq.

Berlinin "Tierpark" heyvanat parkının direktoru Andreas Knieriem müsahibəsində ümumilikdə 18 zubrun yola salınacağını vurğulayaraq bunun indiyədək bir uçuşda daşınan ən böyük zubr qrupu olacağını qeyd edib. İndiyədək Azərbaycana bir neçə daşınma ilə müxtəlif zooparklardan gətirilmiş 46 zubrun yola salındığını bildirən Andreas Knieriem deyib: "Onların bir qismi buradan - "Tierpark"dan, digərləri isə Almaniyanın müxtəlif zooparklarından, xüsusilə Çexiyadan gətirilib. Bu 46 heyvan artıq Azərbaycanda bir araya gəlib və onlar artıq balalayıb. Beləliklə, zubrların sayı 46-dan bu gün təxminən 70-72 başa çatıb. Bu gün yola salınanları da nəzərə aldıqda Azərbaycandakı zubrların sayı təxminən 90-a yaxınlaşacaq. Demək olar ki, Azərbaycan artıq çox güclü və sağlam zubr populyasiyasına malikdir. Ümid edirəm ki, qarşıdakı illərdə biz bu prosesə daha çox töhfə verə biləcəyik və Azərbaycanda daha çox bala doğulacaq, ölkə zubrların qorunması sahəsində aparıcı yerlərdən birini tutacaq. Bu isə təbiət üçün biomüxtəlifliyin qorunması və zubrların davamlılığı baxımından son dərəcə vacibdir.

Fürsətdən istifadə edərək, həm prosesin uğurla həyata keçirilməsinə, həm də iki ölkə arasında real və səmimi əməkdaşlığa görə ürəkdən təşəkkürümü bildirmək istəyirəm. Belə nümunəvi və etibarlı tərəfdaş olduğu üçün Azərbaycana bir daha təşəkkür edirəm".

Layihənin 2028-ci ilə qədər davam etdirilməsi və zubrların sayının 100 başa çatdırılması nəzərdə tutulur. Layihə zubrların təbiətimizə qaytarılmasına yönəlsə də, onun əsas istiqamətlərindən biri də ictimaiyyət arasında maarifləndirilmənin artırılmasıdır. Bu məqsədlə məktəblilər üçün mütəmadi qaydada müxtəlif maarifləndirmə tədbirləri, o cümlədən yay düşərgələri təşkil olunur.

# Sülhə və barışa xidmət etməyən addım

## Aİ-nin Ermənistana maliyyə yardımı revanşistləri ruhlandırır

Avropa İttifaqına üzv dövlətlər Ermənistana Avropa Sülh Fondundan 20 milyon avro yardım ayrılmasını təsdiqləyib. Qərar Aİ Şurasının iclasında qəbul edilib. Xatırladaq ki, Ermənistan fonda yardım üçün müraciət etsə də, Budapeşt onu bloklamışdı. Daha sonra Macarıstan Avropa Sülh Fondu çərçivəsində Ermənistana vəsait ayrılmasına razılıq verib.

Bu, Ermənistanın Avropa Sülh Fondundan ikinci dəfə dəstək alması deməkdir. Birinci dəfə Ermənistana 10 milyon avro vəsait ayrılıb. Bu dəfə isə məbləğ ikiqat artırılıb. Yardım Ermənistan silahlı qüvvələrinin maddi-texniki bazasının yaxşılaşdırılması, müasir tibbi avadanlıqlarla təminat və şəxsi heyətə texniki təlimlərin keçirilməsinə yönəldiləcək.

Qeyd edək ki, Avropa Sülh Fondu 2021-ci ildə yaradılıb. Fondun bəyan edilmiş məqsədləri dünya miqyasında münaqişələrin qarşısını almaq, tərəfdaş ölkələrin təhlükəsizlik imkanlarını artırmaq və qeyri-hücum xarakterli hərbi avadanlıqların tədarükünü maliyyələşdirməkdir.

Avropa İttifaqının Ermənistana yardımı Qərbin dəstəyinin yeni mərhələsi kimi qiymətləndirilir. Sülh danışıqlarının intensivləşdiyi, sərhədlərin müəyyənləşməsi (delimitasiya) prosesinin başladığı bir vaxtda Avropa İttifaqının Ermənistana hərbi yardım ayırmasının arxasında Brüsselin bir neçə strateji və geosiyasi məramı dayanır. Avropa İttifaqı üçün əsas hədəf sülhdən daha çox, Ermənistanın təhlükəsizlik arxitekturasını Rusiyanın təsirindən çıxarmaqdır. Ermənistan ordusu onilliklər boyu Rusiya silahından və təlimlərindən asılı olub. Aİ Sülh Fondu vasitəsilə maliyyə ayırmaqla İrəvana mesaj verir ki, Ermənistanın təhlükəsizliyinin qarantı Moskva yox, Brüssel ola bilər. Bu yardımlar Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) uzaqlaşma prosesini sürətləndirmək üçün "mükafat" rolunu oynayır. Ermənistanın Baş naziri Nikol Paşinyanın ordunun yaranmasının 34-cü ildönümü ilə əlaqədar bu məsələlərə toxunması təsadüfi deyil. Paşinyan ordunu gücləndirməyə davam edəcəklərini deyib və bildirib ki, ordunun müdafiə qabiliyyəti gündən-günə artır: "Son illərdə ordumuzun heç vaxt sahib olmadığı keyfiyyət və parametrlərdə böyük miqdarda müasir silah və hərbi texnika alınıb". Paşinyan orduya böyük sərmayələr qoyulduğunu təsdiqləyib. Baş nazir Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını tənqid etməyi də unutmayıb. Bildirib ki, KTMT Ermənistana silah satmaqdan imtina edib.

Aİ-dəki bəzi dairələr, xüsusilə Fransa kimi ölkələr fərqindədirlər ki, Azərbaycanın hərbi qüdrəti Ermənistandan qat-qat üstündür. Onların məntiqinə görə, sülh yalnız tərəflər "bərabər gücdə" olduqda qalıcı olur. Yəni Aİ-nin yardımı Ermənistanın müdafiə qabiliyyətini bir qədər artıraraq, onu danışıqlarda daha "dayanıqlı" etmək məqsədi daşıyır. Amma Aİ Ermənistan ordusuna logistika və tibbi avadanlıq verirsə, deməli, gələcəkdə bu avadanlıqlara xidmət edəcək mütəxəssislər, təlimçilər və məsləhətçilər də regiona gələcəklər. Bu isə göstərir ki, Aİ bölgədəki hərbi-siyasi rıçaqlarını gücləndirmək niyyəti güdür. Digər məqam odur ki, sülh sazişi imzalanarsa, Ermənistan cəmiyyətində "nə qazandıq, nə itirdik?" sualı yaranacaq. Aİ bu cür yardımlarla Paşinyana daxili auditoriya qarşısında bir arqument verir. Baş nazir deyəcək ki, "baxın, biz Rusiya ilə məsafə saxladıq və qarşılığında Avropadan hərbi və maliyyə dəstəyi aldıq".

Lakin Azərbaycanın mövqeyi budur ki, bu cür yardımlar Ermənistandakı revanşist qüvvələri ruhlandırır və sülh prosesini ləngidir. İrəvandakı radikal qruplar bu yardımı "Qərb bizim arxamızdadır, hələ heç nə bitməyib" kimi qəbul edə bilərlər. Yəni silahlanma və hərbi yardım sülhə deyil, gərginliyə xidmət edir.

Mühüm məqamlardan biri Aİ-nin maliyyə yardımı məsələsində Ermənistan və Azərbaycan arasında açıq-aşkar ayrı-seçkilik etməsidir. Azərbaycan hələ də minalardan əziyyət çəkdiyi halda, Aİ-nin diqqəti Ermənistanın "müdafiə qabiliyyətinə" yönəltməsi bariz tərəfkeşlikdir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov hələ ötən ilin yekunlarına dair dekabrın 26-da keçirilən mətbuat konfransında Aİ tərəfindən Ermənistana 20 milyon avro ayrılacağını demiş, eyni məbləğin ölkəmizə də ayrılmasının vacib olduğunu vurğulamışdı.

Bu disbalans Bakı tərəfindən haqlı narazılıqla qarşılanır. Aİ üçün Ermənistan hazırda Rusiyanın təsir dairəsindən qopmağa çalışan "tərəfdaş" profilindədir. Brüssel hesab edir ki, Paşinyan hökumətinə maliyyə və hərbi dəstək verməklə, Ermənistanın Qərbə inteqrasiyasını sürətləndirir. Aİ-dəki bəzi qüvvələr absurdcasına düşünürlər ki, Azərbaycana hərbiyönümlü yardım göstərmək balansın pozulmasına səbəb ola bilər. Halbuki minatəmizləmə humanitar məsələdir və sülhə birbaşa xidmət edir. Azərbaycan dünyada minalarla ən çox çirklənmiş ölkələrdən biridir və bu ərazilərin təmizlənməsi sülhə və insanların təhlükəsiz qayıdışına xidmət edir.

O da bir həqiqətdir ki, Aİ daxilində qərarlar heç də həmişə yekdil deyil. Avropa Komissiyası və Şurasından fərqli olaraq Avropa Parlamenti və AŞPA tez-tez ermənipərəst qüvvələrin təsiri altında Azərbaycana qarşı qərəzli qətnamələr qəbul edirlər. Qeyri-obyektiv baxış icraedici orqanların Azərbaycana irimiqyaslı vəsait ayırmasını siyasi baxımdan çətinləşdirir. Nəticə etibarı ilə Avropa İttifaqı rəsmən Bakı ilə əlaqələrin normallaşdırılmasında maraqlı görünməyə çalışsa da, real addımlar fərqli mənzərə yaradır.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***



# Qarabağ Universitetində 2025/2026-cı tədris ilinin payız semestri: *strateji fəaliyyətlər və nəticələr*

**Azərbaycanda "Konstitusiya və Suverenlik İli" olaraq elan edilmiş və tarixi Zəfərin beşilliyinin qeyd olunduğu 2025-ci il milli ali təhsil sisteminin də dinamik inkişafı ilə yadda qalmışdır. Ali təhsil sahəsində dövlət dəstəyinin gücləndirilməsi, əlçatanlığın və keyfiyyətin yüksəldilməsi, nüfuzlu qlobal akademik reytinqlərdə təmsilçiliyin artması, xaricdə təhsil və beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi meyilləri ölkədə beynəlxalq standartlara uyğun və daha əlverişli ali təhsil mühitinin formalaşdırılmasında davamlı inkişafa nail olunmasına hədəflənmişdir.**



## Milli ali təhsildə müsbət trendlər və güclü dövlət dəstəyi

Milli ali təhsil sistemində baş verən müsbət trendlər, xüsusilə də dövlətimizin ali təhsilin inkişafına yönəlmiş məqsədyönlü siyasəti, və birbaşa dəstəyi artıq ikinci tədris ilində fəaliyyətini davam etdirən Qarabağ Universitetində payız semestrinin də uğurla yekunlaşmasında həlledici rol oynamışdır. Məhz güclü dövlət dəstəyi fonunda səmərəli tərəfdaşlıq əlaqələrinin ardıcıl şəkildə inkişaf etdirilməsi, universitetin professor-müəllim və inzibati-texniki heyətinin fədakar əməyi, eləcə də tələbələrimizin bilik və bacarıqlara yiyələnmək istiqamətində nümayiş etdirdikləri əzmkarlıq və məsuliyyət əldə olunan uğurun əsas təminatçıları olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə Xankəndi şəhərində yaradılmış Qarabağ Universiteti cari tədris ilinin payız semestri dövründə institusional inkişaf, tədrisin keyfiyyətinin yüksəldilməsi, tədqiqatyönümlü və tələbə mərkəzli müasir ali təhsil modelinin formalaşdırılması istiqamətində mühüm nəticələr əldə etmişdir.

Ən mühüm və əlamətdar hadisələr dövlət başçımızın iştirakı ilə Xankəndi şəhərində Qarabağ Universitetinin Klinika binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun, Biznes və iqtisadiyyat fakültəsinin yeni binasının açılışı və Mühəndislik fakültəsinin binasının təməlinin qoyulması olmuşdur. Müasir universitet konsepsiyasına uyğun dizayn edilərək inşa olunmuş və istifadəyə verilmiş yeni tədris və klinik infrastrukturlar təhsilin praktikyönümlü təşkili, beynəlxalq standartlara uyğun kadr hazırlığı, elmi-tədqiqat imkanlarının genişləndirilməsi və regionun sosial-iqtisadi inkişafına töhfə verilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bunlar Qarabağ Universitetinin qısa müddətdə çoxşaxəli və ardıcıl inkişaf trayektoriyasına daxil olduğunu təsdiqləyir.

## Genişlənməkdə olan Qarabağ Universiteti ailəsi

Sevindirici haldır ki, cari tədris ilində tələbə qəbulu planının kəmiyyətcə və keyfiyyətcə uğurla yerinə yetirilməsi, yeni ixtisasların yaradılması və bunlara müvafiq surətdə yeni akademik, inzibati və texniki heyət üzvlərinin işə qəbulu hesabına Qarabağ Universiteti ailəsi böyüməkdə davam edir. 2025/2026-cı tədris ili üzrə Qarabağ Universitetinə ümumilikdə 1053 tələbə qəbul olunmuş, onlardan 1024 nəfəri qeydiyyatdan keçmişdir. Əvvəlki illərin tələbələri nəzərə alınmaqla universitet üzrə ümumi tələbə sayı 2152 nəfərə çatmışdır.

Tələbə qəbulunun keyfiyyət göstəriciləri universitetə artan marağı, eləcə də təhsil mühitinə olan yüksək etimadı aydın şəkildə nümayiş etdirir. Qəbul olunan abituriyentlər arasında 127 nəfər 600-dən yuxarı, 332 nəfər 500-dən yuxarı, 613 nəfər isə 400-dən yuxarı bal toplamışdır. Qəbul üzrə qeydə alınan ən yüksək nəticə 684 bal olmuşdur ki, bu da universitetə yüksək akademik potensiala malik gənclərin cəlb edildiyini göstərir. Bununla yanaşı, respublika və beynəlxalq fənn olimpiadalarının qalibi olan 5 abituriyentin müsabiqədənkənar universitetə qəbul olunması Qarabağ Universitetinin istedadlı və perspektivli gənclər üçün cəlbedici təhsil məkanı olduğunu təsdiqləyir. Bu göstəricilər yeni dövrün tələblərinə cavab verən müasir universitet modelinin qurulması, güclü intellektual mühitin formalaşdırılması, elmi və innovativ potensialı yüksək olan tələbə kontingentinin yetişdirilməsi, eləcə də əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və keyfiyyətli məzunların hazırlanması baxımından mühüm əhəmiyyət kəsb edir.

Qəbul olunan tələbələrin 58 faizini qızlar, 42 faizini isə oğlanlar təşkil etmişdir ki, bu da ali təhsildə gender balansının təmin olunması və qızların ali təhsilə əlçatanlığının yüksəlməsi baxımından müsbət tendensiyadır. Coğrafi baxımdan tələbə qəbulunun ölkənin 66 şəhər və rayonunu əhatə etməsi Qarabağ Universitetinin artıq regional deyil, respublika miqyasında ali təhsil mərkəzinə çevrilməsi yolunda vacib göstəricilərdən hesab oluna bilər. Bu həmçinin Xankəndinin ölkənin bütün regionlarını təmsil edən bilikli və istedadlı gənclərin hesabına tələbə şəhəri olaraq formalaşması prioritetinə uyğundur.

Milli inkişaf prioritetləri, əmək bazarının tələbləri və Qarabağ regionunun inkişaf ehtiyacları nəzərə alınmaqla cari tədris ilində 9 yeni ixtisas (Tibb, Tibb bacısı (qardaşı) işi, Data analitika, Riyaziyyat, Dekorativ tətbiqi sənət, Musiqişünaslıq, Coğrafiya müəllimliyi, Kimya müəllimliyi və Biologiya müəllimliyi) əlavə edilərək universitetin kadr hazırlığı profili genişləndirilmişdir. Bununla da universitet üzrə ixtisasların sayı 25-dən 34-ə çatdırılmışdır.

Hazırda Qarabağ Universitetində 7 fakültə (Pedaqoji, İncəsənət, Mühəndislik, Biznes və iqtisadiyyat, Turizm, Humanitar və sosial elmlər, Tibb və sağlamlıq elmləri) üzrə müasir kurikulumlar əsasında tədris aparılır. Tədris proqramlarının hazırlanmasında nəticəyönümlü təhsil modeli, kompetensiya əsaslı yanaşma və beynəlxalq təcrübə əsas meyar kimi götürülmüşdür. Praktiki bacarıqların formalaşdırılması, istehsalat və klinik təcrübələrin genişləndirilməsi, real layihələr üzərində tələbələrlə iş mexanizmlərinin qurulması və bu məqsədlə müasir laboratoriyaların, klinik baza və praktiki tədris mühitinin yaradılması və inkişaf etdirilməsi universitetdə tədrisin təşkili prosesində prioritet vəzifələrdən hesab olunur.

Universitetin strateji hədəflərinə və qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq 2025-ci ildə də kadr cəlbi prosesi davam etdirilmişdir. Bu çərçivədə akademik və inzibati vəzifələr üzrə vakansiyalar elan edilmiş, müvafiq komissiya tərəfindən təşkil olunan müsahibə və sınaq dərsləri mərhələlərini uğurla keçən namizədlər işə qəbul edilmişdir. Hazırda Qarabağ Universitetində klinika da daxil olmaqla, ümumilikdə 378 nəfər əməkdaş fəaliyyət göstərir. Onlardan 159 nəfəri professor-müəllim heyətini, 219 nəfəri isə inzibati və texniki heyəti təşkil edir. Akademik və inzibati heyətin formalaşdırılması zamanı ölkənin aparıcı ali təhsil müəssisələrində və xarici universitetlərdə təcrübə qazanmış, peşəkar bilik və bacarıqlara malik, müasir dünyagörüşlü və innovativ düşüncəli gənc alim və mütəxəssislərə üstünlük verilmişdir. Texniki heyətin işə qəbulunda isə əsasən yerli sakinlərə üstünlük tanınmışdır ki, bu da işğaldan azad olunmuş ərazilərdə yeni məskunlaşmış əhalinin məşğulluğunun təmin edilməsinə, eləcə də regionun sosial-iqtisadi inkişafına töhfə verilməsinə xidmət edir.

Universitetin sosial infrastrukturu əhəmiyyətli dərəcədə genişləndirilərək bütün əməkdaşlar və tələbələr müvafiq yaşayış şəraiti ilə təmin olunmuşlar. Cari tədris ilində müasir kampus konsepsiyasına uyğun əsaslı təmir işləri aparılmış 7 mənzil tipli binadan ibarət yeni yataqxana kompleksi Qarabağ Universitetinin tələbələrinin istifadəsinə verilmişdir. Müvafiq yaşayış şəraiti yaradılmış 312 mənzil zəruri avadanlıqlarla təchiz edilmişdir. Ümumilikdə 30 min kvadratmetr mənzil sahəsi olan yataqxana kompleksində 1700 tələbənin yaşaması nəzərdə tutulmuşdur. Qeyd edək ki, Qarabağ Universitetinin ötən il istifadəyə verilmiş digər tələbə yataqxanası 6 mənzil tipli binadan ibarətdir.

## İdarəetmədə müasir yanaşmalar

2025/2026-cı tədris ilinin payız semestrində Qarabağ Universitetində idarəetmədə sistemli, şəffaf və strateji yanaşmanın tətbiqi əsas prioritetlərdən biri olmuşdur. Akademik və inzibati struktur bölmələri arasında koordinasiyanın davamlı şəkildə gücləndirilməsi, tələbəyönümlü və nəticə əsaslı idarəetmə mexanizmlərinə üstünlük verilməsi universitetin dayanıqlı və rəqabətqabiliyyətli ali təhsil müəssisəsi kimi mövqeyinin möhkəmləndirilməsinə yönəlmişdir.

Bu yanaşmanın institusional əsaslarının formalaşdırılmasında universitetin ali idarəetmə orqanı olan Elmi Şuranın fəaliyyəti mühüm rol oynamışdır. Semestr ərzində keçirilən Elmi Şura iclaslarında idarəetmədə kollegiallıq, şəffaflıq və hesabatlılıq prinsipləri təmin edilmiş, tədrisin təşkili, tələbə qəbulu nəticələri, imtahan sessiyasına hazırlıq, fakültələrin fəaliyyəti, elmi-tədqiqat mühitinin inkişafı və tədris resurslarının zənginləşdirilməsi ilə bağlı məsələlər ətraflı müzakirə olunaraq müvafiq qərarlar qəbul edilmişdir.




Bununla yanaşı, universitet rəhbərliyinin fakültələrin akademik və inzibati heyəti ilə keçirdiyi silsilə görüşlər idarəetmədə açıq dialoq, qarşılıqlı etimad və strateji hədəflərə fokuslanma prinsiplərinin ön planda olduğunu nümayiş etdirmişdir. Bu görüşlərdə tədrisin keyfiyyətinin yüksəldilməsi, elmi-tədqiqat fəaliyyətinin genişləndirilməsi, sənaye ilə əməkdaşlıq imkanlarının artırılması, beynəlxalq əlaqələrin inkişafı, kadr potensialının gücləndirilməsi və tələbələrin hərtərəfli inkişafı kimi mühüm məsələlər ətraflı müzakirə olunmuşdur.

Qarabağ Universitetində tələbə mərkəzli yanaşma əsasında müasir idarəetmə modelinin tətbiqinə xüsusi önəm verilmişdir. Universitetdə davamlı surətdə təşkil olunan sorğular və görüşlər əsasında tələbələrin maraq və ehtiyacları təhlil edilmiş və müvafiq olaraq tədbirlər həyata keçirilmişdir. Buna misal olaraq, cari tədris ilinin əvvəlində tələbələrin akademik və sosial mühitə çevik uyğunlaşmasını təmin etmək, həmçinin onlara zəruri resursları təqdim etmək məqsədilə orientasiya günləri təşkil edilmişdir. Bu çərçivədə tələbələr Xankəndi şəhərinin əsas məkanları və iaşə obyektləri ilə tanış olmuş, universitetin tədris binaları, fakültələrin strukturu və heyəti barədə məlumatlandırılmış, tədrisin təşkili, intizam qaydaları, qiymətləndirmə meyarları, dərs cədvəli və sillabuslarla ətraflı tanış olmuşlar. Həmçinin universitet həyatına yeni qədəm qoymuş gənclərin motivasiyasının gücləndirilməsi məqsədilə universitet rəhbərliyinin bütün fakültələr üzrə tələbələrlə silsilə görüşləri təşkil edilmişdir.

Bundan əlavə, tədrisin, sənəd dövriyyəsinin və kitabxana xidmətlərinin idarə olunmasında elektron sistemlərin tətbiqi istiqamətində hazırlıq işləri davam etdirilmişdir. Bu addımlar idarəetmədə rəqəmsallaşmanın genişləndirilməsinə, qərar qəbuletmə proseslərinin çevikliyinin və əməliyyat səmərəliliyinin artırılmasına, həmçinin universitetdə müasir və effektiv tədris mühitinin formalaşdırılmasına xidmət etmişdir.

## Tədrisdə keyfiyyət təminatı

Ümumilikdə, həyata keçirilmiş idarəetmə və təşkilati tədbirlər, atılmış məqsədyönlü addımlar universitetin milli və beynəlxalq səviyyədə rəqabətqabiliyyətli təhsil və tədqiqat mərkəzinə çevrilməsi istiqamətində davamlı inkişaf xəttini dəstəkləmişdir. Bu kontekstdə Qarabağ Universitetində beynəlxalq keyfiyyət təminatı sahəsində əldə edilən ilk mühüm nailiyyət kimi Biznes və iqtisadiyyat fakültəsinin "Mühasibat" və "Maliyyə" ixtisaslarının dünyanın ən nüfuzlu peşəkar maliyyə qurumlarından biri olan ACCA (The Association of Chartered Certified Accountants - İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası) tərəfindən akkreditə olunması xüsusi qeyd olunmalıdır. Bu akkreditasiya Qarabağ Universitetində hər iki ixtisas üzrə tədris olunan proqramların akademik məzmununun, təlim nəticələrinin və qiymətləndirmə mexanizmlərinin ACCA-nın beynəlxalq standartlarına tam uyğun olduğunu təsdiqləyir. Akkreditasiya çərçivəsində "Mühasibat" və "Maliyyə" ixtisasları üzrə gələcək məzunlar 5 il müddətində ACCA-nın 4 imtahanından (Business and Technology, Management Accounting, Financial Accounting, Corporate and Business Law) azad olunacaqlar. Bu mühüm üstünlük tələbələrimizə beynəlxalq peşəkar sertifikatlaşma yolunda vaxt və resurslara qənaət etməklə yanaşı, onların qlobal əmək bazarında rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artırır.

Universitetdə müəllimlərin pedaqoji və metodiki bacarıqlarının artırılması məqsədilə müxtəlif seminarlar, təlimlər və işgüzar müzakirələr təşkil olunmuşdur ki, bu da tədrisin keyfiyyətinin yüksəldilməsində mühüm addım hesab edilir. Bu fəaliyyətlər müəllimlərin müasir pedaqoji yanaşmalar, dərs planlaması, qiymətləndirmə metodları və tətbiqyönümlü təlim texnologiyaları sahəsində bilik və bacarıqlarını gücləndirməyə, dərs prosesini daha interaktiv və tələbəyönümlü etməyə imkan yaradır.

Eləcə də, 2025/2026-cı tədris ilinin payız semestrinin imtahan sessiyasının mövcud qanunvericiliyin tələblərinə uyğun və qabaqcıl beynəlxalq təcrübə əsasında, şəffaflıq və obyektivlik prinsipləri gözlənilməklə təşkil edilməsi tədrisin keyfiyyətinin yüksəldilməsi məqsədi daşıyır. İmtahan tapşırıqları tələbələrin yalnız nəzəri biliklərinin deyil, eyni zamanda analitik düşünmə, tənqidi yanaşma, problemi həll etmə və tətbiqi bacarıqlarının ölçülməsinə imkan vermişdir. İmtahan prosesində yazılı, şifahi, təqdimat (layihə) əsaslı və test üsulu ilə qiymətləndirmə, eyni zamanda kombinə edilmiş üsullardan istifadə edilmişdir.Tətbiq edilən çoxşaxəli imtahan modeli tədris prosesinin effektivliyinin real qiymətləndirilməsinə də şərait yaratmışdır.

## Elmi fəaliyyətdə dinamik inkişaf

Cari tədris ilinin payız semestri Qarabağ Universiteti üçün elmi fəaliyyət sahəsində əhəmiyyətli nailiyyətlərin əldə olunması ilə də səciyyələnmişdir. Qısa zaman kəsiyində universitetin alim və tədqiqatçıları dünyanın müxtəlif ölkələrində keçirilmiş nüfuzlu beynəlxalq elmi konfrans və tədbirlərdə fəal iştirak etmiş, aktual elmi mövzular üzrə məruzələrlə çıxış edərək beynəlxalq elmi ictimaiyyətlə səmərəli elmi mübadilə aparmışlar. Semestr ərzində Qarabağ Universiteti Türkiyə, Latviya, Serbiya, Danimarka və Qazaxıstanda təşkil olunan elmi platformalarda layiqincə təmsil olunmuşdur.

Elmi fəaliyyətin kəmiyyət və keyfiyyət göstəricilərində də müsbət dinamika müşahidə edilmişdir. Belə ki, 2024-cü ildə 6, 2025-ci ildə isə 28 olmaqla, ümumilikdə Qarabağ Universiteti əməkdaşlarının Scopus indeksli nüfuzlu beynəlxalq elmi jurnallarda dərc olunmuş məqalələrinin sayı 34-ə çatmışdır. Aparılan tədqiqatlar fundamental və tətbiqi elmləri əhatə etmiş, həm yerli, həm də qlobal çağırışlara cavab vermişdir. Bu tədqiqatların nəticələri BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən 12-nin icrasına töhfə vermişdir. Xüsusilə iqlim dəyişikliyi, enerji, innovasiya və iqtisadi inkişaf sahələrində araşdırmalar üstünlük təşkil etmişdir ki, bu da universitetin sosial və ekoloji məsuliyyət prinsiplərinə əsaslanan elmi yanaşmasını əks etdirir.

Elmi potensialın gücləndirilməsi məqsədilə universitet əməkdaşları tədqiqat bacarıqlarının artırılmasına yönəlmiş təlim proqramlarına fəal cəlb olunmuşlar. Universitetin Tədqiqat və İnnovasiya Mərkəzinin dəstəyilə bütün fakültələrdə həftəlik elmi seminarların təşkilinə başlanılmışdır. Seminarların əsas məqsədi tədqiqatyönümlü fəaliyyəti stimullaşdırmaq, fakültələrarası elmi əməkdaşlığı artırmaq, innovativ ideyaların müzakirəsini təmin etmək və əldə olunan elmi biliklərin regionun sosial-iqtisadi inkişafına yönəldilməsinə şərait yaratmaqdır. Qarabağ Universiteti bu təşəbbüslə akademik mühitdə elmi istiqamətlənməni gücləndirməyi, yeni tədqiqat layihələrinin yaranmasına dəstək göstərməyi və universitetin innovasiya ekosistemini daha da inkişaf etdirməyi hədəfləyir.

## Tələbə nailiyyətləri və fəallığı

2025/2026-cı tədris ilinin payız semestri Qarabağ Universitetində tələbələrin akademik biliklərinin real mühitdə tətbiqi, innovativ təşəbbüslərlə çıxış etməsi və universiteti milli və beynəlxalq platformalarda layiqincə təmsil etməsi baxımından əlamətdar olmuşdur. Tələbələr iqlim fəaliyyəti, "yaşıl iqtisadiyyat", mühəndislik, aqrar innovasiyalar, sahibkarlıq və digər sahələrdə müvafiq təşəbbüslərlə çıxış edərək uğur qazanmışdırlar. Qarabağ Universitetində bu istiqamətdə fəaliyyətlərin dəstəklənməsi tələbələrin qlobal miqyasda rəqabətqabiliyyətli, sosial məsuliyyətli və praktikyönümlü mütəxəssislər kimi formalaşdırıldırılmasına hədəflənmişdir.

Semestr ərzində "Bakı İqlim Fəaliyyəti Həftəsi 2025", "Rebuild Karabakh" və "BakuBuild" beynəlxalq sərgiləri və Beynəlxalq STEAM Azərbaycan Festivalında (SAF 2025) Qarabağ Universitetinin tələbələrinin layihələri böyük maraqla qarşılanmış və Qarabağın "yaşıl bərpası"na gənclərin töhfəsi kimi yüksək dəyərləndirilmişdir.

Eləcə də, Qarabağ Universitetinin tələbələrinin hazırladığı "Agritech Hydro Karabakh" layihəsinin "Bizdən Biznesə" startap müsabiqəsində üçüncü yerə layiq görülməsi və 15 000 AZN maliyyə mükafatı qazanması tələbə sahibkarlığının təşviqi istiqamətində əldə edilən nailiyyətlərdəndir. Bundan əlavə, Qarabağ Universitetinin 8 tələbəsi "Gənc qızların təhsilinə dəstək" layihəsi çərçivəsində "Hənifə Məlikova-Zərdabi adına təqaüd proqramı - 2025" in qalibi seçilmişdir. Həmçinin Qarabağ Universitetinin "Hüquqşünaslıq" ixtisasında təhsil alan tələbələri Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən müsabiqə və viktorinada uğur qazanmışlar.

Semestr ərzində Qarabağ Universitetinin tələbələri bir sıra nüfuzlu beynəlxalq elmi və texnoloji platformalarda uğurla təmsil olunmuşlar. "Enactus Qarabağ" komandası ilk dəfə iştirak etdiyi "Enactus Azərbaycan" milli yarışının qalibi olmuş və Tailand Krallığında keçirilən "Enactus Dünya Kuboku 2025"-də Azərbaycanı uğurla təmsil edərək innovativ düşüncə sahəsində universitetin beynəlxalq nüfuzunun artmasına töhfə vermişdir. Həmçinin tələbələrimiz Avstraliyanın Sidney şəhərində 76-cı Beynəlxalq Astronavtika Konqresində (76th International Astronautical Congress - IAC 2025) iştirak etmişlər. Bununla yanaşı, tələbə komandamız 50-ci ICPC - Universitetlərarası Beynəlxalq Proqramlaşdırma Müsabiqəsinin yarımfinal mərhələsində və Cənubi Qafqaz Açıq Çempionatında uğurla iştirak edərək əvvəlki illərlə müqayisədə əhəmiyyətli irəliləyişə nail olmuşlar. Bundan əlavə, Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında həyata keçirilən gənclər mübadiləsi proqramı çərçivəsində 12 nəfərdən ibarət Azərbaycan nümayəndə heyətinin tərkibində Qarabağ Universitetinin bir tələbəsi Mərakeşdə səfərdə fəal təmsil olunmuşdur.

Semestr ərzində könüllülük fəaliyyətləri də diqqət mərkəzində saxlanılmışdır. Tələbələr 2025-ci ilin 2-5 sentyabr tarixlərində III MDB Oyunları çərçivəsində Xankəndi şəhər stadionunda təşkil olunan yarışlarda, eləcə də 15-16 oktyabr tarixlərində III Azərbaycan Milli Şəhərsalma Forumunda könüllü kimi fəal iştirak etmişlər.

## Milli-mənəvi dəyərlərin təbliği və maarifləndirmə işi

2025/2026-cı tədris ilinin payız semestri Qarabağ Universitetində mənəvi-ideoloji, maarifləndirici, mədəni və ictimai fəaliyyətlərin sistemli və məqsədyönlü şəkildə genişləndirilməsi ilə də səciyyələnmişdir. İşğaldan azad olunmuş ərazilərdə formalaşan yeni ali təhsil modelinə uyğun olaraq universitet gənclərin milli kimlik şüurunun möhkəmləndirilməsi, vətənpərvərlik dəyərlərinin aşılanması, tarixi yaddaşın qorunması və mədəni irsin yaşadılması istiqamətində ardıcıl təşəbbüslərlə çıxış etmişdir. Payız semestri ərzində Qarabağ Universitetində dövlətçilik tarixində xüsusi əhəmiyyət daşıyan əlamətdar günlərə həsr olunmuş silsilə tədbirlər təşkil edilmişdir. "27 Sentyabr - Anım Günü", "8 Noyabr - Zəfər Günü", "12 Dekabr - Ümummilli Lider Heydər Əliyevin anım günü", "20 Yanvar - Ümumxalq Hüzn Günü", eləcə də Üzeyir bəy Hacıbəylinin 140 illiyi və akademik Yusif Məmmədəliyevin 120 illiyi münasibətilə keçirilən tədbirlər gənclərdə milli qürur hissinin gücləndirilməsinə, tarixi şəxsiyyətlərin irsinin dərindən mənimsənilməsinə və mədəni yaddaşın qorunmasına xidmət etmişdir. Bununla yanaşı, Qarabağ Universitetinin yaradılmasının 2 illiyi, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə İncəsənət fakültəsində təşkil olunan konsert proqramları və sərgilər universitetin mədəni mühitinin zənginləşdirilməsinə mühüm töhfə vermişdir.

Milli-mənəvi dəyərlərin təşviqi istiqamətində Qarabağ Universiteti institusional əməkdaşlıqlarını da genişləndirmişdir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan İlahiyyat İnstitutu və Mənəvi Dəyərlərin Təbliği Fondu ilə birgə "Mənəvi dəyərlər həftəsi"çərçivəsində keçirilən elmi mühazirələr, panel müzakirələri, bədii proqramlar və ağacəkmə aksiyası milli-mənəvi dəyərlərin həm nəzəri, həm də praktik müstəvidə təşviq edildiyini əyani şəkildə ortaya qoymuşdur.

2025/2026-cı tədris ilinin payız semestrində Qarabağ Universitetində tərəfdaş qurumların dəstəyilə həyata keçirilən çoxşaxəli və sistemli təlimlər və maarifləndirici görüşlər tələbə və əməkdaşların bilik, bacarıq və səriştələrinin gücləndirilməsini təmin etməklə insan kapitalının inkişafını universitetin əsas prioriteti kimi ön plana çıxarmışdır. Yumşaq bacarıqlar, rəqəmsal savadlılıq və kibertəhlükəsizlik, innovasiya və layihəəsaslı düşüncə, karyerayönümlü və sosial məsuliyyət mövzularını əhatə edən bu tədbirlər iştirakçıların akademik, peşəkar və vətəndaş mövqelərinin formalaşmasına, əmək bazarının tələblərinə uyğun kompetensiyaların qazanılmasına və davamlı öyrənmə mədəniyyətinin möhkəmlənməsinə xidmət etmişdir.

## Beynəlxalq və yerli tərəfdaşlıqların inkişafı

Bu dövr Qarabağ Universiteti üçün beynəlxalq əməkdaşlığın inkişafı, strateji tərəfdaşlıqların genişləndirilməsi və universitetin qlobal akademik məkanda mövqeyinin möhkəmləndirilməsi baxımından da mühüm mərhələ olmuşdur. Həyata keçirilən rəsmi səfərlər və institusional təmaslar Qarabağ Universitetinin beynəlxalq əməkdaşlığının inkişafının planlı, ardıcıl və məqsədyönlü xarakter daşıdığını nümayiş etdirmişdir. Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayevin Türkiyə Respublikasının milli təhsil naziri Yusuf Tekin və Türkiyə Ali Təhsil Şurasının sədri Erol Özvar ilə birlikdə Qarabağ Universitetində olmaları və eləcə də Ankarada keçirilimiş görüşlər Qarabağ Universitetinin Türkiyə universitetləri ilə əməkdaşlığının yeni mərhələyə keçməsinə əhəmiyyətli töhfə vermişdir. Bununla yanaşı, Türkiyənin Şərqi Anadolu bölgəsində yerləşən universitetlərin rektorlarından ibarət nümayəndə heyəti ilə Qarabağ Universitetində keçirilən görüş çərçivəsində potensial əməkdaşlıq imkanları ətrafında səmərəli müzakirələr aparılmışdır.

Qarabağ Universitetinin Türk Universitetlər Birliyinə (TÜRKÜNİB) üzv qəbul edilməsi beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm nailiyyət hesab olunur. Bundan əlavə, 2026-cı ilin yanvarında Ankaraya səfər çərçivəsində Türkiyənin nüfuzlu ali təhsil müəssisələri - Ankara Universiteti, Hacettepe Universiteti, Ankara Hacı Bayram Veli Universiteti və Qazi Universiteti ziyarət edilmiş, qarşılıqlı əməkdaşlıq perspektivləri üzrə faydalı müzakirələr aparılmışdır. Səfər zamanı, Azərbaycan Respublikasının elm və təhsil naziri və Türkiyə Ali Təhsil Şurasının sədrinin iştirakı ilə Qarabağ Universiteti və İstanbul Texniki Universiteti arasında Anlaşma Memorandumunun imzalanması universitetimizin tədris və tədqiqat potensialının gücləndirilməsinə, beynəlxalq standartlara uyğun kadr hazırlığının təmin edilməsinə hədəflənmişdir.

Bununla yanaşı, Qarabağ Universitetində qabaqcıl yerli ali təhsil müəssisələri, dövlət və sənaye qurumları ilə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. SOCAR ilə imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində tələbələr üçün təcrübə və təqaüd proqramları, elmi-tədqiqat və innovativ layihələrin dəstəklənməsi, Bakı Ali Neft Məktəbi və Qarabağ Universiteti arasında müştərək tədris proqramları və bir sıra digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Həmçinin, payız semesti ərzində Ali Məhkəmə və Məhkəmə-Hüquq Şurası ilə birgə konfrans, Şuşa Şəhəri Dövlət Qoruğu ilə birgə elmi-praktik seminar təşkil olunmuşdur. ADA Universiteti ilə əməkdaşlıq çərçivəsində Qarabağ Universitetinin müəllimləri üçün "Rəqəmsal Tədris və Öyrənmənin Dizaynı" adlı təlim proqramına başlanılmışdır. Proqramın əsas məqsədi müəllimlərin rəqəmsal tədris mühitində pedaqoji yanaşmalarını gücləndirmək, müasir təlim dizaynı prinsiplərini mənimsəmək və LMS əsaslı dərs quruluşunu effektiv şəkildə formalaşdırmaqdır. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilə Anlaşma Memorandumu imzalanmış, elmi-tədqiqat və akademik mübadilə imkanları genişləndirilmişdir. Bundan əlavə, Xankəndi, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti ilə əməkdaşlıq perspektivləri müzakirə olunmuş, tələbələr üçün müsabiqələr, layihələr və "Dirçəliş klubu"nun fəaliyyəti planlaşdırılmışdır.

*Beləliklə, dövlətimizin hərtərəfli dəstəyi və faydalı tərəfdaşlıqlar sayəsində Qarabağ Universitetində cari tədris ilinin payız semestri məhsuldarlığı ilə yadda qalmışdır. Əldə olunan nailiyyətlər, reallaşdırılan yeni layihələr və tərəfdaşlıqlar universitetin strateji hədəflərinə çatması yolunda əhəmiyyətli addımlar olmuşdur. Regional ekosistemin drayveri olmağı hədəfləyən Qarabağ Universitetinin potensialının daha da gücləndirilməsi məqsədilə dövlətimizin güclü dəstəyilə reallaşdırılan bu çoxşaxəli fəaliyyətlər növbəti dövrlərdə də davam etdiriləcəkdir.*

***Şahin BAYRAMOV,***
***Qarabağ Universitetinin rektoru***

# Azərbaycanın enerji strategiyasının ideya, təcrübə və sənəd vəhdəti

**Azərbaycanın müasir dövlətçilik tarixində enerji strategiyası yalnız iqtisadi siyasətin bir istiqaməti deyil, milli inkişaf modelinin əsas sütunlarından biri kimi çıxış edir. Bu baxımdan Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanovun "Neft və davamlı inkişaf: Azərbaycanın enerji strategiyası" adlı üçcildlik fundamental tədqiqatı Azərbaycan enerji siyasətinin formalaşma və inkişaf mərhələlərinin sistemli elmi təhlilinə həsr olunmuş mühüm nəşr kimi diqqəti cəlb edir.**

Kitabda Azərbaycanın neft strategiyası xronoloji hadisələr toplusu kimi deyil, dövlətçilik, geosiyasət, enerji diplomatiyası və davamlı inkişaf konsepsiyası müstəvisində təqdim edilib. Müəllif enerji sektorunu həm tarixi proses, həm də strateji idarəetmə modeli kimi araşdıraraq bu sahədə kompleks yanaşma ortaya qoyub.

Kitabın aktuallığı bir neçə amillə şərtlənir. Birincisi, qlobal enerji bazarlarında gedən transformasiya prosesləri fonunda Azərbaycanın enerji siyasətinin elmi təhlilinə ehtiyac artmışdır. İkincisi, müasir elmi diskursda "resurs bolluğu" ilə "davamlı inkişaf" arasındakı əlaqə mühüm müzakirə predmetidir. Müəllif bu məsələni Azərbaycan nümunəsi əsasında araşdıraraq praktik və nəzəri nəticələr ortaya qoyur. Üçüncüsü, kitabda Heydər Əliyevin və İlham Əliyevin çıxışları, müsahibələri və rəsmi mövqeləri ilkin mənbə kimi istifadə olunur ki, bu da nəşrin elmi etibarlılığını əhəmiyyətli dərəcədə artırır.

Əsərin əsas konseptual xətti Azərbaycanın enerji siyasətinin mərhələli, məqsədyönlü və institusional inkişaf modeli kimi təqdim edilməsinə əsaslanır. Müəllif enerji strategiyasını dar texniki-iqtisadi çərçivədə deyil, dövlətçilik təfəkkürü, siyasi qərarların ardıcıllığı və beynəlxalq münasibətlər sistemi kontekstində şərh edir. Bu yanaşma kitabın elmi dəyərini müəyyən edən başlıca cəhətlərdəndir.

Kitabın ümumi məqsədi Azərbaycan neft strategiyasının tarixi inkişafını sənədlər, çıxışlar, rəsmi mövqelər və faktoloji materiallar əsasında sistemləşdirmək və bu strategiyanın milli inkişafla qarşılıqlı əlaqəsini göstərməkdir. Müəllif enerji siyasətini təsadüfi qərarlar toplusu kimi deyil, uzunmüddətli strateji planlaşdırmanın nəticəsi kimi təqdim edir. Bu, müasir enerji tədqiqatlarında geniş tətbiq olunan institusional yanaşmaya uyğun gəlir.

Əsərin konsepsiyasında əsas diqqət aşağıdakı məqamlar üzərində cəmlənir:

- enerji resurslarının milli maraqlara uyğun idarə olunması;
- neft strategiyasının dövlət müstəqilliyinin möhkəmləndirilməsində rolu;
- enerji gəlirlərinin davamlı sosial-iqtisadi inkişafa yönəldilməsi;
- beynəlxalq enerji əməkdaşlığının diplomatik və geosiyasi əhəmiyyəti.

Müəllif enerji sektorunu yalnız iqtisadi gəlir mənbəyi kimi deyil, siyasi legitimlik, beynəlxalq etimad və regional sabitlik amili kimi dəyərləndirir. Bu baxımdan əsər enerji siyasətinin "funksional" deyil, "strateji" təbiətini ön plana çıxarır. Xüsusilə vurğulanmalıdır ki, kitabda enerji strategiyası dövlətin ümumi inkişaf konsepsiyasından ayrı təsəvvür edilmir, əksinə, bu strategiya milli inkişaf modelinin tərkib hissəsi kimi təqdim olunur.

Üççildliyin konsepsiyasında Heydər Əliyev və İlham Əliyev mərhələlərinin ayrılması da təsadüfi deyil. Müəllif bu bölgü ilə enerji strategiyasının formalaşma, institusional möhkəmlənmə və davamlı inkişaf mərhələlərini elmi ardıcıllıqla göstərməyə nail olur. Beləliklə, kitab yalnız tarixi xronika deyil, eyni zamanda enerji siyasətinin konseptual xəritəsi funksiyasını yerinə yetirir.

Əsərin elmi məqsədi Azərbaycanın enerji strategiyasını milli dövlətçilik təcrübəsinin mühüm komponenti kimi ümumiləşdirmək və bu təcrübəni sistemli elmi baxış prizmasından təqdim etməkdir. Bu məqsədin reallaşdırılması kitabın sonrakı bölmələrində struktur, mənbə bazası və məzmun baxımından ardıcıl şəkildə davam etdirilir.

Əsərin mühüm üstünlüklərindən biri onun aydın qurulmuş strukturu və zəngin mənbə bazasıdır. Kitabın strukturu müəllifin qarşıya qoyduğu elmi məqsədə tam uyğun şəkildə formalaşdırılmış və oxucuya enerji strategiyasının inkişaf məntiqini ardıcıl izləməyə imkan yaradır.

Struktur bölgü tematik və xronoloji prinsiplərin vəhdəti üzərində qurulmuşdur. Birinci cilddə Azərbaycanın neft tarixinin əsas mərhələləri və Ulu Öndər Heydər Əliyevin milli neft strategiyasının banisi kimi fəaliyyəti təqdim edilir. İkinci cild Prezident İlham Əliyevin rəhbərliyi dövründə yeni neft strategiyasının inkişaf mərhələlərinə həsr olunmuşdur. Üçüncü cilddə isə "Əsrin müqaviləsi" və ondan sonrakı dövrdə imzalanmış neft-qaz müqavilələrinə dair rəsmi sənədlər sistemli şəkildə toplanmışdır. Bu struktur enerji strategiyasının ideya, təcrübə və sənəd ardıcıllığını aydın şəkildə nümayiş etdirir.

Strukturun elmi baxımdan üstün cəhəti ondan ibarətdir ki, müəllif enerji siyasətini epizodik faktlar kimi deyil, mərhələli inkişaf prosesi kimi təqdim edir. Hər bir cild əvvəlki mərhələnin məntiqi davamı olmaqla enerji strategiyasının təkamülünü bütöv şəkildə dərk etməyə şərait yaradır. Bu yanaşma əsəri xronoloji salnamədən fərqləndirərək elmi sistematikliyə yaxınlaşdırır. Kitabın mənbə bazası da xüsusi qeyd olunmalıdır. Müəllif geniş faktoloji materialdan istifadə etmiş, rəsmi sənədlərə, dövlət rəhbərlərinin çıxış və müsahibələrinə, beynəlxalq enerji tədbirlərində səsləndirilmiş mövqelərə, eləcə də mətbuat materiallarına əsaslanmışdır. "Azərbaycan", "Xalq qəzeti", "AZƏRTAC" kimi rəsmi informasiya mənbələrinin sistemli şəkildə cəlb olunması kitabın informasiya etibarlılığını artırır.

Xüsusilə üçüncü cilddə təqdim olunan müqavilə mətnləri və danışıqlar prosesinə dair materiallar kitabın sənədli-elmi dəyərini yüksəldir. Bu materiallar tədqiqatçılar üçün ilkin mənbə rolunu oynayır və enerji strategiyasının hüquqi-institusional əsaslarını birbaşa öyrənməyə imkan verir. Belə bir mənbə toplusunun bir nəşrdə sistemləşdirilməsi Azərbaycan enerji siyasətinə dair elmi ədəbiyyatda nadir rast gəlinən haldır.

Nəticə etibarilə kitabın strukturu və mənbə bazası müəllifin elmi niyyətinin ciddiliyini və tədqiqatın geniş əhatə dairəsini nümayiş etdirir.

Əsərin əsas məzmun sütunlarından biri Ulu Öndər Heydər Əliyevin Azərbaycanın milli neft strategiyasının formalaşmasında oynadığı tarixi rolun sistemli şəkildə təqdim edilməsidir. Müəllif birinci cilddə Heydər Əliyev mərhələsini təkcə siyasi liderlik faktı kimi deyil, strateji dövlətçilik düşüncəsinin enerji sahəsində institusionallaşması prosesi kimi şərh edir. Kitabda Heydər Əliyevin neft siyasətinə yanaşması ardıcıl və konseptual çərçivədə təqdim olunur. Müəllif göstərir ki, müstəqilliyin ilk illərində mürəkkəb geosiyasi və iqtisadi şəraitdə enerji sektoru ölkənin həm iqtisadi dirçəlişi, həm də siyasi sabitliyi üçün əsas vasitə kimi nəzərdən keçirilmişdir. Bu kontekstdə Heydər Əliyevin çıxışları, görüşləri və rəsmi mövqeləri birinci mənbə kimi istifadə edilərək enerji strategiyasının ideoloji əsasları üzə çıxarılır.

Kitabda Heydər Əliyevin enerji siyasəti "hasilatı artırmaq" kimi məhdud məqsədlə deyil, milli maraqların qorunması, beynəlxalq tərəfdaşlıqların qurulması və uzunmüddətli təhlükəsizliyin təmin edilməsi kontekstində izah edilir. Müəllif bu yanaşmanı konkret faktlarla - beynəlxalq neft şirkətləri ilə aparılan danışıqlar, imzalanan müqavilələr, enerji sərgilərində və sammitlərdə səsləndirilən mövqelər vasitəsilə əsaslandırır.

Heydər Əliyevin çıxışlarının kitabda geniş yer alması elmi baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu çıxışlar enerji strategiyasının yalnız iqtisadi deyil, eyni zamanda ictimai legitimlik və siyasi məsuliyyət daşıdığını göstərir. Müəllifin təqdimatında neft siyasəti dövlətin xalq qarşısında verdiyi strateji öhdəlik kimi dəyərləndirilir və bu öhdəliyin icrası milli inkişafın əsas şərti kimi təqdim olunur.

Beləliklə, birinci cilddə Heydər Əliyev mərhələsinin təqdimatı Azərbaycan enerji strategiyasının konseptual başlanğıc nöqtəsini aydın şəkildə ortaya qoyur və sonrakı mərhələlərin elmi izahı üçün möhkəm nəzəri əsas yaradır.

Üçcildliyin ikinci cildi Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycanın enerji strategiyasının yeni mərhələsini əhatə edir və müəllif bu mərhələni Heydər Əliyev kursunun məntiqi və institusional davamı kimi təqdim edir. Kitabda İlham Əliyevin fəaliyyəti yalnız siyasi varislik çərçivəsində deyil, müasir çağırışlara uyğunlaşdırılmış strateji idarəetmə modeli kimi şərh olunur.

Müəllif Prezident İlham Əliyevin enerji sahəsindəki fəaliyyətini üç mərhələyə ayıraraq təhlil edir: Azərbaycan Respublikası Dövlət Neft Şirkətində rəhbər vəzifələr dövrü, Baş nazir mərhələsi və Prezidentlik dövrü. Bu bölgü enerji siyasətində formalaşan təcrübənin təkamülünü izləməyə və qərarların institusional ardıcıllığını anlamağa imkan verir. Qeyd olunmalıdır ki, belə mərhələləndirmə əsərin elmi sistemliyini əhəmiyyətli dərəcədə artırır.

Deyilənləri əyani şəkildə göstərmək üçün burada ilkin olaraq Heydər Əliyevin "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr olunmuş təntənəli mərasimdəki nitqindən (Respublika sarayı, 20 sentyabr 1999-cu il) bir hissəni təqdim etmək məqsədəuyğun olardı: "Bu gün burada 'Əsrin müqaviləsi'nin beşilliyini qeyd edərkən Azərbaycanın hər bir guşəsində bizi dinləyirlər. Düşünürəm ki, çadır şəhərciklərində yaşayan əziz soydaşlarımız, yerindən-yurdundan didərgin düşmüş, Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində qaçqın düşmüş soydaşlarımız da çadırlarda bizi dinləyirlər. Onlar bizə inanırlar, dözürlər, indi bizi dinləyərək düşünürlər ki, bunlar hamısı yaxşıdır, bəs biz nə vaxt öz yerimizə, torpaqlarımıza qayıdacağıq? Mən bu gün bəyan edirəm ki, bizim gördüyümüz bütün bu işlər Azərbaycanı bir dövlət kimi möhkəmləndirmək, gücləndirmək, Azərbaycanın iqtisadi potensialını artırmaq üçündür. Şübhəsiz ki, bunlar bütün başqa məsələlərin də həll olunmasına kömək edəcəkdir".

Azərbaycanın Baş naziri, respublika prezidentliyinə namizəd İlham Əliyev prezident seçkiləri ilə əlaqədar xarici ölkələrin kütləvi informasiya vasitələri üçün mətbuat konfransındakı (14 oktyabr 2003-cü il) çıxışında bu fikri belə davam etdirmişdir: "Əgər biz görsək ki, sülh danışıqlarının heç bir əhəmiyyəti yoxdur, onlar formal xarakter daşıyır və heç bir nəticə vermir, onda Azərbaycanın tam haqqı var ki, bütün vasitələrdən istifadə edərək, öz ərazi bütövlüyünü bərpa etsin".

Respublika sarayında "Əsrin müqaviləsi"nin beşinci ildönümünə həsr olunmuş təntənəli mərasimdə ARDNŞ-nin birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyevin məruzəsində deyilirdi: "Bu beş il ərzində 'Əsrin müqaviləsi'nin həyata keçirilməsi nəticəsində əldə olunmuş nailiyyətlər göz qabağındadır. Gələcək haqqında isə təkcə onu qeyd etmək kifayətdir ki, 30 il ərzində Azərbaycan 'Əsrin müqaviləsi'ndən bütün gəlirin 80 faizini, xarici neft şirkətlərinin hamısı birlikdə isə cəmi 20 faizini götürəcəkdir".

Bu göstərilənlər sonrakı qələbənin əsasını təşkil etmişdir.

Kitabda İlham Əliyev mərhələsinin əsas xüsusiyyəti kimi enerji strategiyasının dayanıqlı inkişaf məqsədlərinə inteqrasiyası göstərilir. Neft və qaz layihələri artıq yalnız gəlir mənbəyi kimi deyil, Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyində rolunun gücləndirilməsi, qaz ixracının şaxələndirilməsi və regional liderliyin möhkəmləndirilməsi vasitəsi kimi təqdim olunur. "Şahdəniz", "Abşeron", "Ümid" və "Qarabağ" yataqları ilə bağlı materiallar bu yanaşmanın praktiki təzahürü kimi qiymətləndirilir.

Qeyd olunan yataqların tarixi əhəmiyyətini aşağıda verilənlər daha dolğun ifadə edir. Aparıcı neft şirkətlərinin və korporasiyalarının nümayəndələri ilə görüşdə Heydər Əliyevin çıxışından (13 avqust 1993-cü il) bir hissəni diqqətə çatdırmaqla Azərbaycanın neft tarixində Azərbaycan neftçilərinin tutduğu mövqeyin Ulu Öndər tərəfindən çox yüksək qiymətləndirilməsinin bir daha şahidi oluruq. Çıxışda deyilirdi: "Ona görə də mən neft sənayesinin burada iştirak edən nümayəndələrinə, alimlərimizə və ümumiyyətlə, bütün neftçilərə demək istəyirəm ki, Azərbaycan neftçiləri öz əməyi, bacarığı, sənətinə sadiqliyi ilə bütün dünyada şöhrət tapıblar".



Bunun əyani təsdiqini Prezident İlham Əliyev "Qarabağ" yatağının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edərkən (10 avqust 2020-ci il) göstərmişdir: "1990-cı illərdə Heydər Əliyevin neft strategiyasının icrası nəticəsində pay bölgüsü haqqında kontrakt imzalanmışdır. 1990-cı illərdə bu yataqda üç quyu qazılmışdır. Lakin xarici tərəfdaşlar "Qarabağ" yatağının səmərəliliyinə inanmamışdılar, kontrakta xitam verilmiş və "Qarabağ" yatağı tərk edilmişdi. Ancaq bizim mütəxəssislər tam əmin idilər ki, bu yatağın çox böyük potensialı var və həyat bunu təsdiqlədi. Bu il qazılmış dördüncü quyu səmərəli oldu və beləliklə, yataq tam kəşf edilmişdir".

Azərbaycan mütəxəssislərinin əməyinə verilən digər yüksək qiymət isə Bakıda Xəzər dənizində neft-qaz hasilatına dair beynəlxalq sərginin açılışında Heydər Əliyevin çıxışında (24 may 1994-cü il) ifadə edilmişdir. Çıxışda deyilirdi: "Azərbaycan neft ölkəsidir. Azərbaycanda neft yataqlarının istismar edildiyi bir çox onilliklər ərzində xalqımızın fəxri sayılan neçə-neçə neftçilər nəsli yetişmişdir. Neftçi olmaq Azərbaycanda ən şərəfli peşə sayılır".

Bu çıxışın məntiqi davamı Prezident İlham Əliyevin "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edərkən (19 sentyabr 2020-ci il) ona ünvanlanan sualın cavabında səsləndirdiyi fikirlərdə öz əksini tapmışdır. "Cənab Prezident, Azərbaycan qədim neft diyarıdır. Ölkəmizdə uzun illər həm çar dövründə, həm də müstəqillik dövründə neft hasil olunub. O dövrlərdə və müstəqillik dövründə neft amilinin rolunu necə xarakterizə edərdiniz?" sualına cavabında Prezident İlham Əliyev demişdir: "Bəli, Azərbaycan o ölkədir ki, XIX əsrin ortalarında ilk dəfə sənaye üsulu ilə neft hasil edilibdir. XX əsrin ortalarında tarixdə ilk dəfə dəniz yataqlarından neft Azərbaycanda hasil edilibdir. Ancaq əgər biz tarixə baxsaq, görərik ki, o vaxt Azərbaycanda çıxarılan neft Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Çünki çar Rusiyası dövründə varlılar varlanırdı, amma kasıblar daha da ağır vəziyyətə düşürdü, insanların əməyi çox ağır idi.

Əgər biz o vaxt müstəqil ölkə olsaydıq, mən tam əminəm ki, Azərbaycan dünyanın ən zəngin ölkəsinə çevrilə bilərdi".

Azərbaycanın qədim neft diyarı olması fikrini Ulu Öndər Heydər Əliyev Bakı-Supsa neft kəmərinin açılışına həsr olunmuş təntənəli mərasimdəki nitqində (Supsa, 17 aprel 1999-cu il) belə ifadə etmişdir: "Azərbaycan qədim neft və qaz ölkəsidir. 50 il bundan öncə Azərbaycan dünya praktikasında ilk dəfə olaraq dənizin dərinliklərindən sənaye üsulu ilə neft çıxarmağa başlamışdır. 1949-cu ilin noyabrında Xəzər dənizində, Neft Daşlarında güclü neft fontanı vurmuş və bu, dünyaya dənizdə neft hasilatının yeni mərhələsinin başlandığını bildirmişdir".

Azərbaycanın bir qrup alimi və mütəxəssisi SSRİ-nin ən ali mükafatı olan "Lenin" mükafatına 1961-ci ildə Azərbaycan SSR-də dəniz neft yataqlarının hərtərəfli işlənməsinə görə layiq görülmüşdür.

Xüsusilə vurğulanmalıdır ki, kitabda Prezident İlham Əliyevin çıxış və müsahibələri enerji siyasətinin ideoloji və strateji çərçivəsini açan əsas mənbələr kimi təqdim edib. Bu çıxışlarda neft amilinin tarixi ədalətsizlikdən milli rifaha transformasiyası ideyası ön plana çıxarılır. Beləliklə, enerji siyasəti iqtisadi deyil, sosial-siyasi məsuliyyət daşıyan dövlət strategiyası kimi dəyərləndirilir.

Nəticə etibarilə ikinci cilddə təqdim olunan İlham Əliyev mərhələsi Azərbaycan enerji strategiyasının institusional yetkinlik və davamlı inkişaf mərhələsi kimi dəyərləndirilə bilər. Müəllif bu mərhələni əvvəlki dövrlə üzvi şəkildə əlaqələndirərək enerji siyasətinin uzunmüddətli strateji xəttini aydın şəkildə ortaya qoyur.

Sadiq Qurbanovun üçcildlik əsərinin diqqətçəkən xüsusiyyətlərindən biri enerji diplomatiyasının ayrıca və sistemli istiqamət kimi təqdim olunmasıdır. Müəllif enerji siyasətini yalnız daxili iqtisadi qərarlar müstəvisində deyil, beynəlxalq münasibətlər və geosiyasi balans kontekstində təhlil edir. Bu yanaşma kitabın elmi dəyərini artırmaqla yanaşı, onu müasir enerji tədqiqatlarının aktual problemləri ilə uzlaşdırır.

Kitabda beynəlxalq enerji şirkətləri, transmilli konsorsiumlar və xarici dövlətlərin rəsmi nümayəndələri ilə görüşlər geniş faktoloji material əsasında təqdim olunur. Bu görüşlər, sadəcə, protokol xarakterli hadisələr kimi deyil, Azərbaycanın enerji strategiyasının diplomatik legitimləşdirilməsi və beynəlxalq tərəfdaşlıqların möhkəmləndirilməsi mexanizmləri kimi şərh edilir. Müəllif göstərir ki, enerji diplomatiyası Azərbaycan üçün milli maraqların qorunmasının əsas alətlərindən birinə çevrilmişdir.

Davosda 21 yanvar 2020-ci il tarixində Prezident İlham Əliyev ilə OPEC-in baş katibi Məhəmməd Barkindo arasında keçirilmiş görüşə dair verilən məlumatda göstərilir: Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Davosda Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşmüşdür. Prezident İlham Əliyevin beş il bundan əvvəl Dünya İqtisadi Forumunda etdiyi çıxışı xatırladan Məhəmməd Barkindo demişdir: "Cənab Prezident, xatırlayırsınızsa, beş il bundan əvvəl bu Dünya İqtisadi Forumunda Siz OPEC-ə üzv olan bütün ölkələrin və OPEC-ə üzv olmayan ölkələrin bir araya gəlməsi və birlikdə çalışması ilə bağlı çağırış edən dünya liderlərindən birincisi olmusunuz. Belə bir təşəbbüslə əvvəllər heç kim çıxış etməmişdir. Siz uzaqgörənsiniz, çox qətiyyətlisiniz. Bizim hamımızın bir araya gəlməsi və birlikdə çalışmağımız üçün buradakı qlobal platformadan istifadə edərək hamımıza çağırış etdiniz.

Çünki Siz də dediyiniz kimi, biz hamımız eyni vəziyyətdə idik. Çünki biz hamımız eyni nefti istehsal edirdik və onu eyni bazarlara satırdıq. O zaman bazarda qiymətlər 80 faizdən çox aşağı düşmüşdü".

Mühüm məqamlardan biri də OPEC və qeyri-OPEC ölkələri arasında dialoqun təşviqi ilə bağlı materialların kitabda yer almasıdır. Müəllif Prezident İlham Əliyevin bu sahədə irəli sürdüyü təşəbbüsləri qlobal enerji bazarlarında sabitliyin qorunmasına yönəlmiş strateji addımlar kimi qiymətləndirir. Bu yanaşma enerji diplomatiyasının regional çərçivəni aşaraq qlobal miqyas qazandığını göstərir. Beləliklə, kitabda enerji diplomatiyasının təqdimatı Azərbaycan enerji strategiyasının beynəlxalq kontekstdə necə formalaşdığını və həyata keçirildiyini aydın şəkildə ortaya qoyur. Bu hissə əsərin elmi və analitik yükünü əhəmiyyətli dərəcədə gücləndirir və onu sırf milli tarix çərçivəsindən çıxararaq qlobal enerji diskursuna daxil edir.

Əsərin konseptual mərkəzində dayanan əsas ideyalardan biri "neft" anlayışının "davamlı inkişaf" məqsədləri ilə əlaqələndirilməsidir. Sadiq Qurbanov enerji strategiyasını yalnız qısa və ortamüddətli iqtisadi qazanc prizmasından deyil, uzunmüddətli sosial-iqtisadi dayanıqlıq kontekstində təqdim edir. Bu yanaşma kitabı müasir enerji iqtisadiyyatı və inkişaf nəzəriyyələri ilə səsləşdirir.

Davamlı inkişaf ideyasının kitabda təqdimatında dövlət başçılarının çıxışlarına istinad xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyevin və İlham Əliyevin enerji siyasəti ilə bağlı səsləndirdikləri mövqelər neft gəlirlərinin gələcək nəsillər üçün məsuliyyətli idarə olunması prinsipini ön plana çıxarır. Müəllif bu çıxışları enerji strategiyasının ideoloji əsasları kimi təqdim edərək onları davamlı inkişaf konsepsiyası ilə əlaqələndirir.

Bununla yanaşı, kitabda enerji sektorunun beynəlxalq öhdəliklər və qlobal ekoloji çağırışlar fonunda transformasiyası məsələlərinə də toxunulur. Bu məqam davamlı inkişaf anlayışının yalnız milli deyil, qlobal məsuliyyət ölçüsünü də nəzərə aldığını göstərir. Bu yanaşma əsərin aktuallığını və elmi əhəmiyyətini daha da gücləndirir.

Nəticə etibarilə davamlı inkişaf ideyasının kitabda təqdimatı enerji strategiyasının strateji və etik ölçülərini üzə çıxarır. Müəllif neft amilini keçici iqtisadi üstünlük deyil, gələcək nəsillər üçün inkişaf imkanlarının təminatçısı kimi dəyərləndirir ki, bu da əsərin əsas konseptual nailiyyətlərindən biridir.

Elmi baxımdan əsərin əsas əhəmiyyəti ondan ibarətdir ki, müəllif Azərbaycan enerji strategiyasını vahid konseptual çərçivə daxilində təqdim edir. Kitab enerji siyasətini siyasi tarix, beynəlxalq münasibətlər, enerji iqtisadiyyatı və davamlı inkişaf nəzəriyyələri ilə uzlaşdıraraq multidissiplinar yanaşma nümayiş etdirir. Bu xüsusiyyət əsəri təkcə enerji üzrə ixtisaslaşmış tədqiqatçılar üçün deyil, politologiya, beynəlxalq münasibətlər və dövlət idarəçiliyi sahəsində çalışan alimlər üçün də aktual edir.

Kitabın elmi əhəmiyyətini artıran mühüm cəhətlərdən biri də onun birinci mənbələrə söykənməsidir. Bu isə əsərin akademik etibarlılığını gücləndirir və onu referativ xarakterli nəşrlərdən fərqləndirir.

Praktik baxımdan kitab enerji sektorunda çalışan mütəxəssislər, dövlət qulluqçuları və diplomatik korpus üçün dəyərli məlumat mənbəyidir. Burada enerji layihələrinin necə planlaşdırıldığı, hansı mərhələlərdən keçdiyi, hansı platformalarda legitimləşdirildiyi və beynəlxalq tərəfdaşlıqların necə qurulduğu ardıcıl şəkildə göstərilir. Bu, enerji siyasətinin praktiki idarə olunması baxımından real nümunələr təqdim edir. Eyni zamanda əsər ali məktəblərdə enerji iqtisadiyyatı, beynəlxalq enerji təhlükəsizliyi və Azərbaycan dövlətçilik tarixi üzrə tədris prosesində istifadə oluna biləcək sanballı dərs vəsaiti potensialına malikdir.

Əsərin elmi və praktik əhəmiyyəti onun yalnız keçmişi sənədləşdirməsində deyil, gələcək enerji strategiyalarının öyrənilməsi və modelləşdirilməsi üçün yaratdığı metodoloji imkanlarda təzahür edir.

Sadiq Qurbanovun "Neft və davamlı inkişaf: Azərbaycanın enerji strategiyası" adlı üçcildlik əsərinin əsas üstünlüklərindən biri onun sistemli yanaşma üzərində qurulmasıdır. Müəllif enerji strategiyasını ayrı-ayrı faktların toplusu kimi deyil, daxili məntiqə malik, mərhələli və məqsədyönlü dövlət siyasəti kimi təqdim etməyə nail olmuşdur.

Əsərin mühüm üstün cəhətlərindən biri də sənədli materialların geniş və ardıcıl təqdimatıdır. Xüsusilə üçüncü cilddə yer alan müqavilə mətnləri və rəsmi sənədlər kitabı təkcə elmi araşdırma deyil, eyni zamanda arxiv xarakterli fundamental mənbəyə çevirir. Bu xüsusiyyət əsərin uzunmüddətli elmi dəyərini təmin edən əsas amillərdəndir.

Qeyd edilməli digər mühüm məqam müəllifin enerji siyasətini dövlətçilik və davamlı inkişaf kontekstində şərh etməsidir. Kitabda neft amili keçici iqtisadi üstünlük kimi deyil, milli inkişafın strateji resursu kimi dəyərləndirilir. Heydər Əliyev və İlham Əliyev mərhələlərinin ardıcıl və əlaqəli təqdimatı bu strateji xəttin davamlılığını aydın şəkildə göstərir.

Əsərin üstünlükləri sırasında onun multidissiplinar xarakteri də xüsusi yer tutur. Kitab enerji iqtisadiyyatı, siyasi tarix, beynəlxalq münasibətlər və diplomatiya sahələrini birləşdirərək geniş oxucu auditoriyası üçün elmi maraq kəsb edir. Bu, nəşrin həm akademik, həm də praktik istifadə imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın neft strategiyasına dair uzaqgörən siyasəti haqqında olan fikirlərini bir daha təsdiqləyir. Belə ki, Xəzər şelfində yataqların birgə işlənməsi haqqında Bakıda Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətlərinin konsorsiumu arasında müqavilənin imzalanması zamanı Ulu Öndər Heydər Əliyevin nitqindən (20 sentyabr 1994-cü il, "Gülüstan" sarayı) bir cümləni diqqətə çatdırmaqla kifayətlənmək olar. Ulu Öndər nitqində demişdir: "Mən bu müqavilənin hazırlanmasında, imzalanmasında iştirak etdiyimə görə özümü çox xoşbəxt hesab edirəm. Üzərimə götürdüyüm məsuliyyəti dərk edirəm və ümidvaram ki, gələcək nəsillər bu gün burada baş verən tarixi hadisəni layiqincə qiymətləndirəcəklər".

*Yekun olaraq qeyd etmək olar ki, "Neft və davamlı inkişaf: Azərbaycanın enerji strategiyası" əsəri Azərbaycan enerji siyasətinin elmi təhlili üçün möhkəm nəzəri və faktoloji baza yaradır və onu "Azərbaycanın müasir neft tarixinin ensiklopediyası" adlandırmaq olar. Kitab yalnız keçmişin xronikasını təqdim etmir, eyni zamanda gələcək enerji strategiyalarının formalaşdırılması üçün konseptual düşüncə məkanı açır. Bu baxımdan əsər Azərbaycan elmi ictimaiyyəti, ali təhsil müəssisələri və enerji sektorunda çalışan mütəxəssislər üçün dəyərli və tövsiyə olunan fundamental nəşr kimi qiymətləndirilə bilər.*

***Arif HƏŞİMOV,***
***akademik***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycanın investisiya coğrafiyası genişlənir

### **Prezident İlham ƏLİYEV:** "Bir çox digər ölkələrin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır"

**Hər bir ölkənin davamlı iqtisadi inkişafı üçün istər yerli, istərsə də xarici investisiyaların qoyuluşu vacib şərtlərdən biridir. Azərbaycan iqtisadiyyatı üçün də sərmayələrin, o cümlədən xarici investisiyaların cəlb olunması əsas prioritetlərdən sayılır. Odur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə münbit investisiya mühiti yaradılıb. Xarici şirkətlərin Azərbaycana sərmayə yatırmaq marağı böyükdür. Lakin Azərbaycan təkcə investisiya yatırılan deyil, həm də sərmayə yönəldən ölkədir.**



Əslində, yaxın keçmişdə xarici investisiyadan asılı olan ölkəmizin özü bu gün xarici dövlətlərdə müxtəlif layihələrə sərmayə yatırır. İndi Azərbaycan artıq borcalan yox, borcverən ölkədir. Maliyyə imkanlarının genişlənməsi, valyuta ehtiyatlarının dəfələrlə artması imkan verir ki, ölkəmiz öz strateji maraqlarının təmin olunması şərti ilə tərəfdaş xarici ölkələrə irihəcmli investisiyalar qoysun. Bu, enerji sektorunda özünü daha qabarıq göstərir.

Keçən ilin iyun ayında Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışında Prezident İlham Əliyevin dediyi kimi: "Bir çox digər ölkələrin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Biz anlayırıq ki, bundan sonra da enerji, neft və qaz bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayacaqdır".

Uzağa getməyək, elə bu günlərdə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) və Ərəb Enerji Fondu ("TAEF") CVC DIF ilə tərəfdaşlıq çərçivəsində, DIF VII fondunun "PAL Cooling Holding" ("PAL") şirkətində 50 faizlik pay əldə etməsi məqsədilə yaradılmış müştərək investisiya strukturuna sərmayə yatırmasını xatırlayaq. Keçən ilin iyununda qlobal özəl bazarlar üzrə aparıcı investisiya meneceri CVC-nin infrastruktur strategiyası olan CVC DIF və "Tabreed" dünyanın aparıcı mərkəzləşdirilmiş soyutma şirkətlərindən birinin - "PAL Cooling Holding"in alınması ilə bağlı razılığa gəlib. Bununla da CVC DIF və "Tabreed" tərəfindən yaradılmış birgə müəssisə vasitəsilə PAL şirkəti yarıbayarı pay bölgüsü əsasında əldə olunub.

ARDNF-nin səlahiyyətlisi bu mühüm layihədə iştirakı fondun Birləşmiş Ərəb Əmirliklərinə və ümumilikdə Körfəz regionuna olan strateji marağının bariz göstəricisi kimi dəyərləndirib: "Mərkəzləşdirilmiş soyutma enerji səmərəliliyinə əsaslanan müasir şəhərsalmanın vacib tərkib hissəsidir və bu investisiya transmilli iqtisadi əməkdaşlığın dərinləşdirilməsi, eləcə də strateji tərəfdaşlıqların qurulması ilə bağlı məqsədlərimizə xidmət edir. Etibarlı tərəfdaşlarla birlikdə regionun daha geniş dayanıqlılıq hədəflərinə töhfə verən konsorsium çərçivəsində Əbu-Dabidə investisiya fəaliyyətimizi genişləndirməkdən məmnunuq".

Bəli, Azərbaycanın sərmayə qoymaq potensialı ildən-ilə artır və buna paralel olaraq investisiya yönəltdiyimiz ölkələrin sayı da çoxalır. Xaricə qoyulan sərmayələr həm ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsinə imkan verən, həm də uzunmüddətli strateji maraqlarını təmin edən danılmaz faktdır. Bu cəhətdən Azərbaycanın investisiyalarına dünyada artan maraq əhəmiyyətli fakt kimi qiymətləndirilməlidir.

Ölkəmizi xaricdə investor kimi təmsil edən ən iri qurumlardan biri SOCAR-dır (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti). Belə ki, SOCAR qısa müddətdə bir sıra xarici ölkədə iş quran qlobal enerji şirkətinə çevrilib.

Azərbaycan bu şirkət vasitəsilə beynəlxalq enerji bazarlarında aktiv fəaliyyət göstərərək xaricdə neft-qaz istehsalı, nəqli və bərpaolunan enerji layihələrinə sərmayə yatırır. Əsas istiqamətlərə Türkiyə, Gürcüstan, Rumıniya və Avropa ölkələri daxildir.

SOCAR-ın ən böyük xarici sərmayələri qardaş Türkiyədədir. Bunlar əsasən STAR Neft Emalı Zavodu, Petkim Neft-Kimya Kompleksi, TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və digərləridir. Həmin layihələrdən tək birinə - STAR-a diqqət yetirək. İzmir şəhərindəki (Əliağa) bu zavod 6,3 milyard dollar investisiya ilə qurulub və Türkiyənin ilk Xüsusi Sənaye Zonası elan edilmiş nəhəng layihədir. Zavod illik 10 milyon ton xam neft emalı gücünə malikdir və əsasən nafta, dizel, aviasiya yanacağı kimi məhsullar istehsal edərək Türkiyənin idxaldan asılılığını azaldır.

SOCAR-ın və Dövlət Neft Fondunun iştirakı ilə reallaşan layihə "Petkim" kompleksi ilə inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərir. Açılışı 2018-ci ilin oktyabr ayında baş tutan bu müəssisənin fəaliyyəti Azərbaycanın Türkiyədəki ən böyük birbaşa sərmayələrindən biri hesab olunur.

Azərbaycanın qonşu Gürcüstanın iqtisadiyyatına yatırdığı sərməyə milyardlarla dollar təşkil edir. Başqa sözlə, Azərbaycan bu ölkənin əsas xarici investorlarından birinə çevrilib. Sərmayələr bir sıra sahələri əhatə etsə də, enerji sektoru önəmli yeri tutur. Ümumiyyətlə isə Gürcüstanda 200-dən çox Azərbaycan şirkəti fəaliyyət göstərir ki, bu da strateji tərəfdaşlığın möhkəmlənməsinə töhfə verir.

Enerji sektoru istiqamətində investisiyalar neft-qaz layihələrinə və infrastrukturuna yönəldilib. Hazırda qonşu ölkədə "SOCAR" brendi ilə onlarca yanacaqdoldurma məntəqəsi (YDM) fəaliyyət göstərir.

Yeri gəlmişkən, SOCAR Rumıniya bazarında da aktiv fəaliyyət göstərir və ölkənin demək olar ki, bütün regionlarını əhatə edən geniş yanacaqdoldurma məntəqələri şəbəkəsinə malikdir. Burada da "SOCAR" brendi altında fəaliyyət göstərən yanacaqdoldurma məntəqələrinin sayı onlarcadır. Həmin stansiyalar Rumıniyanın bir çox şəhərində və əsas magistral yollarında yerləşir. Yanacaqdoldurma məntəqələrində "SOCAR" brendi altında yüksəkkeyfiyyətli yanacaq və bəzi hallarda digər Azərbaycan məhsulları da satışa çıxarılır.

Rumıniyada, eləcə də Avropanın digər ölkələrindəki YDM-lər Azərbaycanın enerji təhlükəsizliyi strategiyasının vacib bir hissəsidir.

Məlumdur ki, indi biz enerji keçidi dövründə yaşayırıq. Azərbaycanın "yaşıl enerji" gündəliyi də artıq bütün dünyaya bəllidir. Şübhə yoxdur ki, ölkəmiz bu enerji növünün istehsalçısı və ixracatçısı olmaqla yanaşı, həm də xaricdə sərmayədarı olacaq. Məsələn, Maldiv Respublikası bu sahədə həyata keçirəcəyi layihər üçün tərəfdaş və investor axtardığını, davamlı enerji həllərinin təşviqində Azərbaycanın ona etibarlı müttəfiq ola biləcəyini bəyan edib.

Deməli, Azərbaycanın xarici sərmayələrinin istiqaməti və əhatə dairəsi getdikcə daha da genişlənəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Qəbələdə tikilən zavodla bağlı görülən işlər müzakirə olunub

**"Gabala Beverage Company" şirkətinin təsisçisi ilə İqtisadiyyat Nazirliyində keçirilən görüşdə biznes təşəbbüsləri, alkoqollu və alkoqolsuz içki zavodunun tikintisi üzrə görülən işlər müzakirə edilib.**



İqtisadiyyat naziri Mikayıl Cabbarov "Gabala Beverage Company" şirkətinin təsisçisi Sezar Çöçelli ilə görüşüb.

Görüşdə şirkətlə əməkdaşlıq məsələləri və biznes təşəbbüsləri müzakirə edilib. Qəbələ rayonu ərazisində alkoqollu və alkoqolsuz içkilərin istehsalı zavodunun tikintisi üzrə görülən işlər barədə fikir mübadiləsi aparılıb. Layihənin rəqabətqabiliyyətli məhsul istehsalı, ixrac imkanlarının genişləndirilməsi və regionlarda məşğulluğun təşviqi baxımından perspektivləri qeyd edilib.

Xatırladaq ki, "Gabala Beverage Company" şirkəti İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu (keçmiş "Azərbaycan İnvestisiya Şirkəti" ASC) və Gürcüstanın "Georgian Beer Company" Ltd şirkəti arasında imzalanan Birgə İştirak Müqaviləsinə əsasən yaradılıb. Qəbələ rayonunda qabaqcıl beynəlxalq texnologiyalara əsaslanan pivə və sərinləşdirici içki zavodu illik 147 milyon litr istehsal gücünə malik olacaq.

## Azərbaycan Milli Hidrogen Strategiyasının tətbiqinə dair İşçi qrupun iclası keçirilib

**Energetika Nazirliyində Azərbaycan Milli Hidrogen Strategiyasının tətbiqinə dair İşçi qrupun və "DNV Energy Systems Germany GmbH" şirkətinin nümayəndələrinin iştirakı ilə iclas keçirilib.**



Energetika Nazirliyindən bildirilib ki, nazir müavini Elnur Soltanov Azərbaycanda hidrogen istehsalı üçün əhəmiyyətli potensialın olduğunu vurğulayıb. Onun sözlərinə görə, "Azərbaycan Milli Hidrogen Strategiyasının və onun Tətbiqi Planının Hazırlanması" layihəsinin birinci mərhələsi çərçivəsində "Hidrogen üzrə Milli Strateji Baxış" sənədi Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) texniki dəstəyi ilə hazırlanaraq COP29 konfransı zamanı təqdim edilib. Layihənin ikinci mərhələsinin icrasına başlanılması məqsədilə Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) dəstəyi ilə keçirilmiş tenderin nəticələrinə əsasən, "DNV Energy Systems Germany GmbH" şirkətinin qalib elan edildiyi, layihənin tətbiqi planının isə cari ilin birinci yarısında hazır olmasının nəzərdə tutulduğu qeyd olunub. İclas zamanı "DNV Energy Systems Germany GmbH" şirkətinin nümayəndəsi İlka Levinqton Azərbaycanın Milli Hidrogen Strategiyasının tətbiqi ilə bağlı təqdimatla çıxış edib. Azərbaycanda hidrogen istehsalı ilə bağlı hüquqi və digər aspektlərdə müzakirələr aparılıb. Növbəti mərhələ üzrə prioritet istiqamətlər müəyyən edilib, İşçi qrupu qarşısında konkret hədəflər və icrası nəzərdə tutulan tapşırıqlar üzrə razılıq əldə olunub.

### "Şəhərsalma və Memarlıq İli"

## Qobustan qayaları - ilk memarlıq nümunəmiz

**Azərbaycanın qədim memarlığı daşın yaddaşa çevrildiyi, məkanın mənaya büründüyü bir tarixdir. Həmin memarlıq insanın torpaqla, səma ilə və zamanla dialoqundan doğub. Onun ilkin izləri sarayların möhtəşəmliyində deyil, təbiətin qoynunda yaranan sadə, lakin dərin məna daşıyan formalarında əks olunub.**

Bu mənada Qobustanın sükutunda oxuduğumuz tarix, əslində, Azərbaycan memarlığının ən qədim başlanğıcıdır və minilliklər boyu daşın yaddaşında yaşayıb. Zaman keçsə də, daş unutmadı və Qobustan bu yaddaşın ən dolğun məkanına çevrildi. Daş qayalar insanın yaddaşını, rəsmlər isə onun dünyaya baxışını əks etdirdi.

Qobustan Böyük Qafqaz dağlarının qurtaracağında, Bakının 65 kilometrliyində yerləşən dağlıq məkandır. Torpaq gillidir və asanlıqla erroziyaya məruz qaldığı üçün burada çoxlu xəndəklər, arxlar və təbii qobular əmələ gəlib. Elə buna görə də bu ərazi "Qobustan", yəni "qobu-yer" adı ilə tanınıb. Əslində, Qobustan adının mənası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Ən çox qəbul edilən izaha görə, bu ad ərazinin coğrafi xüsusiyyətləri ilə bağlıdır. Qobustan adının mənşəyi ilə bağlı başqa versiyalar da mövcuddur. Onlardan birinə görə, sözün ilkin forması "Gavistan" olmuş və "öküzlər diyarı" mənasını ifadə etmişdir ki, bu da ərazidə vaxtilə çoxlu çöl öküzünün yaşaması ilə əlaqələndirilir. Digər versiyaya görə isə ərazi "Kəbristan" adlanmış, burada oda sitayiş edən atəşpərəstlərin yaşadığı düşünülmüşdür. Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə 1966-cı ildə Qobustan Böyükdaş, Kiçikdaş, Cingirdağ və Yazılıtəpə əraziləri dövlət qoruğu elan edilib. Qoruq 4500 hektarlıq sahəni əhatə edir və burada 6 mindən artıq qayaüstü rəsm, müxtəlif fondlarda 100 mindən çox arxeoloji material saxlanılır. Ərazidə arxeoloqlar tərəfindən 20 sığınacaq, 40-a yaxın kurqan aşkar olunub. Bunların hər biri keçmişin səssiz şahididir.

Böyükdaş, Kiçikdaş, Cingirdağ, Şonqar və Şıxqaya dağları üzərindəki 1000-dən artıq qaya və 7000-dən çox təsvir dünya miqyasında əhəmiyyətli abidələr kimi qorunur. Hər bir fiqur, hər bir işarə 20 min il boyunca bu torpaqlarda yaşamış insanların dünyagörüşünü, inancını və gündəlik həyatını danışır. İnsan və heyvan təsvirləri, qayıqlar, abstrakt işarələr yalnız qədim icmaların həyatından xəbər vermir, onlar minillik sükutdan yol alıb bu günə gəlmiş bir dialoqdur. Oyma, sürtmə, çapma və cızma üsulları ilə yaradılmış bu təsvirlər həm də musiqi və rəqs ənənələrinə işarə edir. Qavaldaş kimi qədim musiqi aləti və qayalarda təsvir olunan "Yallı" səhnələri, min illər əvvəl yaşamış insanların ruhi aləmini, incəsənət sevgisini və birgə yaşayış ənənəsini gözümüzün önünə gətirir. Görkəmli Norveç səyyahı Tur Heyerdal Qobustanda olarkən qayaüstü rəsmləri yüksək qiymətləndirib.

Qobustanın qaya yaddaşı 1947-ci ildən etibarən "danışmağa" başlayıb. Azərbaycan alimi İsaq Cəfərzadənin ilk dəfə üzə çıxardığı bu daş salnamə min illər öncə yaşamış insanların düşüncəsini və duyğularını bu günə daşıyır. Qayaların üzərində insan və heyvan fiqurları, sirli işarələr və damğalar həkk olunub. Burada yağış suyunun və qurban kəsilən heyvanların qanının toplandığı çuxurlar, yəni daş qablar insanın inanc dünyasından xəbər verir. Qaya rəsmlərində qadın və kişi fiqurları həyatın özünü təcəssüm etdirir. Vəhşi öküzlər, keçilər, marallar, ceyranlar, aslan və şir təsvirləri isə təbiətin gücünü və əzəmətini göz önünə gətirir. Heyvanların bəziləri elə bir dəqiqliklə işlənib ki, sanki öz təbii böyüklüyündə qayadan çıxıb canlanır. Qazma üsulu ilə çəkilmiş saysız-hesabsız qayıq təsvirləri qədim insanın suyla, yol və zamanla münasibətini simvolizə edir.



Qayalar üzərində silahlı və silahsız insanların oturduğu qayıqların burnunda günəş təsviri yer alır - sanki hər səfər işığa doğru atılan addımdır. Ayrı-ayrı daşlarda balıq, ilan, kərtənkələ, büvə rəsmləri, qapı tağbəndləri, ikitəkərli arabalar və insan ayağının ləpirləri görünür. Bütün bu təsvirlər Qobustanı daş üzərində yazılmış canlı bir həyat dastanı kimi təqdim edir. Təbii ki, bu qayaüstü rəsmlər, sadəcə, ov səhnələri və məişət təsvirləri deyil. Onlar insanın yaşadığı məkanı dərk etmək, onu işarələmək və yaddaşa çevirmək cəhdidir. Qaya burada divar rolunu oynayır, təsvir isə ilkin memarlıq kimi çıxış edir. İnsan hələ tikinti texnologiyasına sahib deyildi, amma məkan anlayışı, nizam və funksionallıq barədə instinktiv düşüncəyə malik idi. Hər bir rəsmin yerləşdirilməsi, qayaların seçimi və açıq səthlərdəki kompozisiya ilk memarlıq planlaşdırmasının göstəricisidir. Bu baxımdan Qobustan memarlığın maddi formaya keçməsindən əvvəlki düşüncə mərhələsini əks etdirir.

Qobustanın daş səthlərində qədim insanların musiqi və ritm anlayışı da öz izini qoyub. Qavaldaş adlanan bu nəhəng daş alət o dövr insanının musiqiyə və birgə yaşam ritminə olan sevgisini göstərir. Onun səsi, ritmi qaya rəsmləri ilə birləşərək, qədim icmaların mərasimlərini, bayramlarını və "Yallı" rəqsini gözümüzün önünə gətirir. Qavaldaşı həm də insanın məkanı və təbiəti necə dərk etdiyini, ritm və hərəkətlə həyatını necə nizamladığını göstərən ilk memarlıq instinktinin bir parçası kimi qiymətləndirmək olar. Məkan təkcə daş və divarlardan ibarət olmayıb, burada səs və ritm də mühüm funksional və simvolik rol oynayıb.

Qobustandakı qayaların təsadüfi olmaması da diqqət çəkir. Açıq məkanlar, günəş işığı alan səthlər və insanların toplaşması üçün əlverişli yerlər ilkin planlaşdırma anlayışından xəbər verir. Bu, sadəcə, rəsmlərin toplusu deyil, insanın öz mühitini dərk edərək ona iz qoymaq istəyinin nəticəsidir. Məhz bu izlər sonrakı dövrlərdə formalaşacaq memarlıq təfəkkürünün əsasını təşkil edir. Zaman keçdikcə insanın məkanla münasibəti dəyişir, instinktiv ifadə yerini sistemli quruluşa verir. Qaya üzərindəki təsvirlər divara, açıq məkan isə qapalı məkana çevrilir. Bu keçid Azərbaycan ərazisində artıq Qafqaz Albaniyası dövrünün məbədlərində aydın şəkildə görünür.

"Qobustan" Dövlət Tarix-Bədii Qoruğu ("Qobustan Qaya Sənəti Mədəni Landşaftı") 2006-cı ildə "milli" status alıb. 2007-ci ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Mingəçevir: ötən ili uğurla, yeni ilə ümidlə

**Mingəçevirdə ötən ilin sosial-iqtisadi yekunlarına və bu il qarşıda duran vəzifələrə həsr olunan yığıncaq keçirilmişdir. Tədbir öncəsi Heydər Əliyevin abidəsi ziyarət olunmuş, Ulu Öndərin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.**



Yığıncaqda geniş məruzə ilə çıxış edən şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov qeyd edib ki, 2025-ci il Azərbaycan iqtisadiyyatı üçün təkcə statistik göstəricilərlə ölçülən bir dövr deyil, eyni zamanda keyfiyyətcə yeni inkişaf mərhələsinə keçidin başlanğıcı kimi tarixə düşüb. Məruzəçi Mingəçevirdə həyata keçirilən layihələrdən söz açaraq bildirib ki, ötən il şəhərin sənaye müəssisələrində 413,6 milyon manatlıq məhsul istehsal olunmuşdur və bu, 2024-cü illə müqayisədə 89,9 milyon manat çoxdur. Həyata keçirilən tikinti-quruculuq işlərindən, yerli gəlirlərdən və yerli xərclərdən, müəssisələrdə aparılan modernləşmə və əsaslı yenidənqurma işlərindən, sənaye müəssisələrindəki məhsul istehsalından söz açan İ.İsmayılov mövcud nöqsan və çatışmazlıqları, problemləri də diqqətə çatdırıb, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin bəzilərinin cari və əsaslı təmirə ehtiyacı olduğunu bildirib.

Məruzədə vətəndaşlarla keçirilən səyyar görüşlərdən və qəbullardan, Prezidentin tapşırığı ilə şəhid ailələrinə, qazilərə, onların övladlarına göstərilən diqqət və qayğıdan da söz açılıb.

Əsasən şəhərin kommunal xidmət müəssisələrinin fəaliyyətinə toxunan məruzəçi il ərzində icra olunan əsaslı təmir və quruculuq işlərindən danışıb. Məhəllələrin abadlaşdırılması, vətəndaşların istirahəti və rifah halının yaxşılaşdırılması məqsədilə reallaşan layihələrdən, yaşayış binalarının ümumi istifadə sahələrinin təmir olunmasından, yaradılan nümunəvi məhəllələrdən, uşaq və gənclər üçün idman və əyləncə qurğularının yerləşdirilməsindən, idman meydançalarının salınmasından, müasir kanalizasiya xəttinin çəkilməsindən, işıqlandırma sisteminin yenidən qurulmasından, küçələrin asfalt örtüyü və tamet plitələrlə döşənməsindən və digər işlərdən danışan ŞİH başçısı bu işlərin cari ildə də davam etdirildiyini bildirib.

Ötən il iyun ayının 24-də Prezident İlham Əliyevin Mingəçevirə səfərindən, "Azərbaycan İES" MMC-nin ərazisində 1880 meqavat gücündə yeni elektrik stansiyasının istifadəyə verilməsini xatırladan İlham İsmayılov bunun Prezidentin şəhərə göstərdiyi diqqət olduğunu vurğulayıb.

Məruzə ətrafında "Azərbaycan İES" MMC-nin direktoru Təhmasib Hüseynov, Sukanal İdarəsinin rəisi Elmar Əhmədov, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Yevlax Regional İdarəsinin müdir əvəzi Elvin Zakirov, şəhər Mərkəzi Xəstəxanası PHŞ-nin direktoru Ülfət Qurbanov, Mənzil Təsərrüfatı İstehsalat Birliyinin rəisi Şəhriyar Mustafayev, Mingəçevir bələdiyyəsinin sədri Anar İsmayılov rəhbərlik etdikləri qurumların fəaliyyətindən və problemlərdən, cari ildə görüləcək işlərdən bəhs ediblər.

Prezident Administrasiyasının sektor müdiri Vəfadar Bağırov və Milli Məclisin deputatı Aydın Mirzəzadə ölkəmizin tərəqqisindən, uğurlarından, beynəlxalq aləmdə qazandığı nüfuzdan və regionlara göstərdiyi diqqətdən söz açıblar.

Sonra ictimaiyyət nümayəndələrinin sualları cavablandırılıb, şəhər ictimaiyyəti adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlanıb.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Keçən il 53 ölkənin 17 mindən çox vətəndaşı müalicə üçün Naftalanı seçmişdir

**Bu gün ölkəmizin sağlamlıq turizm məkanı olan Naftalanda beynəlxalq standartlara cavab verən 20 hotel və müalicə sağlamlıq mərkəzi fəaliyyət göstərir. Turizm obyektləri gün ərzində 4000-dən çox qonağa xidmət etmək imkanına malikdir.**



Bu mərkəzlərdən biri - "Kurort Naftalan" sağlamlıq mərkəzi keçən il əsaslı təmir olunmuş, müasir avadanlıqlarla təchiz edilmişdir. Hotel və müalicə mərkəzlərinin sayının artması əhalinin müalicə müəssisələrinə əlçatanlığının artmasına, belə müəssisələr arasında rəqabət qabiliyyətinin güclənməsinə, qiymətlərin münasib olmasına və ən əsası, turist məmnunluğuna xidmət edir.

Bu fikirlər Naftalanın 2025-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş ümumşəhər yığıncağında da səslənmişdir. Hesabat məruzəsi ilə çıxış edən şəhər icra hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Arzu Məmmədov bildirmişdir ki, ötən il ərzində şəhər üzrə ümumi məhsul buraxılışının dəyəri 24 milyon 468,1 min manata çatmışdır. Ümumi məhsul buraxılışında istehsal sahələrinin xüsusi çəkisi 46,6, xidmət sahələrininki 53,6 faiz olmuşdur.

Məruzədən məlum oldu ki, keçən il Naftalan şəhərində 30 yeni iş yeri açılmışdır. Yeni açılmış iş yerlərindən 21-i yeni yaradılmış müəssisə və təşkilatların payına düşmüşdür. Bundan başqa, il ərzində 27 nəfərin özünüməşğulluqla bağlı müraciəti qeydə alınmış, ondan 7 müraciət təmin edilmişdir. Keçirilən əmək yarmarkasında 100-dən artıq vakansiya təqdim edilmiş və elektron qeydiyyatdan keçmiş 76 nəfərdən 8-i müvafiq işlə təmin olunmuşdur.

Həssas əhali qrupunun sosial müdafiəsinin gücləndirilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər də diqqətdə saxlanılmışdır. Şəhid ailələri və qazilər şəhər icra hakimiyyəti tərəfindən mütəmadi olaraq ziyarət olunmuş, qaldırdıqları problemlərin icrası istiqamətində lazımi tədbirlər görülmüş, həmçinin onlara maddi yardım göstərilmişdir. Şəhid ailəsinə və Vətən müharibəsi əlilinə sahibkarlıq məqsədilə torpaq sahəsi ayrılmışdır.

Şəhər sakinlərinin mənzil-kommunal şəraitinin yaxşılaşdırılması istiqamətində də tədbirlər görülmüşdür. Şəhərin park və küçələrinin, çoxmənzilli yaşayış binalarının girişlərinin işıqlandırılması təmin edilmiş, 204 hektardan çox yaşıllıq sahəsinə mütəmadi aqrotexniki qulluq göstərilmiş, yaşıllıq sahələrində 5000-dən çox müxtəlif növ ağac və gül kolları əkilmişdir. Şəhərin təmizliyi, məişət tullantılarının idarə olunması təmin edilmişdir.

Ölkəmizin hər yerində olduğu kimi, Naftalanda da yol infrastrukturunun yenilənməsi üzrə tədbirlər genişləndirilmişdir. Hesabat ili ərzində şəhərin Heydər prospekti və küçələrinə yeni asfalt döşənmişdir.

Məlumdur ki, qeyri-neft sektorunun əsas sahələrindən olan turizm bir çox bölgənin, o cümlədən müalicəvi nefti ilə məşhur olan Naftalan şəhərinin iqtisadiyyatının əsasını təşkil edir. İl ərzində Naftalan şəhərinə 44,5 min nəfər turist səfər etmişdir ki, onlardan da 17,8 min nəfəri dünyanın 53 ölkəsindən olan vətəndaşlardır. Naftalana daha çox Rusiya Federasiyasından, Özbəkistan və Qazağıstandan turistlər gəlmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

**Mütəxəssis rəyi**

## *Müasir əkinçilikdə aqrokimya:* reallıqlar, problemlər

**Hazırda təsərrüfatların əhəmiyyətli bir hissəsi yalnız torpaqların təbii münbitliyindən istifadə etməyə, onun səfərbər olunması üçün aqrotexniki tədbirlərə və alaq otlarına qarşı mübarizəyə minimum xərclər sərf etməklə əkinçiliyin ekstensiv üsullarına müraciət edirlər. Belə təsərrüfatlarda adətən üçtarlalı növbəli əkin dövriyyəsi, çox vaxt isə ikitarlalı əkin dövriyyəsi tətbiq olunur. Şübhəsiz ki, bu, çıxılmaz yoldur və torpaqda sürətlə qida maddələrinin azalmasına, nəticə etibarilə isə məhsuldarlığın azalmasına gətirib çıxarır.**

Bu baxımdan yalnız tarla bitkilərinin intensiv becərilmə texnologiyası hər bir torpaq-iqlim zonasının təbii resurs potensialını əhəmiyyətli dərəcədə reallaşdırmağa imkan verir. Belə texnologiya torpağın münbitliyini qorumaqla yanaşı, bitkilərin və sortların, eləcə də kompleks kimyalaşdırma və mexanikləşdirmə vasitələrinin imkanlarından maksimum istifadə etməyə şərait yaradır. Bu əkinçilik sistemi yüksək texnoloji üsullar, gübrələrin müntəzəm tətbiqi, bitkilərin inteqrir mühafizə üsulları, intensiv sortların istifadəsi və resursqoruyucu tədbirlər hesabına növbəli əkin dövriyyəsi sahəsinin hər hektarından planlaşdırılmış məhsul səviyyəsinin sabit toplanmasını təmin edə bilir. Lakin intensiv texnologiyalar kompleksinin mənimsənilməsi yalnız böyükhəcmli investisiya qoyuluşları (mütəxəssis kadrların hazırlanması, müasir texnologiyalardan, yeni intensiv və məhsuldar yüksək reproduksiyalı keyfiyyətli toxumlardan istifadə, sənaye və yerli gübrələr, meliorasiya və bitki mühafizə vasitələri) hesabına mümkündür.

Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının formalaşmasının əsas amilləri torpağın aqrokimyəvi xüsusiyyətləridir. Torpaqda humusun miqdarı, turşuluq dərəcəsi, makro və mikroelementlərin ümumi miqdarı ilk növbədə potensial münbitliyi, mineral azot, fosfor, kalium və digər elementlərin hərəkətli formalarının miqdarı isə effektiv münbitliyi xarakterizə edir.

Aqrosenozlarda bitkilərin azotla qidalanmasının əsas mənbəyi torpaq azotudur. Azot gübrələrinin çox cüzi miqdarda tətbiq olunması ilə əlaqədar yaxın perspektivdə onun rolu kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının formalaşmasında həlledici olaraq qalır. Tarla bitkilərinin azotla qidalanmasının optimallaşdırılması məqsədilə bu element birləşmələrinin minerallaşması intensivliyinin tənzimlənməsi ən səmərəli şəkildə bitkilərin seçilməsi və növbələşdirilməsi, torpağın əsas becərmə üsul və müddətləri, həmçinin yaşıl gübrələrin tətbiqi vasitəsilə həyata keçirilir.

Ümumiyyətlə, müasir aqrokimyanın strategiyası kənd təsərrüfatı bitkilərinin qida maddələri ilə təmin olunması və torpaq münbitliyinin qorunub saxlanması və qorunmasından ibarətdir. Bu isə effektiv münbitlikdən kompleks istifadə, mineral, üzvi və bakterial gübrələrin yerli aqroresurslarla uzlaşdırılmış şəkildə tətbiqi əsasında həyata keçirilməlidir.

Torpaq münbitliyinin qorunması və dəstəklənməsinə, tarla bitkilərinin mineral qida elementləri ilə təmin edilməsinə yönəlmiş aqrokimyəvi yanaşmaların təkmilləşdirilməsi və təcrübədə reallaşdırılması yalnız təşkilati, aqrotexniki və aqrokimyəvi tədbirlər kompleksinin sistemli şəkildə yerinə yetirilməsi ilə mümkün olur. Təşkilati tədbirlər içərisində ilk növbədə torpaq münbitliyinin istifadəsi, qorunması və dəstəklənməsinin əsas yanaşmalarını tənzimləyən qanunvericilik aktları və müddəalar hazırlanmalıdır. Bu qanun və müddəaların icraedici və ya tövsiyə xarakterindən asılı olmayaraq, onların bütün səviyyələrdə (regional, fermer və bələdiyyə) maliyyə-investisiya dəstəyi dövlət subyektləri tərəfindən təmin edilməli və ciddi şəkildə yerinə yetirilməlidir.

Torpaqdan istifadə üzrə optimal strukturlara dair elmi əsaslı tövsiyələr, landşaft-zonal əkinçilik sistemləri, gübrə tətbiqi sistemləri və bitkilərin qidalanmasının optimallaşdırılması hər bir təsərrüfatda bitkiçilik layihələrinin hazırlanmasının əsasını təşkil edir. Əkinçilik sisteminin intensivlik səviyyəsinə uyğun istiqamətinin seçimi təsərrüfatın iqtisadi imkanlarına dəqiq uyğun olmalıdır. Bir fəaliyyət kateqoriyasından digərinə (ekstensiv-intensiv-yüksəkintensiv) keçid təsərrüfatların gəlirliyinin artması ilə tədricən, elmi zonal-landşaft tövsiyələrinə əsaslanaraq hazırlanmış biznes-plan üzrə həyata keçirilməlidir. Təbii şəraitin, torpaqlardakı qida maddələrinin rejiminin spesifik xüsusiyyətlərinin, yerli şərtlərdə sınaqdan keçirilmiş əkin dövriyyələrinin və bitkilərin becərilməsi aqrotexnologiyalarının nəzərə alınmaması əlavə xərclərə, bitkilərin qidalanmasının pozulmasına, gözlənilən gəlirin itirilməsinə və mənfi ekoloji nəticələrə səbəb ola bilər.



Aqrotexniki üsullar torpağın effektiv münbitliyinin yüksək səviyyədə saxlanmasına və keyfiyyətli kənd təsərrüfatı bitkilərinin sabit məhsuldarlığının əldə edilməsinə yönəlmiş tədbirlər kompleksini əhatə edir. Torpağın münbitliyinin itirilməsi və bitkilərin məhsuldarlığının azalmasının əsas səbəbi bu kompleksin və tarla bitkilərinin becərilməsi, payızlıq sahələrin hazırlanması üzrə ayrı-ayrı aqrotexnologiyaların yerinə yetirilməməsidir. Əkinçilik fəaliyyətinin təhlili göstərir ki, mülkiyyət və təşkilati forma fərqi olmadan bu gün zəruri aqrotexniki üsulların təxminən 50-70 faizi icra edilmir. Ona görə də hər bir təsərrüfat üçün elmi əsaslı aqrotexnologiya layihələri (yol xəritələri) hazırlanmalı və onlara ciddi şəkildə riayət olunmalıdır. Bu layihələrin mənimsənilməsi üzrə təlimlər isə mütəxəssislərin və təsərrüfat rəhbərlərinin, həmçinin rayon səviyyəsində mütəxəssislərin yenidən hazırlanması zamanı həyata keçirilməlidir.

Əkin sahələrinin münbitliyinin qorunmasında sahələrin optimal strukturunun seçilməsi mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, becərilən bitkilərin yüksək məhsuldar növlərindən az istifadə olunur. Bu bitkilərin əkildiyi torpaqlarda, adətən, üzvi maddələrin cari huminifikasiyası və minerallaşması üçün nisbi olaraq əlverişsiz şərait formalaşır.

Torpağın münbitliyinin qorunmasında çoxillik paxlalı bitkilər (yonca, xaşa, xəşəmbül, çəpiş otu) və taxıl otları mühüm rol oynayır. Onların təmiz halda və ya ot qarışıqları şəklində səpini torpaqda əhəmiyyətli miqdarda üzvi maddə və azotun fiksasiyası vasitəsilə toplanmasına imkan verir. Əkin dövriyyəsinin tətbiqi, bitkilərin seçimi və növbələşdirilməsinin təmin edilməsi torpaq münbitliyinin səviyyəsini artırmasa da, ən azı onu saxlamağa imkan yaradır. Tarla bitkilərinin qidalanmasının optimallaşdırılmasında səmərəli vasitə isə alaq otları ilə mübarizə tədbirləridir. Çünki alaq otları mədəni bitkilərdən 2-2,5 dəfə fəal şəkildə torpaqdan və verilmiş gübrələrdən nəmlik və qida elementlərini mənimsəyir.

Əkinçilikdə mineral qida elementlərinin balansının təhlili onların dərin çatışmazlığını göstərir. Çünki məhsulla birlikdə çıxarılan elementlərin yalnız 9-10%-i kompensasiya olunur. Torpaqdan illik uzunmüddətli elementin çıxarılması əkinaltı torpaqların effektiv münbitliyinin sistematik azalmasına gətirib çıxarır. Bunun qaçılmaz nəticəsi kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının davamlı olaraq yavaş-yavaş azalmasıdır.

Stasionar təcrübələr göstərir ki, uzunmüddətli tətbiq zamanı üzvi və mineral gübrələr ən effektivdir. Bu halda 1 kq təsiredici maddə 10-12 kq dən məhsulu ilə geri ödənilə bilər. Həmin zaman torpaqda humusun kəmiyyət və keyfiyyət parametrləri sabitləşir, azot, fosfor və kaliumun əlçatan birləşmələrinin yüksək səviyyəsi qorunur.

Mineral gübrələrlə yanaşı, ənənəvi üzvi gübrələr (döşənəkli və maye qaramal peyini, quş zılı, kompost və s.) də torpağın münbitliyinin artırılmasında mühüm amildir. Yaxın perspektivdə ənənəvi və hələ tam istifadə olunmamış mənbələrdən qida elementlərinin ümumi girişi olduqca çox ola bilər. Şübhəsiz ki, bu mineral qida elementləri ehtiyatlarının uğurla istifadə olunması üçün müvafiq investisiya qoyuluşları, onların hazırlanması, saxlanması, daşınması və torpağa verilməsi üzrə texnoloji intizam zəruridir.

Əkinçilik üçün böyük perspektiv yaşıl (sideral) gübrələrdədir. Tədqiqatlar göstərir ki, xəşəmbül, raps, payızlıq çovdar, birillik paxlalı bitkiləri payızda əkdikdə əmələ gələn 10-20 t/ha yaşıl kütlə şumlandıqda yalnız humus deyil, həm də azot (100-200 kq/ha), fosfor (35-70 kq/ha) və kalium (85-170 kq/ha) ehtiyatlarını doldurmaq və saxlamaq imkanı verir. Bu, siderat biokütləsinin miqdarı həm tətbiq zamanı, həm də sonrakı illərdə hektara məhsul istehsalını 15-20% artırmağa imkan yaradır. İyul ayında şumlandıqda payızlıq sahənin keyfiyyəti (alaq otlarının azalması, nitrat azotunun toplanması və rütubətin qorunması) adətən pisləşmir. Yaşıl gübrələr ən az enerji tələb edən gübrələrdir. Eyni zamanda torpağın aqrokimyəvi, su-fiziki və bioloji xüsusiyyətləri yaxşılaşır, eroziyaya qarşı davamlılığı artır.

Aqrosenozlarda azot balansının qorunmasında əsas mənbələrdən biri atmosfer azotunun bioloji fiksasiyasıdır. Torpaqlarda azot fiksasiyasının müxtəlif formaları arasında əkinçilik üçün ən əhəmiyyətli olanlar simbiotik və qeyri-simbiotik (xüsusilə assosiativ) azotfiksasiya sistemləridir. Aparılmış tədqiqatlara görə, birillik və çoxillik paxlalı bitkilər kökyumrucuq bakteriyalarla simbiozda 50-350 kq/ha atmosfer azotu fiksasiya edir ki, bu da yalnız paxlalı bitkilərin məhsuldarlığını deyil, həm də sonrakı bitkilərin məhsuldarlığını təmin etmək üçün kifayətdir. Aqrosenozlarda bioloji azotun digər əhəmiyyətli mənbəyi assosiativ azotfiksasiyadır, bu proses demək olar ki, bütün sahə bitkilərinin rizosferasında baş verir və taxıl, texniki və yem bitkilərinin sahələrində mövsüm ərzində 30-110 kq/ha azot fiksasiya olunur.

Torpağın münbitliyinin yaxşılaşdırılması və bitkilərin qida elementləri ilə təmin edilməsi üçün təsirli vasitə kimi təbii aqrokimyəvi xammal ehtiyatlarından da istifadə oluna bilər. Elmi tədqiqatların və istehsalat təcrübələrinin nəticələri göstərir ki, torf, torf-peyin, torf-maye, torf-quş zılı gübrəsi kompostları və üzvi-mineral gübrələr yüksək effektivliyə malikdir. Bu gübrələr kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını 30-50 faiz artırmaq qabiliyyətinə malikdir.

Perspektivli üzvi-mineral gübrə resurslarına həmçinin sapropel - şirin su hövzələrinin lilli çökmə təbəqələri daxil edilir. Sapropel üzvi maddələr, makroelementlər və bir çox mikroelementlərlə zəngindir. Eyni zamanda yüksək kalsium tərkibli sapropellər (30-50 faiz) meliorativ xüsusiyyətlərə malikdir və turş torpaqlarda fəal şəkildə tətbiq oluna bilər.

Hazırda bütün dünyada torpağın effektiv münbitlik potensialından istifadə etməyə əsaslanan yanaşma tükənmiş istiqamət hesab olunur. Torpağın münbitliyinin qorunması və saxlanması, eləcə də kənd təsərrüfatı bitkilərinin qida elementləri ilə təminatının optimallaşdırılması üçün ölkəmizdə milli proqramın qəbul edilməsi tələb olunur. Bu proqramın regional komponenti sənaye gübrələrinin tətbiqi perspektivlərini, yerli üzvi gübrələrin istehsal və tətbiq bazasının inkişafını, təbii aqroresursların gübrə və meliorant kimi işlənməsini, sənaye və kommunal tullantıların istifadəsini, gübrə tətbiqi üçün kənd təsərrüfatı texnikası və avadanlıqlar parkının yenilənməsini, aqrokimya elmi və aqrokimyəvi xidmətin qorunmasını, aqrokimya üzrə kadr hazırlığını nəzərdə tutmalıdır. Həmin məsələlər həll edilmədən torpağın münbitliyini qoruyaraq və torpaqdan çıxarılan qida elementlərinin balansını optimallaşdıraraq yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsullarının kifayət qədər və dayanıqlı istehsalına nail olmaq mümkün deyil.

***Həsənalı ASLANOV,***
***Azərbaycan Dövlət Aqrar Universitetinin Torpaqşünaslıq və aqrokimya kafedrasının müdiri, aqrar elmlər doktoru, professor***



# Mədəniyyət



"Azərbaycan Mədəniyyəti -2040"

# Konsepsiya böyük tarixi əhəmiyyətə malik proqramdır

**Azərbaycan dünyada nümunəvi inkişaf modelinə malik olan tanınmış ölkədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu hərtərəfli inkişaf zamanın mövcud reallıqlarına və çağırışlarına cavab verir. Dövlət başçısının diqqət və qayğısı sayəsində başqa sahələrlə yanaşı, mədəniyyət sahəsindəki tərəqqi də hər addımda özünü göstərir.**

Mədəniyyətimiz, incəsənətimiz və ədəbiyyatımız zamanın ritminə uyğun inkişaf edir. Mədəniyyətin inkişafı, çiçəklənməsi isə xalqın uğurlu gələcəyi, işıqlı sabahı deməkdir, incəsənət, ədəbiyyat, ana dili hər bir xalqın milli kimliyidir, onun dünənidir, bu günüdür, sabahıdır. O üzdən zəngin tarixi ənənələrimiz, ulu keçmişimiz, milli-mənəvi dəyərlərimiz, mədəni irsimiz zaman-zaman qorunaraq nəsildən-nəslə ötürülüb.

Həm keçmiş sovet hakimiyyəti zamanında, həm də müstəqillik dövründə respublikamıza rəhbərlik etmiş böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanın gələcəyini düşünərək mədəniyyətin inkişafına böyük diqqət və qayğı göstərmiş, insanların özünüdərk hissini gücləndirmiş, xalqı azadlığa, müstəqilliyə qovuşduracaq milli ideya formalaşdırmışdır.

Ümummilli Lider Heydər Əliyevin illər əvvəl əsasını qoyduğu milli mədəniyyətə qayğı siyasətini Prezident İlham Əliyev 22 ildən çoxdur ki, layiqincə və uğurla davam etdirir. Dövlətimizin başçısı tərəfindən başqa sahələrlə yanaşı, mədəniyyətimizin inkişafı istiqamətində də mühüm addımlar atılır. Buna görə də ötən illər ərzində Azərbaycanda mədəniyyət sahəsində böyük və əhəmiyyətli işlər görülmüş, uğurlara hesablanmış irimiqyaslı layihələr həyata keçirilmişdir.

Xəbər verildiyi kimi, mədəniyyətimizin inkişafına daim dəstək verən Prezident İlham Əliyev 14 yanvar 2026-cı il tarixli sərəncamı ilə "Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasını təsdiq edib. Dövlət başçısının təsdiq etdiyi Azərbaycan Respublikasının Mədəniyyət konsepsiyasında yaxın gələcək üçün inkişaf istiqamətləri müəyyənləşdirilib. Proqram xarakteri daşıyan bu konsepsiya milli-mədəni irsimizin qorunması və yaşadılması ilə yanaşı, mədəniyyət və incəsənət sahəsinin müasir tələblərə uyğun inkişafını da təmin etməyə hədəflənib.



Konsepsiyada mədəniyyətin, incəsənətin və ədəbiyyatın insanların estetik zövqünün formalaşmasındakı əvəzsiz rolu mühüm amil kimi təqdim olunur. Sənəddə mədəniyyət müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə idarəetmə mexanizmlərinin daha səmərəli formada qurulması, eləcə də beynəlxalq mədəni əməkdaşlığın genişləndirilməsi, dərinləşdirilməsi və Azərbaycan incəsənətinin dünya mədəni məkanında daha çevik təmsil olunması əsas məqsədlərindən biri kimi qeyd olunub.

"Azərbaycan Mədəniyyəti - 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası milli irsin qorunması ilə müasir inkişaf prosesləri arasında strateji körpü rolunu oynayır. Sənəd milli irsin elmi əsaslarla qorunması, yaradıcı şəkildə inkişaf etdirilməsi, gələcək nəsillərə ötürülməsi və mədəniyyətin beynəlxalq miqyasda təbliği kimi mühüm məsələləri özündə əks etdirir.

Konsepsiyanın mədəni irsin qorunması və inkişafı bölməsində xüsusi olaraq qeyd olunur ki, Azərbaycan mədəni irsi Azərbaycan mədəniyyətinin tərkib hissəsidir. Mədəni irs cəmiyyətin keçmişinə aid dəyərləri özündə ehtiva etməklə yanaşı, onların gələcək nəsillərə ötürülməsi üçün də əsas vasitə rolunu oynayır.

Sənəddə həmçinin mədəni irsin qorunmasının təkmilləşdirilməsi məsələsi öz əksini tapıb, mədəni irsin qorunmasının təkmilləşdirilməsi məqsədilə davamlı və sistemli fəaliyyətin həyata keçirilməsi, həmçinin beynəlxalq mədəni mübadilədə iştirakın genişləndirilməsi istiqamətində tədbirlər görülməsi zərurəti qeyd edilib.

Mədəniyyətimizin gələcək inkişafını müəyyənləşdirən sənəddə görüləcək tədbirlər də sadalanıb. Konsepsiyada habelə mədəni irsin qorunması və inkişafı bölməsində vahid yanaşma tətbiq edilməklə, mədəni irsin qorunması sahəsində nəticəəsaslı yeni idarəetmə və maliyyələşdirmə modellərinin yaradılması, mədəni irslə əlaqəli infrastrukturun müasirləşdirilməsi və təkmilləşdirilməsi göstərilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən dövlət siyasəti mədəniyyətin yalnız keçmişin mirası olmadığını, gələcəyin qurulmasında da mühüm rol oynayacağını aydın şəkildə göstərir. Aydın görünən odur ki, konsepsiya min illərdən bəri formalaşmış milli-mənəvi dəyərlərimizin etibarlı qorunması, müasir mədəni mühitin inkişafı və dünyaya təbliğ olunması, həmçinin tanıdılması üçün böyük tarixi əhəmiyyətə malik proqramdır. Dövlətimizin başçısı tərəfindən imzalanmış bu böyük tarixi əhəmiyyətli sənəd yaxın gələcəkdə mədəniyyətimizin inkişafına və etibarlı qorunmasına xidmət edəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Xeyriyyəçi mesenatlarımız

# Millət atası - Hacı Zeynalabdin Tağıyev

**Millətsevərliyi, vətənpərvərliyi, maarifpərvərliyi, xeyriyyəçiliyi və təəssübkeşliyi ilə dövrdaşlarının hörmətini və sevgisini qazandı. Xeyirxah əməlləri neçə-neçə soydaşının həyat yoluna işıq saldı. İstedadı, bacarığı və həvəsi olanların qarşısında aciz qaldıqları, məqsədlərinə çatmağa imkan verməyən maddi problemlərini həll etdi. Əlləri yetdiyi və gücü çatdığı qədər ehtiyacı olanlara yardım göstərdi. Odur ki, doğma xalqı onu ən yüksək ada - "Millət atası" adına layiq gördü. Hacı Zeynalabdin Tağıyevin gördüyü böyük işlər yalnız müasirlərinin xatirələrində iz buraxmadı, həm də tariximizin unudulmaz səhifələrinə çevrildi.**



## Başmaqçı oğlu necə milyonçu oldu

Çoxlarının pənahı, ümid yeri olan Hacı Zeynalabdin Tağıyev var-dövlətli ailənin övladı kimi gəlməmişdi bu dünyaya. O, 1823-cü ildə (bəzi mənbələrə görə, 1838-ci il) yanvarın 25-də Bakıda kasıb ailədə doğulmuşdu. Atası Tağı başmaqçılıq edərək birtəhər ailəsini dolandırırdı. Anası Anaxanım vəfat edəndə Zeynalabdinin on, qardaşı Əliqulunun isə yeddi yaşı vardı. Bir müddət sonra atası ikinci dəfə ailə qurdu. Bu evlilikdən beş qızı dünyaya gəldi.

Zeynalabdin uşaqlıq çağlarından yaşından böyük qayğılarla yaşamalı, atasının gün-güzəran dərdlərinə ortaqlıq etməli oldu. Atasının niyyəti öz sənətini oğluna öyrətməkdi. Zeynalabdinin qoçaqlığını görən qonşuları isə ona baqqal dükanında işləməyi təklif etdi. Amma Zeynalabdin nə başmaqçı, nə də baqqal olmaq istəyirdi. Onun bənna olmaq həvəsini görən atası bənna yanında şagird qoydu.

İşləri ağır idi. Hər gün 12 saatadək işləyir, ustaya kömək edir, palçıq daşıyırdı. Gündəlik qazancı 6 qəpik olurdu. O, uşaqlıqdan zəhmətkeş idi. Zeynalabdin on iki yaşına çatanda artıq daşyonan işləyirdi. On beş yaşında isə bənnalıq etməyə başladı. İyirmi yaşında ikən ev tikintisi və daşyonma işləri təşkil etməyə başladı. Sonralar öz tikinti işlərinə özü nəzarət etdi.

1870-ci ildə artıq iki qazanxanadan ibarət kerosin zavodunun sahibiydi. O, "Hacı Zeynalabdin" şirkətini yaradanda isə 1872-ci il idi. Həmin il neftli torpaqlar hərraca qoyulanda Bibiheybətdə iki ortağı ilə bərabər torpaq sahəsi götürərək buruq qurub quyu qazmağa başladı. Bakının neft səltənətinə çevrilməyə başladığı vaxtlar idi. Azərbaycana müstəmləkəsində olduğu çar Rusiyasından və xaricdən sərmayədarlar gəlirdilər. Onlar Bakı ətrafındakı kəndlərdə torpaq sahələri alaraq orada neft buruqları qazdırırdılar.

Ancaq beş il keçsə də, Zeynalabdin və ortaqları müsbət nəticəyə nail ola bilmirdilər. Neft çıxmır, xərclər isə getdikcə artırdı. Ümidləri tükənən ortaqları neft axtarmaqdan əl çəkmək qərarlarını verəndə Zeynalabdin onların pullarını ödəyib torpaq sahəsinin tək sahibi oldu.

Tale sanki onun dözümünü, əzmini sınağa çəkmişdi. Zeynalabdin isə geri çəkilmək niyyətində deyildi. Bəlkə də elə bu əzminin mükafatı oldu, 1878-ci ildə dörd quyudan birində neft fontan vurdu. O, "H.Z.Tağıyev" adlı neft şirkətini qeydiyyatdan keçirdi. Beləcə, başmaqçı oğlu milyonçu oldu...

## Şan-şöhrət və aşıb-daşan var-dövlət

Gündən-günə artan, aşıb-daşan var-dövləti idarə etmək onun üçün çətin olmadı. Çünki fitrətdən ağıllı, uzaqgörən, təmkinli və cəsarətli idi. Zaman və şərait Hacı Zeynalabdin Tağıyevin həm də yüksək təşkilatçılıq bacarığına malik olduğunu göstərdi. Bu keyfiyyətləri sayəsində o, öz şirkətini neft sahəsində öndə gedən müəssisələr sırasına çıxara bildi. Gəlirləri sürətlə artdı. Neft zavodları aldı. 1882-ci ildə Tağıyev 1-ci gildiya tacir rütbəsinə layiq görüldü. Onun neft şirkəti 1896-cı ildə hasilatda ən yüksək göstəriciyə çataraq, 32 milyon pud (512 kq) neft hasil etdi.

Dövrünün ən yeni avadanlıqlarını quraşdırdığı mədənində çalışan ustalara Hacı Zeynalabdin yüksək əməkhaqqı verdi.

Tağıyev qeyri-neft sektoruna qoyduğu sərmayələrdən də xeyli gəlir əldə etdi. 1890-cı ildə balıq sənayesinə güclü sərmayə qoydu. İri balıqçılıq vətəgələrinə sahib olan sahibkar balıq məhsullarının saxlanmasını təmin etmək üçün Mahaçqalada soyuducu zavodu, buz istehsalı zavodu, çəllək zavodu tikdirdi.

XIX əsrin sonlarında neft daşıyan gəmilərin sahibləri Hacı Zeynalabdin Tağıyevin məsləhəti ilə bir araya gələrək vahid şirkət yaratdılar. XX əsrin başlanğıcında isə "Kür-Xəzər" gəmiçilik və aksioner cəmiyyəti təsis olundu. Yeni qurumun əsas məqsədi sərnişin və yük daşımalarını həyata keçirmək idi. Gəmilər Xəzər dənizindəki bütün limanlarda, Volqa çayında, Kür çayında hərəkət edirdi.

Çox keçmədi ki, Tağıyev şəhərdən Bibiheybət mədənlərinə şose yolu çəkdirdi. O, Bakı-Şollar su kəmərinin tikintisi üçün də pul ayırdı.

Hacı Zeynalabdin Tağıyev 1900-cü ildə Qafqazda ilk toxuculuq fabriki açdı. Bakı Toxuculuq Fabrikini xammalla təmin etmək üçün Yevlaxda pambıq əkini üçün torpaq sahəsi aldı. 1909-cu ildə Cavadda pambıqtəmizləmə zavodu inşa etdirdi.

Bakının ən iri ticarət mərkəzi sayılan ticarət evini də təşkil edən Hacı Zeynalabdin Tağıyev oldu.

Hacı Zeynalabdin Bakıda və ətrafında çoxsaylı yaşayış binaları, bağ evləri və ticarət obyektlərinə sahib idi. O, 1895-1897-ci illərdə şəhərin mərkəzində böyük imarət inşa etdirdi. Məşhur sahibkar, xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin və ailəsinin yaşadığı, Bakı şəhərinin baş memarı olmuş İosif Vikentyeviç Qoslavskinin (1865-1904) layihəsi əsasında inşa edilmiş Tağıyev sarayı Bakının ən gözəl binalarından biridir. İndi həmin binada Milli Azərbaycan Tarixi Muzeyi yerləşir.

## Maarifçi və xeyriyyəçi

Hacı Zeynalabdin Tağıyevin XIX əsrin sonları, XX əsrin əvvəllərində Azərbaycanda maarifçiliyin inkişafına göstərdiyi xidmətlər misilsiz oldu. Yoxsulluq, maddi məhrumiyyətlər içərisində keçən uşaqlıq və gənclik illərində onun təhsil almaq imkanı olmamışdı. Təhsilsiz milyonçu məktəblərin açılması, soydaşlarının savad alması üçün öz nüfuzundan istifadə edir və bunun üçün küllimiqdarda vəsait xərcləyirdi.

Onun təşəbbüsü və dəstəyi ilə açılan Qızlar məktəbi Azərbaycanın maarifçilik tarixində böyük rol oynadı. Müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi olan bu təhsil ocağının yaradılması əsl hünər idi. Çünki Azərbaycanda xurafatın, cəhalətin hökm sürdüyü o dövrdə qızların təhsil alması çoxları üçün qəbuledilməz idi. Lakin problem yalnız bundan ibarət deyildi. Məktəbin açılmasına icazənin alınması, binasının tikintisi həm də böyük zəhmət və səbir tələb edirdi. Rusiya imperator idarələrinin süründürməçiliyi ilə üzləşən Hacı Zeynalabdin Tağıyev məqsədindən dönmədi və bu yolda ruhdan düşmədi. O, icazəyə, məktəbin binasının yerinin müəyyən edilməsinə və tikintisinə dörd il vaxt sərf etdi. 1896-cı ildə qız məktəbi açmağa icazə verildi. Müsəlman qızlar məktəbi üçün İsmailliyyə Sarayının yanında yer ayrıldı. Məktəb binasının layihəsini Tağıyev mahir memar Qoslovskiyə həvalə etdi. 1898-ci ildə binanın tikintisinə başlandı və 1900-cü ildə başa çatdı. Hacı Zeynalabdin Tağıyev Qızlar Məktəbinin yaradılmasına böyük vəsait sərf etdi. Dövrün böyük ziyalıları bu məktəbin ərsəyə gəlməsinə cani-könüldən qoşuldular .

Hacı Zeynalabdin Tağıyev Rusiyada mesenatlığı ilə tanınırdı. O, Azərbaycanda maarifçiliyin, mətbuatın inkişafında müstəsna xidmətlər göstərirdi. Tağıyevin vəsaiti ilə Bakıda bir sıra qəzet və jurnallar çap edilirdi.

Xeyriyyə məqsədilə yaradılan cəmiyyətlər Hacı Zeynalabdin Tağıyevin iştirakı, vəsaiti, yaxud köməyilə yaradılır, fəaliyyət göstərirdi.

Hacı Zeynalabdin Tağıyev Rusiya imperiyasının Həqiqi Dövlət Müşaviri, II və III dərəcəli "Müqəddəs Stanislav" və Şiri-Xurşid ordenləri ilə təltif edilmişdi.

1920-ci il aprelin 28-də Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal olundu. Yeni hökumət ilk gündən qəlbi vətəni, xalqı ilə döyünən azərbaycanlılara qənim kəsildi. Onlardan biri də Hacı Zeynalabdin Tağıyev oldu. Onun da mal-mülkləri müsadirə edildi. İllərlə qazandığı var-dövlətinə, tikdirdiyi mülklərə uzaqdan baxmaq məcburiyyətində qaldı. Lakin yeni hökumətin rəhbərlərindən olan Nəriman Nərimanovun göstərişi ilə qocaman mesenata əlindən alınmış mülklərindən birində - Mərdəkandakı bağ evində yaşamaq imkanı verildi. Digər milyonçuların aqibəti isə daha acınacaqlı oldu.

Hacı Zeynalabdin Tağıyev 1924-cü il sentyabrın 1-də 101 yaşında (bəzi mənbələrə görə 86 yaşında) dünyasını dəyişdi. Sentyabrın 4-də dəfn edildi. Dəfni izdihamlı oldu. Hətta Nəriman Nərimanovun köməyi ilə Bakının "Kommunist" və "Bakinskiy raboçiy" qəzetlərində onunla bağlı nekroloq da dərc edildi.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Azərbaycan və Albaniya milli kitabxanaları arasında qarşılıqlı əlaqələr genişlənir

**Yanvarın 28-də Albaniyanın ölkəmizdəki səfiri Besart Kadia Azərbaycan Milli Kitabxanasında olub. Bu barədə AZƏRTAC-a Milli Kitabxanadan məlumat verilib.**



Bildirilib ki, Milli Kitabxananın direktoru, professor Kərim Tahirov qonağa kitabxana haqqında məlumat verib. Bildirilib ki, 5 milyona yaxın kitab fondu olan Milli Kitabxana dünyanın 90 ölkəsinin milli kitabxanaları ilə kitab mübadiləsini həyata keçirir, 54 ölkənin milli kitabxanası ilə qarşılıqlı əməkdaşlığa dair memorandum imzalayıb. Kərim Tahirov Milli Kitabxananın fəaliyyəti, həyata keçirdiyi layihələr haqqında ətraflı məlumat verərək, Azərbaycan Milli Kitabxanasının Albaniya Milli Kitabxanası ilə qarşılıqlı əməkdaşlıq haqqında memorandumun 2022-ci ildə imzalandığını bildirib.

2025-ci ildə Albaniya Milli Kitabxanasında Azərbaycan ədəbiyyatı bölməsinin açıldığını xüsusilə vurğulayan direktor Milli Kitabxanada da belə bir bölmənin 2 il əvvəl yaradıldığını səfirin diqqətinə çatdırıb.

Səfir Albaniya Milli Kitabxanası ilə Azərbaycan Milli Kitabxanası arasında qarşılıqlı əlaqələrin, eləcə də beynəlxalq kitab mübadiləsinin genişləndirilməsində öz dəstəyini göstərəcəyini bildirib. O, Azərbaycan Milli Kitabxanası ilə əməkdaşlığa hər zaman hazır olduğunu və burada albaniyalı yazıçı və şairlərin səfirlik tərəfindən türk və Azərbaycan dilində nəşr olunmuş kitablarının təqdimatının keçirilməsinin vacibliyinə diqqət çəkib.

Görüşdə hər iki ölkənin kitabxana mütəxəssisləri arasında qarşılıqlı təcrübə mübadiləsi, kitabxanalarda mövcud olan kitablar və əlyazmaların qorunması, rəqəmsallaşdırılması və elmi dövriyyəyə cəlb edilməsi sahəsində əməkdaşlıq barədə də fikir mübadiləsi olmuşdur.

Direktor qonaqlara ölkəmizlə bağlı kitablarını hədiyyə edib.

Sonra qonaqlar Azərbaycan Milli Kitabxanası ilə tanış olub və kitabxananı çox bəyəndiklərini söyləyiblər.

# "Ookla" Azərbaycanda qonaqpərvərlik sahəsində bağlantının sürətləndirilməsi üzrə təşəbbüsə start verir

**İnternet sürətinin və şəbəkə keyfiyyətinin ölçülməsi üzrə lider şirkət olan "Ookla" qonaqpərvərlik sektoru üçün "Speedtest Certified" adlı yeni məhsulunun ilk təqdimatını Bakıda keçirib.**

AZƏRTAC xəbər verir ki, "Ookla"nın yeni məhsulunun əsas məqsədi sektorda fəaliyyət göstərən bizneslərin internet infrastrukturunu qiymətləndirmək və sertifikasiyadan keçirdərək internet keyfiyyətini yüksəltmək və qonaqlara dünya səviyyəli rəqəmsal təcrübələr təqdim etməkdir.

Tədbir Bakıda İnformasiya və Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA), Azərbaycan Turizm Bürosu (ATB) və Azərbaycan Hotel Assosiasiyası (AHA) birgə təşkilatçılığı ilə keçirilib. Tədbirdə turizm, telekommunikasiya və infrastruktur sahələrindən 100-dən artıq məsul şəxs iştirak etmiş və qapalı məkanlarda internet bağlantı təcrübəsindən gözləntiləri müzakirə olunub.

"Yüksəkkeyfiyyətli, etibarlı və davamlı bağlantı artıq lüks deyil - bu, hər bir qonağın gözləntisinə çevrilib və rəqabətədavamlı, yüksəksəviyyəli qonaq təcrübəsinin əsas elementidir. Bu pilot proqramın yaradılması ilə biz Azərbaycana qonaqpərvərlik sektorunda internet bağlantısının keyfiyyətinin müəyyənləşdirilməsi, yoxlanılması və təqdim olunması sahəsində yeni qlobal meyar formalaşdırmağa kömək edirik. Qonaqpərvərlik sektoruna dünya səviyyəli rəqəmsal təcrübə təqdim etmək üçün İKTA, ATB və AHA ilə tərəfdaşlıqdan qürur duyuruq", - deyə "Ookla"nın prezidenti və baş icraçı direktoru Stiven Bay bildirib.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Səməddin Əsədov bildirib ki, bugünkü sammit kimi platformalar təkcə məlumat və analitik baxışların paylaşılması üçün deyil, həm də Azərbaycanın rəqəmsal gələcəyi üzrə ümumi baxışın formalaşdırılması üçün böyük əhəmiyyət daşıyır.

ATB-nin baş icraçı direktoru Florian Zenqstşmid vurğulayıb ki, müasir dövrdə rəqəmsal əlaqəlilik turizmdə rəqabətqabiliyyətlilik və dayanıqlı inkişafı təmin edən strateji amillərdən biri kimi çıxış edərək bu sahədə dövlət-özəl tərəfdaşlığının möhkəmlənməsini təşviq edir. Azərbaycanda rəqəmsal infrastruktur üzrə son illərdə əldə edilən nailiyyətlər il boyu turizmin inkişafını dəstəkləmək və ölkəni irimiqyaslı beynəlxalq tədbirlər üçün etibarlı ev sahibi kimi mövqeləndirmək baxımından möhkəm zəmin yaradır.

Tədbir çərçivəsində sertifikatlaşdırma prosesinin canlı nümayişi də keçirilib. Bu proses yerində radio tezliyin (RF - Radio Frequency) keyfiyyətinin qiymətləndirilməsini, real performans testlərini və infrastrukturun dayanıqlığını əhatə edir. Tədbirdə təqdim olunan "MEO Arena" və "The Social Hub Rome" kimi nümunəvi təcrübələr göstərib ki, üçüncü tərəfin təsdiqlədiyi qiymətləndirmə aparıcı məkanlara sponsorları cəlb etməyə və qonaqların etimadını gücləndirməyə kömək edir.

"Speedtest"in qlobal səviyyədə etibar edilən test metodologiyasından və güclü brend tanınmasından istifadə edən "Speedtest Certified" proqramı qonaqpərvərlik ekosisteminin bütün iştirakçıları üçün aydın üstünlüklər yaradır. Bu təşəbbüs Azərbaycanın "Speedtest Global Index"də mövqeyini daha da möhkəmləndirir və ölkənin rəqəmsal baxımdan inkişaf etmiş turizm məkanı kimi nüfuzunu gücləndirir.

Qeyd edək ki, "Ookla" internet sürətinin və şəbəkə keyfiyyətinin ölçülməsi üzrə qlobal lider olaraq "Speedtest", "Downdetector", "Ekahau" və "RootMetrics" brendlərinin ekspertizasını birləşdirərək misilsiz şəbəkə və bağlantı analitikası təqdim edir. Çoxmənbəli məlumatları sənaye üzrə aparıcı biliklərlə birləşdirərək, şəbəkə performansı göstəricilərini strateji və tətbiq oluna bilən analitik nəticələrə çevirir.

# MARAQLARIN İFADƏSİ ÜÇÜN DƏVƏT

## MƏSLƏHƏTÇİNİN İXTİSASINA ƏSASLANAN SEÇİM (MİƏS)

**Layihənin Adı:** Yaşanılabilən Bakı (hazırlıq mərhələsi)
**Qrant Nömrəsi:** TF-C8884
**Tapşırığın Adı:** Abşeron tullantı hövzəsi üzrə Birləşdirilmiş Bərk Məişət Tullantılarının İdarə Edilməsi alt layihələri üçün Ətraf mühit və Sosial çərçivə (ƏMSÇ) alətlərinin hazırlanmasına dəstək üzrə məsləhət xidmətləri
**Satınalma Planının İstinad Nömrəsi:** AZ-MOEC-CS-CQS-04
**Ölkə:** Azərbaycan

1. Azərbaycan Respublikası Dünya Bankından "Yaşanılabilən Bakı" layihəsinin hazırlıq mərhələsi üçün qrant (TF-C8884) əldə etmişdir və qrant vəsaitinin bir hissəsini aşağıdakı məsləhət xidmətləri üçün yönəltməyi planlaşdırır.
2. Məsləhət xidmətləri ("Xidmətlər") Abşeron tullantı hövzəsi üzrə Birləşdirilmiş Bərk Məişət Tullantılarının İdarə Edilməsi altlayihələri üçün Ətraf mühit və Sosial çərçivə (ƏMSÇ) alətlərinin hazırlanmasına dəstək xidmətlərini əhatə edir.
   Məsləhətçi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə (İcraçı Agentlik) Abşeron tullantı hövzəsində yerləşəcək birləşdirilmiş bərk məişət tullantılarının idarə edilməsi infrastrukturunun (beş əsas komponentdən - bərk məişət tullantılarının poliqonu/poliqonları və tullantıların ötürücü məntəqələrindən ibarət) tikintisi və istismarı üçün Ətraf mühit və Sosial risklərin idarə edilməsi (ƏMSRİE) sənəd paketinin hazırlanması, ictimaiyyətə açıqlanması və maraqlı tərəflərlə məsləhətləşmələrin keçirilməsi işlərində dəstək göstərəcək.
   Tapşırığın ümumi müddəti müqavilənin imzalanma tarixindən etibarən 6 aydır. Tapşırığın icrasına 2026-cı ilin aprel ayında başlanılması nəzərdə tutulur. Tapşırığın ehtimal olunan ümumi dəyəri 100,000 ABŞ dollarıdır. Təhvil veriləcək işlərin siyahısı və gözlənilən müvafiq icra müddətləri aşağıdakı keçiddə yerləşdirilən Texniki Tapşırıqda (TT) göstərilmişdir:
   **https://www.dropbox.com/scl/fi/rrdla6krbsylu4w1g5bb5/ToR_ESRM_Waste_management_FINAL_28.01.2026.docx?rlkey=um0m0vjlysg9ewrdzxif10rj5&st=0oxj6spc&dl=0**
3. İcraçı Qurum hazırda uyğun ixtisaslı məsləhətçi şirkətləri (Məsləhətçilər) qeyd olunan Xidmətlərin icra edilməsi üçün maraqlarını bildirməyə dəvət edir. Maraqlanan Məsləhətçilər Xidmətləri yerinə yetirmək üçün tələb olunan müvafiq ixtisas və təcrübəyə malik olduqlarını göstərən məlumatları təqdim etməlidirlər.
4. Xidmətləri icra etmək üçün ən uyğun şirkət Dünya Bankının qaydalarında göstərilən Məsləhətçinin ixtisasına əsaslanan seçim (MİƏS) üsuluna uyğun olaraq seçiləcək və aşağıdakı meyarlar üzrə qiymətləndiriləcəkdir:
   (i) Ümumi Təcrübə: a)Maraqların ifadəsinin son tarixinə qədər şirkətin əsas fəaliyyət istiqaməti kimi məsləhət xidmətləri sahəsində ən az 10 illik ümumi iş təcrübəsi və Dünya Bankı kimi Beynəlxalq Maliyyə İnstitutları (BMİ) tərəfindən maliyyələşdirilən layihələrdə təcrübə.
   (ii) Xüsusi Təcrübə:
   - Bərk məişət tullantıları üçün poliqonlar və ötürücü məntəqələrinin araşdırılması və qiymətləndirilməsinin bütün formalarında, o cümlədən ətraf mühitə və sosial təsirin qiymətləndirilməsi işlərində təcrübə; bu araşdırma və qiymətləndirmələr üçün Avropa İttifaqının ətraf mühit standart və tənzimləmələri ilə müəyyən edilmiş meyarlara, eləcə də Dünya Bankının siyasət və prosedurlarına uyğun şəkildə həyata keçirmə bacarığı;
   - Poliqon və ötürmə məntəqələrinin layihələndirilməsi və icrası proseslərində təcrübə;
   - Yeni poliqonlar və ötürmə məntəqələrinin ətraf mühitə təsirin azaldılması ilə bağlı tədbirləri nəzərə almaqla tikinti və istismar xərclərinin dəqiq hesablanması sahəsində təcrübə.

   (iii) Oxşar regionlarda təcrübə və heyət səfərbərliyi bacarığı:
   Azərbaycan və ya Cənubi Qafqaz regionunda və ya oxşar iqlim şəraitinə malik bölgələrdə təcrübənin olması, həmçinin yerli ətraf mühit və sosial tənzimləyici çərçivələrə dair anlayışın mövcudluğu üstünlük hesab olunur. Texniki tapşırıqda müəyyən edilmiş vəzifələrin icrası üçün tələb olunan ixtisaslı mütəxəssislərin səfərbər edilməsi bacarığı.
   Qısa siyahıyaalma mərhələsində əsas mütəxəssislər fərdi olaraq qiymətləndirilməyəcək, lakin növbəti mərhələdə seçilmiş Məsləhətçinin ixtisasının qiymətləndirilməsinə tapşırıqla bağlı müvafiq əsas mütəxəssislərin ixtisasları, təcrübələri və mövcudluğu da daxil ediləcəkdir. Məsləhətçi komandasına həm beynəlxalq, həm də yerli mütəxəssislərin daxil ediləcəyi gözlənilir.
5. Yuxarıda qeyd olunan seçim meyarlarına uyğun olduğunu nümayiş etdirmək üçün Məsləhətçilər ən azı aşağıdakı sənədləri təqdim etməlidirlər. Məsləhətçi şirkət yalnız özünün ixtisas və təcrübəsinə dair məlumatları təqdim edə bilər; belə ki, şirkət öz idarəedici (parent company), eyni idarəedici şirkətə aid (sister company) və ya törəmə şirkətlərinin və ya öz əməkdaşlarının təcrübəsini öz təcrübəsi kimi göstərə bilməz.
   (i) Şirkətin müvafiq dövlət orqanı tərəfindən verilmiş qeydiyyat/təsis sənədləri.
   (ii) Şirkətin əsas fəaliyyət sahələrini əks etdirən broşürlər.
   (iii) Bu Maraq ifadəsi üçün dəvətə əlavə olunmuş 1№-li formanı (formaya keçid linki: **https://www.dropbox.com/scl/fi/hulzprh5-xzvtzsl0goehf/Form-1-Similar-Contracts.docx?rlkey=qvhme2yl126m609f5wilwi5w0&st=wvya8boj&dl=0)** tamamlayaraq oxşar layihə/müqavilələr barədə məlumatların təqdim edilməsi. Tamamlanmış müqavilələr üzrə sifarişçi rəylərinin (referans məktublarının) surətlərini hazırkı mərhələdə təqdim etmək tələb olunmur. Lakin növbəti mərhələdə, təkliflərin təqdim edilməsi zamanı, Sifarişçi seçilmiş məsləhətçidən həmin rəylərin surətlərini təqdim etməyi tələb edə bilər.
   (iv) Tapşırıqla bağlı mövcud mütəxəssislərin siyahısı və onların ixtisası və müvafiq təcrübəsi haqqında qısa məlumat.
6. Məsləhətçilər, ixtisas və bacarıqlarını artırmaq məqsədilə assosiasiya yarada bilərlər. Belə assosiasiyalar birgə müəssisə (BM) formasında (bu halda BM üzvləri birgə və ayrılıqda məsuliyyət daşıyırlar) və ya sub-məsləhətçi formasında ola bilər (bu halda baş məsləhətçi sub-məsləhətçinin xidmətlərinə görə də məsuliyyət daşıyır). Assosiasiya formasında olarsa, məsləhətçilər təklif olunan assosiasiyanın tərkibini əsaslandırmaq üçün maraq ifadəsində (a) assosiasiyanı formalaşdırmaqda məqsədlərini və (b) birgə müəssisənin hər bir üzvünün və/və ya hər bir sub-məsləhətçinin tapşırığın icrasında nəzərdə tutulmuş rolunu və müvafiq ixtisasını izah etməlidirlər.
   Qeyd: Yuxarıda 4-cü bənddə qeyd edilən xüsusi təcrübə tələbinə uyğunluğun qiymətləndirilməsi zamanı sub-məsləhətçilərin təcrübəsi nəzərə alınmayacaq.
7. Xidmətlərin göstərilməsində marağı olan məsləhətçilər Dünya Bankının 2025-ci il fevral tarixli "İnvestisiya Layihələrinin Maliyyələşdirilməsi (İLM) üzrə Borcalanlar üçün Dünya Bankının Satınalma Qaydaları" sənədinin 3.14, 3.16 və 3.17-ci bəndlərində Dünya Bankının maraqların toqquşması siyasətinə diqqət yetirməlidirlər.
8. Maraq ifadələri yazılı formada, imzalanmış sənəd şəklində aşağıda göstərilən elektron poçt ünvanına **13 fevral 2026-cı il** tarixinədək təqdim olunmalıdır.

Əlavə məlumatı aşağıdakı elektron poçt ünvanından əldə etmək olar:

**Əlaqələndirici şəxs:** Nicat Hüseynov - Layihə koordinatoru/Direktor müavini, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Layihə İcra Qrupu

**Ünvan:** Heydər Əliyev prospekti, 155, AZ1029, Bakı, Azərbaycan
**Tel:** +994 12 310 28 00 (daxili: 2227)
**E-mail: nhuseynov@economy.gov.az**

# REQUEST FOR EXPRESSIONS OF INTEREST

## CONSULTANT'S QUALIFICATIONS BASED SELECTION (CQS)

**Name of Project:** Livable Baku (Preparation Stage)
**Grant Number:** TF-C8884
**Assignment Title:** Consultancy Services for the Preparation Support of the Environmental and Social Framework (ESF) Tools for the Integrated Solid Waste Management Subprojects of Absheron Waste shed
**Procurement Plan Ref Number:** AZ-MOEC-CS-CQS-04
**Country of Delivery:** Azerbaijan

1. The Republic of Azerbaijan has received financing from the World Bank toward the cost of the Preparation Stage of the Livable Baku Project (TF-C8884) and intends to apply part of the proceeds for the following consulting services.
2. The consulting services ("the Services") include Preparation Support of the Environmental and Social Framework (ESF) Tools for the Integrated Solid Waste Management Subprojects of Absheron Waste shed.
   The Consultant will assist the Ministry of Economy of the Republic of Azerbaijan (Implementing Agency) with the development, disclosure and stakeholder consultation on the Environmental and Social Risk Management (ESRM) document package for the construction and operation of the integrated solid waste management infrastructure in Absheron waste shed comprising five individual elements - solid waste landfill(s) and Waste Transfer Stations (WTSs).
   The overall duration of the assignment is 6 months from the contract signature date. The assignment is expected to start in April 2026. The estimated total cost of the assignment is USD 100,000. The deliverables and the corresponding expected timelines are detailed in the Terms of Reference (ToR) for the assignment, which can be accessed through the following link:
   **https://www.dropbox.com/scl/fi/rrdla6krbsylu4w1g5bb5/ToR_ESRM_Waste_management_FINAL_28.01.2026.docx?rlkey=um0m0vjlysg9ewrdzxif10rj5&st=0oxj6spc&dl=0**
3. The Implementing Agency now invites eligible consulting firms ("Consultants") to indicate their interest in providing the Services. Interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.
4. The best qualified firm to carry out the services will be selected in accordance with the Consultant's Qualifications-based Selection (CQS) method set out in the Regulations of the World Bank and evaluated on the basis of the following criteria:
   (i) General Experience: At least 10 years of experience in consultancy business and experience with International Financial Institutions, such as World Bank.
   (ii) Specific Experience:
   - Experience in all forms of solid waste landfill and transfer site investigation and evaluation including environmental and social impact analysis in accordance with the criteria for such investigations and evaluations as defined by European Union environmental standards and regulations and in accordance with the policies and procedures of the World Bank.
   - Experience in landfill and transfer station design and implementation processes.
   - Experience in accurately estimating costs of construction and operations associated with the environmental impact mitigation aspects of the new landfills and transfer stations.

   (iii) Regional Experience and Staff Mobilization Capacity:
   Experience in Azerbaijan or the South Caucasus or in the region with similar climatic conditions and understanding of local environmental and social regulatory frameworks is an advantage. Capability of mobilization of the qualified experts required for the assignment under the ToR.
   While key experts will not be individually evaluated at the shortlisting stage, in the next stage, the evaluation of the selected Consultant's qualifications will include the qualification, experience and availability of key experts specified in the ToR. It is expected that the Consultant's team will include both international and local experts.
5. To demonstrate their qualifications and experience in meeting the above selection criteria, Consultants are requested to submit, as a minimum, the supporting documentation listed below. A consultant firm can only use its own qualifications and experience and not of its parent, sister or subsidiary companies or its employees.
   (i) The firm's incorporation/registration documents issued by the concerned government authority of the country of the firm.
   (ii) The firm's company brochures describing the core areas of business.
   (iii) Completed Form-1 (link to the form: **https://www.dropbox.com/scl/fi/hulzprh5xzvtzsl0goehf/Form-1-Similar-Contracts.docx?rlkey=qvhme2yl126m609f5wilwi5w0&st=wvya8boj&dl=0)** to provide information of similar contracts. Copies of completion certificates/references of clients of completed contracts are not required to be submitted with the EOI. In the subsequent stage at the time of submission of proposals, the Client may request the selected consultant to submit such supporting completion certificates.
   (iv) A list of available qualified experts relevant to the assignment, accompanied by brief information on their qualifications and relevant experience.
6. If consultants choose to associate to enhance their qualifications and capability for the assignment, then such associations may either be as a Joint Venture (i.e. all members of the joint venture shall be jointly and severally responsible) and/or Sub-consultants (i.e. the Consultant will be responsible, including for the services of the sub-consultant). In case of an association, the Consultants must explain in the EOI submission (a) the rationale for forming the association and (b) the anticipated role and relevant qualifications of each member of the Joint Venture and/or of each sub-consultant for carrying out the assignment, to justify the proposed inclusion of the JV members and/or sub-consultants in the association.
   Note: For assessing compliance with the specific experience requirement under Item 4 above, the experience of sub-consultants will not be considered.
7. The attention of interested Consultants is drawn to paragraphs 3.14, 3.16 and 3.17 of the World Bank Procurement Regulations for IPF Borrowers, dated February 2025 (the Regulations), setting forth the World Bank's policy on conflict of interest.
8. Expressions of Interest must be submitted in a written form as a signed document to the e-mail address provided below, no later than **February 13, 2026.**

Further information can be obtained at the e-mail address indicated below.

Attn: Mr. Nijat Huseynov, Project Coordinator/Deputy Director, Project Implementation Unit of the Ministry of Economy of the Republic of Azerbaijan

**Address:** 155 Heydar Aliyev Avenue, AZ1029, Baku, Azerbaijan
**Tel:** +994 12 310 28 00 (extension: 2227)
**E-mail: nhuseynov@economy.gov.az**

# Məmmədbəyli kəndində daha 26 ailəyə evlərinin açarları təqdim olunub

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir.**

AZƏRTAC xəbər verir ki, Zəngilan rayonunun Məmmədbəyli kəndinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu mərhələdə Zəngilan rayonunun Məmmədbəyli kəndinə 26 ailə - 142 nəfər köçürülüb.

Dünən səhər saatlarında yola salınan ailələr doğma yurdlarına çatıblar. Həmin ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.





Onlara evlərinin açarları təqdim olunub. Mərasimdə Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək evlərində məskunlaşıblar.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

# BMT: 2026-cı ildə qlobal iqtisadi artım pandemiyadan əvvəlki dövrdən aşağı olacaq

**BMT-nin İqtisadi və sosial məsələlər üzrə baş katibinin müavini Li Cunhua Anadolu Agentliyinə verdiyi müsahibədə bildirib ki, 2026-cı ildə qlobal iqtisadi artım, çox güman ki, pandemiyadan əvvəlki səviyyələrdən aşağı olacaq.**

Qlobal ÜDM-in 2026-cı ildə 2,7 faiz, 2027-ci ildə isə 2,9 faiz artacağı proqnozlaşdırılır ki, bu da 2010-2019-cu illər üçün orta hesabla qeydə alımnış 3,2 faizdən aşağıdır.

Li vurğulayıb ki, bu aşağı artım templəri müvəqqəti dövriyyəlik iqtisadi zəiflikdən daha çox "dərin köklü struktur məhdudiyyətlərini" əks etdirir. Artımı ləngidən əsas amillər, xüsusən inkişaf etməkdə olan ölkələrdə xarici investisiyaların aşağı səviyyələri və yüksək dövlət borc yüküdür. Bundan əlavə, faiz ödənişləri milli büdcələrdə getdikcə daha çox pay tutur. Bu isə infrastruktura, insan kapitalına və iqlim dəyişikliyinə uyğunlaşma tədbirlərinə investisiya qoyuluşu imkanlarını məhdudlaşdırır.

BMT Baş katibinin müavini həmçinin qeyd edib ki, süni intellektin tətbiqi məhsuldarlığın artmasına töhfə verir, lakin onun faydaları məhdud sayda böyük iqtisadiyyatlarda cəmləşib ki, bu da qlobal struktur problemlərini kompensasiya etmir.

Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) ekspertlərinin proqnozlarına görə, daxili tələbat və siyasətin yumşaldılması ABŞ-də və Asiyanın bəzi yerlərində artımı dəstəkləsə



də, Avropada iqtisadi artım zəif olaraq qalır, yüksək borc səviyyəsi və iqlim şokları bir çox inkişaf etməkdə olan iqtisadiyyatı məhdudlaşdırmağa davam edir.

Bildirilir ki, qlobal inflyasiyanın 2025-ci ildəki 3,4 faizdən 2026-cı ildə 3,1 faizə düşəcəyi proqnozlaşdırılır, lakin real gəlirlər ərzaq, enerji və mənzil daxil olmaqla, yüksək qiymətlər fonunda yenə də azalacaq. Bir çox ölkə üçün bu il qlobal ticarətdə dəyişən oyun qaydalarına uyğunlaşma dövrü olacaq.

Ümumilikdə, UNCTAD ekspertləri Avropa ölkələrinin iqtisadi proqnozunu qeyri-müəyyən hesab edirlər və bildirirlər ki, bu, əsasən istehlakçıların əhvali-ruhiyyəsindən asılıdır. Avropada inflyasiya Avropa Mərkəzi Bankının hədəfinə uyğun olduğundan, AMB-nin pul siyasətinin daxili tələbi dəstəkləyərək yumşaq qalacağı proqnozlaşdırılır. Qeyri-müəyyən xarici proqnoz nəzərə alınmaqla, Aİ iqtisadiyyatının 2025-ci ildə 1,5 faiz artımdan sonra 2026-cı ildə 1,3 faiz artacağı gözlənilir.

Bundan əlavə, UNCTAD qeyd edib ki, ABŞ iqtisadiyyatının 2025-ci ildə 1,9 faiz artımdan sonra 2026-cı ildə 2 faiz artacağı gözlənilir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3281
Sifariş 143

Qiyməti 60 qəpik